NOVRUZ BAYRAMINIZ MÜBARƏK!

Rəsmi dövlət qəzeti

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 62 (7789) ÇƏRŞƏNBƏ AXŞAMI, 20 mart 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik

Azərbaycanda milli bayram kimi hər il yüksək səviyyədə qeyd olunan Novruz xalqın müqəddəs etiqadına söykənməklə özündə mənəvi-əxlaqi, ülvi və dünyəvi duyğuları təcəssüm etdirir. Təbiətin oyanışı ilə ürəklərdə saf niyyətlər, xoş arzular oyadır, əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadır, insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllərə əsaslanır.

Novruz bayramı 2009-cu il sentyabrın 30-da UNESCO-nun dünya xalqlarının qorunan qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, 2010-cu il fevralın 23-də Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 64-cü sessiyasında 21 mart Beynəlxalq Novruz Günü elan olunmuşdur. Ölkə rəhbəri hər dəfə təbriklərində xüsusi vurğulayır ki, keçmişimizin ən dərin qatlarından gələn Novruz bayramı xalqımızın mənəviyyat dünyasının ayrılmaz hissəsi olub, Odlar diyarında həmişə uca tutulmuşdur: "Azərbaycanı qədim sivilizasiyanın mərkəzlərindən biri kimi tanıdan misilsiz dəyərlərimiz sırasında müqəddəs Novruz ənənələri mühüm mövqeyə malikdir. Ötən dövrlərin təqib və təzyiqlərinə baxmayaraq, həmin ənənələri günümüzədək layiqincə qoruyub saxlaması xalqımızın bəşər mədəniyyəti qarşısında müstəsna xidmətlərindəndir".

Əsrlərin "mirasına" yönələn təhlükə

Müasir qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı real həyatda misilsiz nailiyyətlərə, mütərəqqi dəyişikliklərə yol açsa da, bu prosesin mədəni irsə, ənənələrə müəyyən təhlükə meyilləri də özünü qabarıq şəkildə göstərir. Tarixdən məlumdur ki, hər hansı milləti asılı, məsum vəziyyətinə salmaq üçün ona keçmişini, milli ənənələrini unutdurmaq, yaxud da kökündən, soyundan uzaqlaşdırmaq yetərlidir. Xalqların qərinələr boyu formalaşmış yüksək əxlaqi-mənəvi meyarlarını sağlam ruhda qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv inkişafına təsir göstərmək, onun genetik yaddaşını, kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya qüdrətli şəxsiyyətlərin üzərinə düşür. Azərbaycanda bu ağır və məsuliyyətli işi məhz ulu öndər Heydər Əliyev üzərinə götürərək hakimiyyətdə olduğu bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin böyük himayədarı qismində çıxış etmişdir. Böyük rəhbər nitqlərində xüsusi vurğulamışdır ki, müasir dünyada qloballaşma proseslərinin nəticəsi kimi meydana çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın mənəvi dəyərlərinin qorunması məsələsini də çağdaş zamanın aktual problemlərindən birinə çevirmişdir. Problemi aktuallaşdıran başlıca amil budur ki, inteqrasiyalar bir çox hallarda əsrlərin mirasına - milli-mənəvi dəyərlərə qarşı yönəlir. Ümummilli lider Heydər Əliyevin böyüklüyü də məhz bu təhdidi düzgün qiymətləndirməsi, onun potensial təhlükə mənbəyinə çevrilməsinin qarşısını almasıdır. Ulu öndərin vətəninə, xalqına, millətinə, ənənələrinə bağlılığı bu təhdidlərin önündə əzəmətli sipərə çevrilmiş, əslində, xalqın genetik yaddaşını qorumuşdur. Xalqın milli düşüncə sisteminin bədii-poetik modeli olan Azərbaycan folklorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər böyük rəhbərin dəyərlərimizə həssas münasibətindən irəli gəlməklə yanaşı, ictimai şüurun oyanmasına da xidmət etmişdir. Təbii ki, görülən işlər sadəcə qayğı olmaqla məhdudlaşa bilməz - bunlar ulularımızdan bizə gəlib çatan müqəddəs irsin göz bəbəyi kimi qorunaraq gələcək nəsillərə əmanət edilməsi, azərbaycanlı məfkurəsinin, mentalitetinin, əxlaqının bütün dünyada təbliği, qəbul olunması üçün atılan düşünülmüş, məqsədyönlü addımlar idi.

Milli-mənəvi dəyərlərimizin böyük himayədarı

Ulu öndər hələ ötən əsrin 70-80-ci illərində - Azərbaycana birinci rəhbərliyi dövründə xalqda milli heysiyyəti gücləndirmək, onu şanlı keçmişinə, soykökünə qaytarmaq, habelə zəngin bədii irsini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün aşkar-gizli tədbirlər həyata keçirmişdir. Azərbaycan KP MK-nın 1970-ci il 20 mart tarixli plenumunda çıxış edən Heydər Əliyev kütləvi informasiya vasitələrinin bu sahədəki fəaliyyətindən narazılığını ifadə edərək demişdir: "Bəzən mətbuat, radio və televiziya işçiləri iqtisadiyyatın, mədəniyyətin və məişətin inkişafına, xalqın mənəvi həyatına aid mühüm məsələləri lazımi səviyyədə işıqlandırmağı bacarmırlar". Böyük rəhbərin bu tarixi çıxışından sonra mətbuatda, televiziya və radioda xalqın mədəni dəyərlərini, adət-ənənələrini, folklorunu, ədəbiyyatını təbliğ edən materiallar çoxalmış, ədəbi irsimizi tərənnüm edən "Bulaq", "Klassik irsimizdən" kimi verilişlər ortaya çıxmış, ana dilinin təbliği istiqamətində real addımlar atılmışdır.

Novruz sovetlər birliyi dövründə dini bayram kimi qadağalar altında olsa, dövlət səviyyəsində keçirilməsə də, ulu öndər bu bayramı xalq arasında sevilərək yaşadılmasını təmin etmişdir. Folklorşünaslıq sahəsində aparılan elmi tədqiqatlarda onun ideoloji-siyasi təsiri dolayısı ilə olsa da, önə çəkilmişdir. Ötən əsrin 70-ci illərində Novruz bayramı ilk dəfə olaraq Heydər Əliyevin xeyir-duası ilə rəsmi şəkildə qeyd olunmuş, televiziya ilə yayımlanmışdır. Ümumxalq bayramının yüksək səviyyədə keçirilməsi Azərbaycan xalqının milli ruhunu yüksəltmiş, zəngin irsimizə, tariximizə böyük məhəbbət yaratmış, milli özünüdərki gücləndirmişdir. Novruz adət-ənənələri o dövrdə bədii əsərlərdə, filmlərimizdə özünə yer tapmışdır. Hər dəfə "Dəli Kür" filmini seyr edərkən Novruz bayramının necə təbliğ olunduğunu əyani şəkildə görürük. Məhz müdrik rəhbərin qayğısı ilə həmin illərdə qorunub saxlanılan milli-mənəvi dəyərlər sonralar Azərbaycan xalqının dövlət müstəqilliyinin bərpasında müstəsna rol oynamışdır.

Ardı 12-ci səh.

Azərbaycan Novruzu gözəl nəticələrlə qarşılayır

Prezident İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak edib

Martın 19-da Bakıda Azərbaycan xalqının milli bayramı - Novruz münasibətilə ümumxalq şənliyi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Novruz şənliyində iştirak ediblər.

Dövlət başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər.

Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnılarının sədaları ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.

Bahar qız dövlət başçısına səməni təqdim etdi.

İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.

Ulu Dədə Qorqud xeyir-dua verərək Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.

Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.

Dövlət başçısı bayram şənliyində nitq söylədi.

Bax: səh. 2

ELAN

"Azərbaycan" qəzeti redaksiyası Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 77.1-ci və 83.6-cı maddələrinin tələblərinə uyğun olaraq, prezidentliyə namizədlərin ödənişsiz təşviqatını aparacaq. Bu məqsədlə ayrılan müvafiq səhifələrin bərabər şərtlərlə və bərabər həcmdə bölüşdürülməsi üçün 21 mart 2018-ci il tarixində saat 11.00-da qəzetin redaksiyasında püşkatma keçiriləcək.

Püşkatmada qeydə alınmış namizədlərin səlahiyyətli nümayəndələrinin, yaxud vəkil edilmiş təmsilçilərinin iştirakı mütləqdir.

Ünvan: Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə

Azərbaycan Novruzu gözəl nəticələrlə qarşılayır

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Əziz dostlar, mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Novruz bayramı bizim sevimli bayramımızdır. Əsrlər boyu Azərbaycan xalqı bu bayramı qeyd edir, öz qəlbində yaşadır. Milli-mənəvi dəyərlərimiz müasir Azərbaycan dövlətinin əsas dayağıdır. Azərbaycan dövləti müasir dövlətdir, ancaq, eyni zamanda, bizim dövlətimiz dərin milli-mənəvi dəyərlər, köklər üzərində qurulubdur. Elə etməliyik ki, gənc nəsil də milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alsın. Onlar da bizim kimi vətənə bağlı olsunlar, milli maraqlarımızı hər şeydən üstün tutsunlar.

Azərbaycan Novruzu gözəl nəticələrlə qarşılayır. Ölkəmiz hərtərəfli inkişaf edir. Aparılan quruculuq işləri ölkəmizi gücləndirir, Azərbaycanın beynəlxalq nüfuzunu artırır. Daxili vəziyyət sabitdir. Bu sabitliyin əsas təminatçısı Azərbaycan xalqıdır. Xalq-iqtidar vəhdəti sabitliyin əsas təminatçısıdır. Daxili siyasətlə bağlı görülən işlər, aparılan islahatlar öz gözəl nəticələrini verməkdədir. Dünyada gedən proseslər bir daha onu göstərir ki, ancaq sabit olan ölkələr uğurla inkişaf edə bilər. Ancaq sabit olan ölkələrə xarici sərmayə qoyulur, insanlar rahat, təhlükəsizlik şəraitində yaşayırlar. Bu gün dünyanın müxtəlif yerlərində sabitlik pozulur, qanlı toqquşmalar baş verir, müharibələr alovlanır, yeni risklər yaranır. Bu gün dünya gündəliyinin əsas məsələsi məhz təhlükəsizlik məsələləridir. Azərbaycan bu istiqamətdə apardığı siyasətlə dünyada böyük rəğbət qazanmış ölkələrdən biridir. Ölkəmizdə daxili risklər üçün heç bir mənbə yoxdur. Xarici risklərdən isə biz özümüzü qoruyuruq və bundan sonra da qoruyacağıq, Azərbaycan xalqının rahat yaşamasını təmin edəcəyik.

Bizim beynəlxalq əlaqələrimiz genişlənir. Bu gün Azərbaycan dünya miqyasında çox yüksək reputasiyaya malik olan bir ölkədir və bizim təşəbbüslərimiz regional əməkdaşlığa təkan verir. Bir neçə gün bundan əvvəl VI Qlobal Bakı Forumu keçirilmişdir. Bu forumda 50-dən çox ölkədən 50-yə yaxın fəaliyyətdə olan və sabiq dövlət və hökumət başçısı iştirak etmişdir. Deyə bilərəm ki, Qlobal Bakı Forumu dünyada keçirilən ən mötəbər forumların arasında qısa müddət ərzində özünəlayiq yer tuta bilmişdir. Bu gün Bakı Forumunda müzakirə olunan məsələlər hesab edirəm ki, dünya üçün çox əhəmiyyətlidir. Gələn ay Bakıda Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin konfransı keçiriləcəkdir. Bu da qlobal, mötəbər beynəlxalq tədbirdir. Bu tədbirin Azərbaycanda keçirilməsi Qoşulmama Hərəkatı və təşkilata üzv ölkələr tərəfindən bizə verilən növbəti dəstəyin təzahürüdür.

Azərbaycan regional əməkdaşlıq məsələlərində bir çox hallarda təşəbbüskar kimi çıxış edir. Bir neçə gün bundan əvvəl tarixdə ilk dəfə olaraq Bakıda Azərbaycan, İran, Gürcüstan və Türkiyənin xarici işlər nazirlərinin birinci görüşü keçirilmişdir. Hesab edirəm ki, bu, tarixi hadisədir, tarixi görüşdür. Bundan əvvəlki dövrlərdə yenə də bizim təşəbbüsümüzlə bir neçə regional format yaranmış və uğurla fəaliyyət göstərir. Azərbaycan-İran-Gürcüstan, Azərbaycan-İran-Türkiyə, Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Rusiya üçtərəfli və nəhayət, Azərbaycan-İran-Gürcüstan-Türkiyə dördtərəfli formatlar yaranmışdır. Qeyd etməliyəm ki, bütün bu çoxtərəfli formatların təşəbbüskarı Azərbaycan olmuşdur. Bu, bölgədə sabitliyi möhkəmləndirir, əməkdaşlığı gücləndirir və bu formatlarda iştirak edən ölkələrin iqtisadi maraqlarını təmin edir. Müzakirə olunan məsələlər siyasi, iqtisadi, mədəni, nəqliyyat və digər sahələri əhatə edir. Bildiyiniz kimi, bizim təşəbbüsümüzlə regionda çox böyük nəqliyyat layihələri icra edilir. Şərq-Qərb nəqliyyat marşrutu artıq reallaşıb. Keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun açılmasından sonra artıq bu marşrut fəaliyyətdədir. Yaxın gələcəkdə Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tam gücü ilə işləməsi nəticəsində Azərbaycan ərazisindən keçən yüklərin həcmi bir neçə dəfə artacaqdır. Hazırda biz "Şimal-Cənub nəqliyyat dəhli"zinin yaradılması ilə məşğuluq. Azərbaycan ərazisində bu marşrutla bağlı bütün işlər görülübdür. Eyni zamanda, Azərbaycan bu marşrutun tam həyata keçirilməsi üçün əlavə tədbirlər görəcəkdir. Həmçinin bu iki önəmli nəqliyyat dəhlizi yeni təşəbbüslərlə çıxış etmək üçün bizə imkan yaratdı və Bakıda dörd ölkənin xarici işlər nazirlərinin görüşündə, eyni zamanda, Cənub-Qərb nəqliyyat marşrutu müzakirə edildi. İlk dəfə olaraq, yenə də bizim təşəbbüsümüzlə. Beləliklə, baxmayaraq ki, Azərbaycanın açıq dənizlərə çıxışı yoxdur, biz Avrasiyanın önəmli nəqliyyat mərkəzinə çevriləcəyik və bu istiqamətdə artıq gözəl nəticələr var.

Bir daha demək istəyirəm ki, regional əməkdaşlıq sabitliyi möhkəmləndirir, əməkdaşlığı gücləndirir. Biz bu regionda yaşayırıq, ona görə əlbəttə ki, regional dövlətlərlə bizim uğurlu əməkdaşlığımız davam edəcəkdir.

Biz digər beynəlxalq təşkilatlarla, Avropa İttifaqı ilə fəal əməkdaşlıq aparırıq. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Bu gözəl mənzərə fonunda Ermənistan bütün regional əməkdaşlıq formatlarından tamamilə kənarda qalıbdır. Bu da təbiidir. Çünki bizim siyasətimiz məhz bundan ibarətdir. Ermənistan bütün məsələlərdən təcrid olunmuş vəziyyətdədir, bir dənə də olsun regional əməkdaşlıq formatında iştirak etmir. Təkcə ona görə yox ki, biz buna imkan vermirik, - halbuki, hesab edirəm, bu, əsas amildir, - eyni zamanda, ona görə ki, Ermənistan nə siyasi, nə iqtisadi, nə nəqliyyat baxımından heç bir maraq doğurmur. Siyasi baxımdan bu ölkə müstəqil deyil, bu, satellit ölkədir. Ermənistanın gələcəyi ilə bağlı ölkə daxilində qəbul edilmiş qərarlar böyük məna daşımır. Bu ölkəyə iqtisadi cəhətdən heç bir investisiya qoyulmur, investorlar maraqlı deyillər. Burada bir neçə amil rol oynayır, birinci növbədə, baş alıb gedən rüşvətxorluq, oğurluq, korrupsiya halları, digər tərəfdən vətəndaşların kütləvi surətdə Ermənistandan çıxması, yəni, köç kütləvi xarakter alıbdır. İnvestisiya iqlimi çox bərbaddır və bazar məhdudluğu imkan vermir ki, bu ölkəyə investisiya qoyulsun.

Belə bir mənzərə ilə üzləşən Ermənistan xalqı bir daha çox ciddi fikirləşməlidir və anlamalıdır ki, Ermənistan rəhbərliyinin Azərbaycana qarşı işğalçı siyasətinin gələcəyi yoxdur. Azərbaycan öz ərazi bütövlüyünü onsuz da bərpa edəcəkdir. Ancaq Ermənistan son illər ərzində bölgədə gedən regional əməkdaşlıq proseslərindən tam təcrid olunmuş vəziyyətdədir. Onlar siyasi səhnədə məğlub olublar, bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləyir. BMT, onun Təhlükəsizlik Şurası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, AŞ PA, digər təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edən çoxsaylı qərar və qətnamələr qəbul etmişlər. Yəni, bu, Ermənistanın siyasi məğlubiyyətidir. Onlar diplomatik cəbhədə məğlubiyyətə uğrayıblar. Dağlıq Qarabağda keçirilmiş qondarma "referendum" heç bir ölkə tərəfindən tanınmayıb, beynəlxalq təşkilatlar da bunu tanımayıblar. Bu, bir daha təsdiqləyir ki, Dağlıq Qarabağ Azərbaycanın torpağıdır, Azərbaycanın əzəli torpağıdır və Azərbaycanın ayrılmaz hissəsidir.

Nəqliyyat siyasəti ilə bağlı Ermənistan dalan ölkədir və açıq deməliyik ki, bunu biz etmişik.

İki il bundan əvvəl Ermənistan döyüş meydanında üzləşdiyi məğlubiyyətdən bugünə qədər də özünə gələ bilmir. Bu gün Azərbaycan bayrağı Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının vaxtilə işğal altında olan torpaqlarında dalğalanır. Gün gələcək ki, bizim bayrağımız Şuşada və Xankəndidə dalğalanacaqdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ancaq və ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Bunun başqa yolu yoxdur. Dəfələrlə demişəm, bir daha demək istəyirəm, bunu hamı bilsin ki, Azərbaycan heç vaxt imkan verə bilməz ki, bizim tarixi torpaqlarımızda ikinci erməni dövləti yaradılsın. Dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, bugünkü Ermənistanın ərazisi tarixi Azərbaycan torpaqlarıdır. Bunu təsdiqləyən çoxsaylı kitablar, xəritələr var. O xəritələrdə indiki Ermənistanın ərazisindəki toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Tarixi kitablarda göstərilir ki, XIX əsrin əvvəllərində İrəvan xanlığının əhalisinin mütləq əksəriyyəti, daha doğrusu, 80 faizi azərbaycanlılar olub. Bu, tarixdir, tarixi həqiqətdir. Bunu bilməyənlər də bilsinlər və ən önəmlisi Azərbaycan gəncləri bunu bilsinlər. Bilsinlər ki, indiki Ermənistanın böyük hissəsi Azərbaycanın tarixi torpağıdır. Biz bunu heç vaxt unutmuruq və unutmayacağıq.

Biz uğurla inkişaf edirik. Azərbaycan iqtisadi sahədə də böyük uğurlara imza atıb. Biz bu bayramı gözəl iqtisadi nəticələrlə qarşılayırıq. İki ayda ümumi daxili məhsul 1,3 faiz, qeyri-neft sektorunda isə 2,3 faiz artmışdır. Sənaye istehsalı 1,4 faiz, qeyri-neft sektorunda isə 8,4 faiz artmışdır. Kənd təsərrüfatı məhsullarının istehsalı təxminən 4 faiz, əhalinin gəlirləri isə 10,2 faiz artmışdır. İnflyasiya 4,7 faizdir. Yəni, bizim nəzərdə tutduğumuz vəzifələr icra edilir. İki ayda valyuta ehtiyatlarımız 2,1 milyard dollar artmışdır və hazırda 44 milyard dollara bərabərdir. Bu, böyük rəqəmdir. Biz valyuta ehtiyatlarımızı il ərzində daha da artıracağıq. Manatın məzənnəsi sabitdir. Bütün infrastruktur layihələri uğurla icra edilir. Bir sözlə, son müddət ərzində iqtisadi siyasətlə bağlı aparılan ciddi islahatlar öz gözəl nəticələrini vermişdir. Biz bu islahatları dərinləşdirəcəyik, bundan sonra da aparacağıq və Azərbaycan iqtisadiyyatının dayanıqlılığını bundan sonra da təmin edəcəyik.

Bu rəqəmlər özlüyündə bir göstəricidir və təbii ki, bizim siyasətimizi, aparılan işləri göstərir. Eyni zamanda, Azərbaycan ictimaiyyəti bunu bilir. Bunu bir daha demək istəyirəm ki, beynəlxalq maliyyə qurumları da bizim islahatlarımızı yüksək qiymətləndirirlər. Aparıcı beynəlxalq maliyyə institutları bizim islahatlarımıza yüksək qiymət verirlər. O ki qaldı dünyanın bir nömrəli iqtisadi forumunun - Davos Forumunun hesablamalarına görə, - bu rəqəmlər dəfələrlə səslənib, bir daha səsləndirmək istəyirəm, - bu gün Azərbaycan dünyanın 35 ən rəqabətqabiliyyətli ölkəsi arasındadır.

Bizim uğurlu iqtisadi islahatlarımız çox ciddi sosial siyasətlə tamamlanır. Həmişə demişik ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Köklü iqtisadi islahatlar bəzən sosial sahəyə mənfi təsir göstərir. Ona görə hətta əvvəlki illərdə - bir-iki il bundan əvvəl iqtisadi böhran dövründə bir dənə də olsun sosial proqram ixtisara düşməmişdir, bütün sosial öhdəliklər vaxtında yerinə yetirilmişdir. İmkanlarımız artdıqca biz dərhal sosial məsələlərə daha da böyük diqqət göstərməyə başladıq. Daha doğrusu, daha böyük maliyyə vəsaiti ayırmağa başlamışıq. Bu il büdcədən maliyyələşən təşkilatlarda əməkhaqqı 10 faiz artmışdır. Əgər biz dünya xəritəsinə baxsaq, görərik ki, indiki dövrdə nadir ölkələrdə maaşlar artır. Biz imkan daxilində bunu edirik və bundan sonra da edəcəyik. Bir daha demək istəyirəm ki, iqtisadi göstəricilərimiz müsbətə doğru getməyə başlayandan dərhal sonra biz, ilk növbədə, sosial məsələlərin həllinə o maliyyəni ayırdıq. Maaşların, müavinətlərin, pensiyaların artırılmasına bu il büdcədən yüz milyonlarla manat vəsait ayrılır. Bu, bizim niyyətimizi, siyasətimizi göstərir. Onu göstərir ki, bizim əsas vəzifəmiz ondan ibarətdir ki, Azərbaycan vətəndaşları daha yaxşı yaşasınlar, onların rifah halı yaxşılaşsın, Azərbaycanda iqtisadi və sosial islahatlar bir-birini tamamlayaraq ölkəmizin inkişafına xidmət etsin.

Regionlarda böyük abadlıq-quruculuq işləri görülür. Bu il icra edilən Dövlət İnvestisiya Proqramı imkan verəcək ki, bölgələrdə bir çox məsələlər öz həllini tapsın. Sosial infrastruktur, məktəblər, xəstəxanalar, idman kompleksləri, yollar, digər infrastruktur layihələri. Keçən il 500 kəndin yolu salınmışdır, bu il ən azı 600-dən çox kəndin yolu salınacaqdır. Rayonlarımızın siması gözəlləşir, abadlaşır.

Artıq bu, həqiqətdir, Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilibdir. Bakıya gələn hər bir qonaq bunu qeyd edir. Bu gün Bakı, doğrudan da, gözəlliyi, tarixi, insanların qonaqpərvərliyi baxımından turistlər üçün ən cəlbedici istiqamətlərdən birinə çevrilibdir. Ölkəmizə gələn turistlərin artan sayı bunun gözəl sübutudur. Gələn qonaqların sayı 2016-cı ildə 24 faiz, 2017-ci ildə 20 faiz, bu ilin iki ayında isə 12 faiz artmışdır. Hər bir gələn qonaq, hər bir qərəzsiz gələn qonaq əlbəttə ki, Bakının gözəlliyini etiraf edir, bunu görür, sonra sosial şəbəkələrdə öz çəkdiyi kadrları paylaşır. Bakı bizim qürur mənbəyimizdir, bizim tarixi şəhərimizdir, qədimliyi ilə müasirliyi özündə birləşdirən nadir şəhərlərdən biridir. Bakının inkişafı, gözəlləşdirilməsi, müasir infrastrukturunun yaradılması üçün bundan sonra da əlavə tədbirlər görüləcəkdir.

Biz indi qədim Qız qalasının önündə bu bayramı qeyd edirik. Qız qalası Bakının qədim rəmzidir və bizim böyük tarixi abidəmizdir. Ancaq, eyni zamanda, bu gün Bakının müasir rəmzləri də vardır. Onların arasında Heydər Əliyev Mərkəzi dünyanın ən gözəl binalarından biridir və bunu müxtəlif sorğular, reytinqlər təsdiqləyir. Alov Qülləsləri həm Bakının rəmzini - alovu əks etdirir, eyni zamanda, göylərə ucalan binalar Azərbaycanın inkişafını göstərir və Bakıya əlavə gözəllik verir. Vaxtilə 3,5 kilometr olan bizim tarixi bulvarımızın uzunluğu indi 16 kilometrə çatıbdır və hər yer abadlaşıb, gözəlləşib. Hesab edirəm ki, bu, dünya miqyasında nadir istirahət və gəzinti zonasıdır. Yeni yollar, parklar, xiyabanlar salınır. Bakı bu gün parklar, bağlar şəhəridir.

Bakının ekoloji vəziyyəti yaxşılaşır. Vaxtilə şəhərimizin havasını çirkləndirən Balaxanı zibilxanası tamamilə aradan götürülübdür, indi park salınıbdır. Böyükşor gölü. Onun bir hissəsi, birinci mərhələsi tamamlanıb və təmizlənib. Bibiheybət buruqları ekoloji fəlakət mənzərəsi idi. Bu gün orada park, idman şəhərciyi salınıb. Bakının o hissəsi ilə bağlı bizim əlavə planlarımız var. Yeni yollar salınır. Vaxtilə tikilmiş və yararsız vəziyyətə düşmüş binalar sökülür, vətəndaşlara kompensasiya ödənilir və həmin binaların yerində yeni ictimai zonalar yaradılır. Yəni, Bakının gələcək inkişafı ilə bağlı bizim böyük planlarımız var. Bakının nəqliyyat problemləri də həll olunur. Bakıda onlarla körpü, yol qovşağı tikilmişdir. Əgər vaxtilə tikilməsəydi, biz indi tıxacdan hərəkət edə bilməzdik. Şəhərimizin gələcək hərtərəfli inkişaf planı da diqqət mərkəzindədir. Şəhərimizin hər bir yerində abadlıq işləri getməlidir və əminəm ki, gedəcəkdir.

Əziz dostlar, bir daha demək istəyirəm ki, biz bu gözəl bayramı gözəl nəticələrlə, yaxşı əhvali-ruhiyyə ilə qarşılayırıq. Əminəm ki, 2018-ci il də, ondan sonrakı illər də ölkəmiz üçün uğurlu olacaq. Azərbaycan uğurla inkişaf edəcək, qarşıda duran bütün vəzifələr icra ediləcək və ölkəmiz bundan sonra da bir çox ölkələr üçün nümunə olacaqdır.

Sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn gözəl bayram münasibətilə bir daha təbrik edirəm, bütün Azərbaycan xalqına uğurlar, cansağlığı, əmin-amanlıq və sülh arzulayıram. Sağ olun.

Ardı 3-cü səh.

Azərbaycan Novruzu gözəl nəticələrlə qarşılayır

Əvvəli 2-ci səh.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ümumxalq şənliyinin iştirakçıları Dənizkənarı Milli Parka gəldilər.

Azərbaycanın müxtəlif bölgələrindən gələn özfəaliyyət dərnəklərinin, rəqs və mahnı qruplarının çıxışları maraqla qarşılandı.

Dövlət başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar.

Prezidenti və xanımını Kosa və Keçəl bayram münasibətilə təbrik etdilər, dövlət başçısı ilə yumurta döyüşdürdülər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bayram konsertinə baxdılar.

Dövlət başçısı, xanımı və ümumxalq şənliyinin digər iştirakçıları Novruz bayramı münasibətilə təşkil olunan "Şərq bazarı" ilə tanış oldular.

Burada bərəkətli Azərbaycan torpağında yetişdirilmiş məhsullar nümayiş etdirilir. Paytaxtla yanaşı, regionların da fəal qoşulduğu yarmarkada kənd təsərrüfatı məhsulları ilə yanaşı, əl işləri, sənətkarlıq nümunələri, milli mətbəximizə dair müxtəlif məhsullar təqdim olunur. Yarmarkada yaradılan şərait göstərir ki, son dövrlərdə ölkəmizdə aparılan siyasət nəticəsində digər sahələrdə olduğu kimi, kənd təsərrüfatında da mühüm nailiyyətlər qazanılıb. Bu gün Azərbaycan özünü keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin edir. Bu isə ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Bundan əlavə, ekoloji cəhətdən təmizliyi ilə seçilən məhsullarımıza dünyada da böyük maraq və tələbat var.

Xalqımızın qədim ənənələrini, dəyərlərini, mətbəxini, məişətini əks etdirən stendlər Milli Parkda təşkil olunan bayram şənliyinə xüsusi çalar qatırdı. Burada ölkəmizin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları və hazırlanmış sənətkarlıq nümunələri maraqla qarşılandı. Bir tərəfdə isə gənc pəhləvanlar qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər. Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş etdirildiyi şənlikdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də yer almışdı.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və şənliyin digər iştirakçıları bu səhnələri maraqla izlədilər, qədim el sənətlərinin nümunələrinə, Azərbaycan xalçalarına baxdılar, pəhləvanların, güləşçilərin çıxışlarını izlədilər, "Nənələr", "Rəfti", "Əvəsor" folklor özfəaliyyət kollektivlərinin, "Natiq" ritm qrupunun, aşıqların, Azərbaycan Dövlət Kukla Teatrının nəzdindəki "Oyuq" teatr-studiyasının kollektivinin ifalarını dinlədilər.

Çay süfrəsinə qonaq olan dövlət başçısı və xanımı milli mətbəximizin müxtəlif nümunələrindən daddılar.

Azərbaycan Milli Kulinariya Mərkəzinin direktoru Tahir Əmiraslanov məlumat verdi ki, Novruz bayramı münasibətilə milli mətbəximizə aid xüsusi olaraq 27 poçt markası hazırlanıb.

Prezident və xanımı poçt markalarını imzaladılar.

Novruz xalqımızın tarixi yaddaşından süzülüb gələn ənənələri yaşadan, keçmişimizi və gələcəyimizi bir-biri ilə bağlayan bayramdır. Elə bu səbəbdəndir ki, sovet hakimiyyəti illərində həyata keçirilən siyasət digər milli-mənəvi dəyərlərimiz kimi, Novruzu da Azərbaycan xalqının şüurundan silə bilmədi. Hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunmasında və inkişafında tarixi şəxsiyyətlərin də üzərinə böyük vəzifələr düşür. Ulu öndər Heydər Əliyevin tariximiz qarşısındakı xidmətləri sırasında Novruzun yenidən xalqımıza qaytarılması kimi ümummilli məsələ də var. Çünki məhz Heydər Əliyevin sayəsində ümumi mədəni hərəkatın tərkib hissəsi kimi milli bayramımız olan Novruz ötən əsrin 70-80-ci illərində əvvəlki dövrlərlə müqayisədə kütləvi qeyd olunmağa başladı. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə isə Novruz təntənələri xalqımızın həyatına birdəfəlik daxil oldu. Bu gün Prezident İlham Əliyev də mədəni-mənəvi irsimizə xüsusi diqqətlə yanaşır. Novruzun gəlişi ilə bağlı dövlət başçısının hər il xalqa ünvanladığı təbriklər də onun milli-mənəvi dəyərlərimizə böyük ehtiramla yanaşdığını göstərir.

Xalqımız özünün milli və tarixi ənənəsinə çevrilən Novruzu həmişə olduğu kimi, bu il də böyük sevinclə qarşılayır. Yazın gəlişi, təbiətin, bütün canlıların oyanışı, gecə ilə gündüzün bərabərləşdiyi bir günlə bağlı olan bu bayram Azərbaycan xalqının milli düşüncəsini və milli ruhunu özündə əks etdirir.

2010-cu ildə BMT-nin qərarı ilə martın 21-i Beynəlxalq Novruz Günü elan olundu. Bu, böyük bir arealda yaşayan 200 milyondan çox insanın milli-mənəvi yaddaşına dünyanın ən mötəbər qurumu səviyyəsində verilən dəyərin təzahürü idi. Qədim tarixə malik Novruz həm də əcdadlarımızın bizə töhfəsi, onlardan qalan dəyərli mirasdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı özündə paklığı, nəcib insani dəyərləri təcəssüm etdirir. Varlığın yenidən canlanmasını müjdələyən Novruz əsrlər boyu həm də insanlarımızı işıqlı sabaha, xoşbəxt gələcəyə səsləyir. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təmellər yaradıb.

Dövlət başçısı və xanımı Azərbaycan Gimnastika Federasiyasının stendində bədii, aerobika, akrobatika və idman gimnastlarının nümunəvi çıxışlarına baxdılar. Diqqətə çatdırıldı ki, martın 15-18-də Milli Gimnastika Arenasında Beynəlxalq Gimnastika Federasiyasının idman gimnastikası üzrə dünya kuboku yarışları uğurla təşkil olunub. Bundan başqa, Azərbaycan Gimnastika Federasiyasının təşkilatçılığı ilə aprelin 12-15-də batut gimnastikası, tamblinq və ikili mini batut üzrə 26-cı Avropa çempionatı, aprelin 27-29-da bədii gimnastika üzrə dünya kuboku, iyunun 22-23-də isə yeniyetmələr arasında Olimpiya Oyunlarına vəsiqə qazandıracaq idman gimnastikası üzrə təsnifat yarışları keçiriləcək.

Son illər ölkəmizdə sürətlə inkişaf edən idman növlərindən biri də velosiped idmanıdır. 2016-cı ilin avqustunda İsmayıllı rayonunda "ISMA Bikes" velosiped istehsalı zavodunun fəaliyyətə başlaması ölkəmizdə bu idman növünün inkişafına böyük təkan verib. Hazırda bu müəssisədə istehsal olunan velosipedlərə daxildə və xaricdə böyük maraq var.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "ISMA Bikes" zavodunun istehsalı olan velosipedlərə baxdılar.

Qeyd olundu ki, 2018-ci il iyunun 5-9-da Azərbaycanda BMX velosipedi üzrə dünya çempionatı keçiriləcək. Çempionatda təxminən 2 min velosipedçinin iştirakı nəzərdə tutulur. Bu çempionatın keçiriləcəyi BMX treki beynəlxalq standartların dəyişməsi ilə əlaqədar ötən il tamamilə yenidən qurulub.

Prezident İlham Əliyevə BMX velosipedi üzrə dünya çempionatının ilk bileti təqdim olundu.

Son illər inkişafda olan idman növləri arasında cüdo da xüsusilə seçilir. Sentyabrın 20-27-də Bakıda cüdo üzrə dünya çempionatı keçiriləcək. Çempionatda 150-dək ölkədən 800-ə yaxın idmançının iştirakı gözlənilir. Azərbaycan milli komandası dünya çempionatında tam heyətlə iştirak edəcək. Yarışlar Milli Gimnastika Arenasında keçiriləcək.

Dövlət başçısına cüdo üzrə dünya çempionatının ilk bileti təqdim edildi.

Azərbaycanda qılıncoynatma idmanının inkişafına da xüsusi diqqət yetirilir. İdmançılarımız bu il bir sıra beynəlxalq yarışlarda iştirak edəcəklər. Artıq 2005-ci il təvəllüdlü idmançılarımız Türkiyədə təşkil olunacaq beynəlxalq yarışa hazırlıq keçirlər. Bundan başqa, apreldə İtaliyada kadetlər və gənclər arasında dünya çempionatı, həmçinin şpaqa və sablya üzrə dünya kuboku yarışları baş tutacaq. İdmançılarımızın bu yarışlara hazırlığı çərçivəsində təlim-məşq toplanışları təşkil olunur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kəmər güləşi üzrə idmançıların çıxışlarını da izlədilər. Kəmər güləşi türkdilli xalqlar arasında tarixən mövcud olmuş qədim qurşaq güləşinin müasir versiyasıdır. Hazırda kəmər güləşi idman növündə müasir qaydalar tətbiq edilir. Azərbaycan idmançıları kəmər güləşi üzrə dünya və Avropa çempionatlarında bir sıra mükafatlar qazanıblar. İyulda idmanın bu növü üzrə Azərbaycan çempionatı keçiriləcək. Çempionatın qalibləri sentyabrda təşkil olunacaq dünya oyunlarında iştirak edəcəklər.

Ardı 4-cü səh.

Azərbaycan Novruzu gözəl nəticələrlə qarşılayır

Əvvəli 3-cü səh.

Ümumxalq şənliyində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərmarka" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Novruz bayramına həsr olunmuş xüsusi stend hazırlanıb. Stenddə ulu öndər Heydər Əliyevin portreti əks olunmuş, "Müslüm Maqomayev", "Tofiq Quliyev", "Qara Qarayev", "Bakı 2017 IV İslam Həmrəyliyi Oyunları", "Standart buraxılış 2018", "Novruz", "2017", "Formula-1", "XXI Yay Olimpiya Oyunları - Rio 2016"ya həsr olunmuş markalar, "Avropa Oyunları 2015", "Azərbaycan", "İçərişəhər", "Qarabağ", "Eurovision 2012" kitabları, habelə "Turizm", "Avropa" adlı bukletlər və s. poçt məhsulları nümayiş etdirilir.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, "Azərmarka" MMC tərəfindən Azərbaycanın müstəqilliyinə, dövlət atributlarına, iqtisadi inkişafına, milli bayramlarına, memarlıq abidələrinə, görkəmli ictimai-siyasi xadimlərinə, beynəlxalq əhəmiyyətli mühüm tədbirlərə, Qarabağa aid poçt markaları çap olunaraq dövriyyəyə buraxılıb. Eyni zamanda, həmin markaların beynəlxalq aləmdə də yayımı təşkil edilib.

Dövlət başçısı və birinci xanım Novruz bayramına həsr olunan markanın ilk nüsxəsini imzalayaraq möhürlədilər. Bununla da tarixi əhəmiyyət qazanan bu marka "Azərpoçt" MMC vasitəsilə dövriyyəyə buraxıldı.

Hazırda Bakı üçüncü dəfə "Formula-1" yarışına hazırlaşır. Aprelin 27-29-da keçiriləcək Azərbaycan Qran-Prisinə hazırlıq işləri sürətlə davam etdirilir. Azərbaycanın bölgələrində gənclər, xüsusilə orta məktəblərin yuxarı sinif şagirdləri arasında "Formula-1" yarışları, yol hərəkəti təhlükəsizliyi və avtomobil idmanı haqqında məlumatlılığın artırılması məqsədilə "Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti və Azərbaycan Avtomobil Federasiyası regionlarda avtoidman üzrə maarifləndirmə ayı çərçivəsində "Sənin sürət formulan" şüarı altında altı regionda simulyatorda "Formula-1" çempionatı keçirib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin nümayəndələri ilə görüşdülər.

Azərbaycan Prezidenti onun pişvazına və bayram gəzintisinə çıxmış Bakı sakinlərinə və paytaxtımızın qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirdi.

Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

Bayram şənliyi incəsənət ustalarının, el sənətkarlarının ifasında rəngarəng konsert proqramı ilə davam etdi.

Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç!

Rusiya Federasiyasının prezidenti seçkilərində inamlı qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu qələbə Sizin yüksək siyasi nüfuzunuzun olduğunu və ölkədə sabitliyin, qanunçuluğun və hüquq qaydalarının təmin edilməsinə, irimiqyaslı islahatların həyata keçirilməsinə, xalqın rifahının yüksəlməsinə kömək edən uzunmüddətli sosial proqramların reallaşmasına yönəldilmiş kursunuzun fəal dəstəkləndiyini təsdiq edir.

Azərbaycan ilə Rusiyanı çoxəsrlik möhkəm dostluq və mehriban qonşuluq münasibətləri bağlayır. Sevindirici haldır ki, bizim dövlətlərarası münasibətlər bu gün bu möhkəm təməl üzərində uğurla inkişaf edir. Bu münasibətlərin, bütövlükdə Azərbaycan ilə Rusiya arasında hərtərəfli əməkdaşlığın və qarşılıqlı fəaliyyətin genişlənməsinə Sizin şəxsi töhfənizi xüsusi qeyd etmək istəyirəm.

Əminəm ki, Azərbaycan ilə Rusiya arasındakı strateji tərəfdaşlığın daha da möhkəmlənməsi üzrə birgə səylərimiz xalqlarımızın və ölkələrimizin maraqlarına, regionda sülhün, təhlükəsizliyin və tərəqqinin təmin olunmasına bundan sonra da kömək edəcək.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzu edirəm.

Dərin hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 mart 2018-ci il

Azərbaycan Prezidenti Rusiya Prezidentini inamlı qələbə münasibətilə təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 19-da Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Dövlət başçısı Rusiya Federasiyasının Prezidentini seçkilərdə inamlı qələbə qazanması münasibətilə təbrik edib, ona Rusiya xalqının firavanlığı naminə prezidentlik fəaliyyətində yeni-yeni uğurlar arzulayıb. Prezident İlham Əliyev qeyd edib ki, Rusiya Federasiyası Vladimir Putinin rəhbərliyi ilə müxtəlif sahələrdə böyük nailiyyətlər əldə edib, eyni zamanda, Rusiya-Azərbaycan əlaqələri bütün sahələrdə uğurla inkişaf edir. Azərbaycan Prezidenti ikitərəfli münasibətlərimizin bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə edib. Prezident İlham Əliyev bir daha Vladimir Putinə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

Göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirən Vladimir Putin öz növbəsində qeyd edib ki, qarşılıqlı inam əsasında qurulmuş və bir çox sahələri əhatə edən Rusiya-Azərbaycan münasibətləri bu gün uğurla inkişaf edir. Rusiya Prezidenti əlaqələrimizin gələcəkdə də genişlənəcəyinə və möhkəmlənəcəyinə əmin olduğunu bildirib.

Dövlət başçıları Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan dostluq münasibətlərimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

Prezidentin Mətbuat xidmətinin məlumatı

Azərbaycan ilə OPEC arasında əməkdaşlıq uğurla inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, OPEC-in baş katibi Məhəmməd Barkindo səfərə dəvətə görə minnətdarlığını bildirdi və Azərbaycan Respublikasının Prezidenti ilə görüşündən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Məhəmməd Barkindo ilə Davosda görüşünü məmnunluqla xatırlayaraq qeyd etdi ki, OPEC-in baş katibinin dünyada ilk dəfə neftin hasil olunduğu Azərbaycana səfəri böyük önəm daşıyır.

Məhəmməd Barkindo xoş sözlərə görə minnətdarlığını bildirərək Azərbaycanın neft sənayesinin beşiyi olduğunu vurğuladı və dedi ki, hər bir neftçi gəlib öz gözləri ilə Bakını görməlidir.

Dövlət başçısı İlham Əliyev Məhəmməd Barkindonun səfərinin Azərbaycanın tarixi yerləri və müasir inkişafı ilə tanış olmaq üçün yaxşı imkan yaratdığını dedi.

Prezident İlham Əliyev Azərbaycan ilə OPEC arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi və ölkəmizin hasilatla bağlı üzərinə düşən öhdəlikləri tam şəkildə yerinə yetirdiyini vurğuladı. Dövlət başçısı neftin qiymətinin sabit saxlanması istiqamətində Məhəmməd Barkindonun və OPEC-in səmərəli, həmçinin koordinə edilmiş səylərini yüksək qiymətləndirdi, bunu, eyni zamanda, birgə fəaliyyətin yaxşı nəticəsi kimi dəyərləndirdi.

Məhəmməd Barkindo OPEC və qeyri OPEC üzvlərinin bir araya gəlməsində Prezident İlham Əliyevin rolunu xüsusi qeyd etdi, Azərbaycanın OPEC və qeyri OPEC üzvlərinin əməkdaşlığı üzrə bəyanatın formalaşmasına gətirib çıxaran yüksək səviyyəli texniki komitəyə həmsədrliyini yüksək qiymətləndirdi. Ölkəmizin üzərinə düşən bütün öhdəlikləri tam şəkildə yerinə yetirdiyini deyən qonaq bunun Azərbaycanın bu razılaşmaya nə dərəcə sadiq qaldığının göstəricisi olduğunu bildirdi. Qeyd etdi ki, bu, təkcə neft hasil edən yox, hətta istehlakçı ölkələrin marağındadır. Bu işin nəticələrini artıq neft sənayesində və dünya bazarlarında görmək mümkündür.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Sonda xatirə şəkli çəkildi.

Tunis Respublikasının Prezidenti zati-aliləri cənab Beji Kaid əs-Sebsiyə

Hörmətli cənab Prezident!

Tunis Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Tunis arasındakı münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tunis xalqına əmin-amanlıq və rifah arzulayıram.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 mart 2018-ci il

Goranboy Rayon Mərkəzi Xəstəxanasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Səhiyyə sektorunun inkişafı ilə bağlı islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə təmin olunması sözügedən istiqamətdə gerçəkləşən siyasətin əsas prioritetlərindəndir.

2004-2017-ci illər ərzində respublika ərazisində 600-dən çox səhiyyə müəssisəsi tikilmiş, əsaslı təmir olunmuş və müasir tibbi avadanlıqla təchiz edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq səhiyyə obyektlərinin tikintisinin davam etdirilməsi məqsədi ilə **qərara alıram:**

1. Goranboy Rayon Mərkəzi Xəstəxanasının tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.15-ci yarımbəndində göstərilmiş məbləğin 22,35 milyon (iyirmi iki milyon üç yüz əlli min) manatı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 mart 2018-ci il

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 avqust tarixli 804 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc üzrə borclarının tənzimlənməsi Qaydaları"nda dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 avqust tarixli 804 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 8, maddə 712; 2010, № 7, maddə 610; 2016, № 1, maddə 71) ilə təsdiq edilmiş "Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc üzrə borclarının tənzimlənməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. Bu qaydalar dövlət müəssisələrinin "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək baş vermiş istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc üzrə borclarına şamil olunur.";

1.2. 5.1-ci və 5.2-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"5.1. Aylıq müavinət onu almaq hüququ yarandığı gündən tez olmamaq şərtilə, 2003-cü il oktyabrın 1-dən başlayaraq dövlət müəssisələrinin özəlləşdirilməsi başa çatanadək və ya onları idarə etmək hüququna dair bağlanılmış müqavilə qüvvəyə minənədək olan dövr üçün verilir.

5.2. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi özəlləşdirilməsi başa çatmış (başaçatma tarixi göstərilməklə) dövlət müəssisələri, özəlləşdirilməsi barədə qərar qəbul edilmiş (qəbul edilmiş qərarın tarixi göstərilməklə), lakin özəlləşdirilməsi başa çatmamış dövlət müəssisələri, eləcə də idarəetməyə verilən (idarə etmək hüququna dair bağlanılmış müqavilənin qüvvəyəminmə tarixi göstərilməklə) dövlət müəssisələri barədə məlumatı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edir.";

1.3. 5.6-cı bənddə "İstehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçiyə və ya bu səbəbdən həlak olmuş işçinin ailə üzvlərinə ödənclərin verilməsi qaydalarının, şərtlərinin və məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 9 yanvar tarixli 3 nömrəli qərarında müəyyən olunmuş" sözləri "Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 239-cu maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.4. VI bölmə ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzərətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 mart 2018-ci il

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 iyun tarixli 976 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 iyun tarixli 976 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu haqqında Əsasnamə"ni "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 iyun tarixli 976 nömrəli fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1072; 2017, № 5, maddə 829) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bəndə "sığortası" sözündən sonra ", işsizlikdən sığorta" sözləri əlavə edilsin;

1.2. 2.1.2-ci yarımbəndə "uçotdan çıxarılması," sözlərindən sonra "sığortaolunanların və sığortaedənlərin işsizlikdən sığorta üzrə qeydiyyata alınması və qeydiyyatdan çıxarılması," sözləri əlavə edilsin;

1.3. 3.1.3-cü yarımbəndə "sığorta haqlarının" sözlərindən sonra "və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş miqdarda sığorta haqqının" sözləri əlavə edilsin;

1.4. 3.1.8-ci yarımbəndə "sığortası" sözündən sonra "və işsizlikdən sığorta" sözləri əlavə edilsin;

1.5. 3.1.10-cu yarımbəndə "etmək" sözündən sonra "və işsizlikdən sığorta haqları üzrə hər ay üçün toplanmış vəsaiti "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə işsizlikdən sığorta fonduna köçürmək" sözləri əlavə edilsin;

1.6. 3.1.11-ci yarımbənd çıxarılsın;

1.7. aşağıdakı məzmunda 4.1.3-1-ci və 4.1.3-2-ci yarımbəndlər əlavə edilsin:

"4.1.3-1. sığortaedənlərdən öz işçilərinin işsizlikdən sığorta edilməsini, sığorta haqlarının düzgün hesablanmasını, vaxtında və tam məbləğdə sığortaçıya ödənilməsini tələb etmək;

4.1.3-2. sığortaedənlərə işsizlikdən sığorta ilə bağlı hüquq və vəzifələrini izah etmək;".

2. Bu fərman 2018-ci il yanvarın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 mart 2018-ci il

Moldova Prezidenti: "Azərbaycanla imzaladığımız 53 müqavilə əlaqələrimizin yaxşı səviyyəsindən xəbər verir"

Moldova Respublikasının Prezidenti İqor Dodon AZƏRTAC-a məxsusi müsahibəsində ölkələrimiz arasında münasibətlərin hazırkı vəziyyəti və perspektivləri barədə fikirlərini bölüşüb

"Moldova ilə Azərbaycan arasında ənənəvi dostluq əlaqələri mövcuddur. Ötən il iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyi qeyd olundu. Praktiki olaraq bütün sahələri əhatə edən dövlətlərarası 53 müqavilə imzalamışıq. Bu, əlaqələrimizin yaxşı səviyyəsindən xəbər verir".

Bu fikirləri müsahibəsində Moldova Respublikasının Prezidenti İqor Dodon deyib.

Yüksək səviyyədə əlaqələrin inkişaf etdiyini söyləyən Prezident İqor Dodon ötən il ölkəmizə işgüzar səfərindən danışıb, Prezident İlham Əliyev ilə bir sıra beynəlxalq tədbirlər çərçivəsində görüşdüklərini xatırladıb: "Qısa müddətdə bizim çox səmimi, isti dostluq münasibətlərimiz yaranıb. İkitərəfli əlaqələri konstruktiv şəkildə müzakirə edirik".

Ticarət dövriyyəsində müsbət dinamikanın hiss olunduğunu qeyd edən Prezident İqor Dodon bildirib ki, bu sahədə ardıcıl olaraq iki ildir 30 faiz inkişaf müşahidə edilir: "İkitərəfli əlaqələrimiz yeni məcrada genişlənməkdə davam edir. Düşünürəm ki, bizim Avropa İttifaqı ilə ticarət haqqında sazişimizə əsasən, Moldova azərbaycanlı investorlar üçün maraqlı ola bilər. Avropa ilə azad ticarətimiz mövcuddur. Eyni zamanda, biz MDB ölkələri ilə də sərbəst ticarəti saxlamışıq. Avropa bazarına, eləcə də digər istiqamətlərə hərəkət etmək baxımından Moldova əhəmiyyətli meydan ola bilər" - deyə Prezident vurğulayıb.

İki ölkə arasındakı iqtisadi münasibətlərin perspektivlərinə toxunan Moldova dövlətinin başçısı ölkəsinin Azərbaycana kənd təsərrüfatı sənayesi kompleksində əməkdaşlıq təklif edə biləcəyini söyləyib: "Əlbəttə, Azərbaycanda da son zamanlar aqrar sektor sürətlə inkişaf edir. Bilirəm ki, kənd təsərrüfatına investisiya yatırılması ilə bağlı ölkənizdə dövlət proqramı mövcuddur. Biz bu sahədə də təcrübə mübadiləsi apara bilərik".

Heydər Əliyev Fondunun fəaliyyəti ilə yaxından tanış olduğunu qeyd edən Moldova Prezidenti deyib: "Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə nəinki Azərbaycanda, eləcə də digər ölkələrdə həyata keçirilən layihələrdən xəbərdarıq. Fond dünyada bir sıra humanitar layihələr reallaşdırır, xeyirxah işlər görür. Biz Qaqauziyada Heydər Əliyev Fondunun maliyyələşdirdiyi sosial layihəyə başlamışıq. Bir neçə gün öncə təməlqoyma mərasimi oldu. İlin sonunadək bu layihə başa çatacaq".

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən irimiqyaslı layihələrdən danışan Prezident İqor Dodon ölkəsinin bu enerji layihələrində maraqlı olduğunu vurğulayıb: "Biz demək olar ki, 100 faiz qaz və elektrik enerjisini idxal edirik. Enerji resurslarına ehtiyacımız var. Tranzit sahəsində, yəni, çatdırılmada bəzi problemlər ola bilər. Lakin zənnimcə, müəyyən sxemlər tapmaq mümkün olacaq".

"Cənub qaz dəhlizi" layihəsi barədə fikirlərini bölüşən Prezident layihəni maraqlı, kifayət qədər perspektivli gördüyünü bildirərək deyib: "Təəssüf ki, layihə bizim ölkədən bir qədər uzaqdır. Lakin layihə təkcə Azərbaycan üçün deyil, bütövlükdə region üçün əhəmiyyətlidir. Ümid edirik ki, onun bizə də faydası dəyəcək".

Prezident İqor Dodon Bakı-Tbilisi-Qars dəmir yolu xətti barədə də eyni fikirləri bildirib. Qeyd edib ki, həyata keçirilən infrastruktur layihələri ölkələrimiz arasında ticarətin inkişafı üçün çox ciddi stimuldur: "Prezident İlham Əliyev ilə söhbətimiz zamanı regionda reallaşdırılan digər layihələr barədə də danışdıq. Bu layihələrin iqtisadiyyatın genişləndirilməsinə şərait yaradacağını vurğuladıq. Düşünürəm ki, Moldova Respublikası da bu layihələrdən əlavə mənfəət əldə edəcək. Layihələr Ukraynaya, Qara dənizə qədər uzanır. Biz də yaxınlıqda yerləşən ölkə kimi bu layihələrdə iştirak üçün bütün imkanlardan istifadə edəcəyik".

Ölkələrimizin MDB çərçivəsində də fəal əməkdaşlıq etdiyini söyləyən Moldova dövlətinin başçısı bu istiqamətdə əməkdaşlığı davam etdirməyin vacibliyini vurğulayaraq deyib ki, əsas məsələ siyasi sabitlikdir. Dünya praktikasına baxsaq görərik ki, ölkə yalnız siyasi sabitlik təmin edildiyi halda irəli addımlaya, inkişaf edə bilər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan Prezident İqor Dodon problemin həlli yolunun tapılacağına ümidvar olduğunu bildirib: "Biz də oxşar problemdən əziyyət çəkdiyimiz üçün sizi yaxşı başa düşürük".

11 APREL PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

Bakıda prezident seçkilərində KİV-in rol və vəzifələrinə həsr edilən seminar-müşavirə keçirilib

Martın 19-da Bakıda Azərbaycan Respublikası Prezidenti seçkilərində kütləvi informasiya vasitələrinin rol və vəzifələrinə həsr edilən seminar-müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, seminar-müşavirə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Mərkəzi Seçki Komissiyası (MSK), Milli Televiziya və Radio Şurası və Mətbuat Şurası tərəfindən birgə təşkil olunub.

Tədbirdə yuxarıda adları qeyd olunan qurumların nümayəndələri, kütləvi informasiya vasitələrinin rəhbərləri, jurnalistlər, fəal sosial şəbəkə istifadəçiləri, bloqqerlər, beynəlxalq təşkilatların təmsilçiləri iştirak ediblər.

Seminar-müşavirəni açan MSK sədri **Məzahir Pənahov** deyib ki, seçki prosesi ilə bağlı məlumatların ictimaiyyətə düzgün çatdırılması çox vacib məsələdir. Bu işdə kütləvi informasiya vasitələrinin üzərinə böyük vəzifə düşür. Azərbaycanda kütləvi informasiya vasitələri seçkilərlə bağlı kifayət qədər təcrübə toplayıb, jurnalistlər peşəkarlaşıblar. Mərkəzi Seçki Komissiyası da media ilə birgə işləməyə hər zaman xüsusi diqqət göstərir.

MSK sədri prezident seçkilərində səsvermənin 5600-dən artıq məntəqədə keçiriləcəyini söyləyib. O deyib ki, ümumi seçici siyahısına daxil edilmiş seçicilərin sayı 5 milyon 300 mindən çoxdur. Artıq kifayət qədər beynəlxalq müşahidəçi qeydiyyata alınıb. Onların arasında ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun uzunmüddətli müşahidəçiləri də var. Büronun 280 qısamüddətli müşahidəçisi

səsverməyə bir neçə gün qalmış Azərbaycana gələcək. Eyni zamanda, 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb. Veb-kameralar seçkilərin şəffaf təşkili baxımından çox böyük əhəmiyyət kəsb edir. Bu, o deməkdir ki, dünyanın istənilən nöqtəsində Azərbaycandakı seçki məntəqələrinin 20 faizində seçki prosesini izləmək mümkün olacaq. Əminik ki, bu praktika əvvəlki seçkilərdə olduğu kimi, 11 aprel prezident seçkilərində də özünü yüksək səviyyədə doğruldacaq. Bütün bunlar siyasi iradənin təzahürüdür. İstənilən demokratik ölkədə şəffaf seçkinin keçirilməsi üçün qanunvericilik bazası ilə, atılan addımlarla yanaşı, siyasi iradə də vacib şərtdir.

Azərbaycanın kütləvi informasiya vasitələri indiyə qədər öz işlərinin öhdəsindən layiqincə gəlib. İnanıram ki, bu seçkilər zamanı da jurnalistlər özlərini xalqına xidmət edən bir qurumun nümayəndələri kimi hiss edəcəklər. Azərbaycanda seçki ilə bağlı əldə olunan nailiyyətlərdə KİV-in böyük rolu var.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi **Əli Həsənov** seminar-müşavirədə çıxış edərək deyib ki, ölkəmizdə keçirilən seçkilərin bütün mərhələlərində kütləvi informasiya vasitələri mühüm rol oynayır. Hər bir seçki üç mərhələdən ibarətdir: təşviqatqədərki mərhələ, təşviqat dövrü və bilavasitə səsvermənin başlanması, keçirilməsi və nəticələrin elan olunması. Hər bir dövr üçün Seçki Məcəlləsində kütləvi informasiya vasitələrinin rolu, vəzifələri, məsuliyyəti göstərilir. Bu seminar-müşavirədə Seçki Məcəlləsinin tələbləri, onun müəyyən etdiyi məsuliyyət diqqətə çatdırılacaq.

Əli Həsənov qeyd edib ki, bu gündən Azərbaycan cəmiyyətində seçki ilə bağlı mühüm obyekt və subyektlər var. Birincisi, namizədlər və onun platformasıdır. Hər bir namizəd öz proqram və hədəflərini, fikir və mülahizələrini ictimaiyyətə kütləvi informasiya vasitələri ilə çatdırmalıdır. Namizədlər televiziyada debatlar keçirəcək, bölgələrdə seçicilərlə görüşəcək, ancaq həmin məkana bir qrup insan yığışacaq və bütövlükdə, görüşün nəticələrini yenə də ictimaiyyətə mətbuat çatdıracaq. Bu baxımdan, KİV-in rolu prezident seçkilərində iştirak edən namizədlərin roluna bərabərdir. KİV bütün namizədlər üçün bərabər şərait yaratmalıdır.

Prezidentin köməkçisi qeyd edib ki, Seçki Məcəlləsində media nümayəndələrinin vəzifələri müəyyən olunur. Əsas vəzifə bu işi peşəkarcasına, məcəllənin tələblərinə uyğun yerinə yetirməkdir. Media nümayəndələrinin bu işi həyata keçirməsindən asılı olaraq seçkilərin imici formalaşacaq. Seçkilər mühüm ümumxalq tədbiridir və KİV bu məsələdə çox məsuliyyətli olmalıdır. Kütləvi informasiya vasitələri diqqətli olmalıdır ki, Seçki Məcəlləsinin müddəaları pozulmasın. Çünki məcəllənin hansısa tələbinə riayət etməmək seçkilərin ümumi imicinə xələl gətirə bilər.

Əli Həsənov vurğulayıb ki, KİV Prezidentin dövlət başçısı kimi cari fəaliyyəti ilə seçkilərdə namizəd kimi təşviqat fəaliyyəti arasında balans gözlənilməlidir. Prezidentin köməkçisi əlavə edib ki, kommersiya məsələsində də namizədlər üçün bərabər şərait yaradılmalıdır. Bu məsələdə də Seçki Məcəlləsinin tələblərinə əməl olunmalıdır.

Milli Televiziya və Radio Şurasının sədri **Nuşirəvan Məhərrəmov** deyib ki, Azərbaycan üçün çox mühüm ictimai-siyasi hadisə olan prezident seçkilərinin yüksək peşəkarlıqla keçirilməsində həm dövlət qurumlarının, həm də vətəndaş cəmiyyətinin üzərinə böyük iş düşür. Bu işdə ön sırada media nümayəndələri dururlar. Seçki prosesində kütləvi informasiya vasitələri məsuliyyətli vəzifə daşıyırlar. Cəmiyyətin düzgün istiqamətə yönləndirilməsində media böyük rol oynayır. Ölkəmizdə medianın fəaliyyəti üçün normal mexanizmlər müəyyənləşib. Seçki qanunvericiliyi bizdən öz işimizdə məsuliyyətli olmağı tələb edir. KİV hər seçkidən-seçkiyə yüksək peşəkarlıq nümayiş etdirir. Bunun üçün əsaslar var. Telekanallar seçkilərin işıqlandırılması ilə bağlı kifayət qədər təcrübə əldə edib. Milli Televiziya və Radio Şurasına indiyə qədər hər hansı qurum və namizəd tərəfindən şikayət ünvanlanmayıb.

Nuşirəvan Məhərrəmov qeyd edib ki, hazırda bizi ən çox maraqlandıran məsələ bütün televiziya və radio kanallarının fəaliyyətinin seçki qanunvericiliyinə uyğunlaşdırılmasıdır. Ödənişli təşviqata bütün radio və televiziyalar hazırdır. Seçki təşviqatı ilə reklam fəaliyyəti arasında balans gözlənilməlidir. Azərbaycanda başqa ölkələrdən fərqli olaraq televiziyalarda mal və xidmətlərin reklamı namizədlər üçün ayrılan vaxtın qiymətindən baha olur. Bu səbəbdən telekanallar bəzən namizədlər üçün pullu efir vaxtının ayrılmasında maraqlı olmurlar. Televiziya və radio kanallarının namizədlər üçün pullu efir vaxtı ilə bağlı ödəniş məsələsinə normal yanaşılmalıdır.

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı **Əflatun Amaşov** şuranın seçki ilə bağlı fəaliyyətindən danışıb. O deyib ki, Mətbuat Şurası hazırda 7 televiziya kanalının, 15 qəzetin, 10 informasiya agentliyinin və xəbər portalının monitorinqini aparır. Beynəlxalq təşkilatların müəyyənləşdirdiyi prinsip və qaydalar əsasında aparılan monitorinqlər zamanı namizədlərlə bağlı materialların nə dərəcədə peşəkarlıqla hazırlanması araşdırılacaq. Bu zaman faktla müəllifin şərhi arasındakı fərqə də diqqət yetiriləcək. Səsvermə günü Mətbuat Şurasının telefonları "qaynar xətt" kimi fəaliyyət göstərəcək. Mətbuat Şurasının İdarə Heyətinin üzvləri də müşahidəçi qismində paytaxtda və bölgələrdə olacaqlar, seçkilərin gedişini işıqlandırmaq üçün jurnalistlərə yaradılan şərait nəzərdən keçiriləcək. Hər hansı məsələ ortaya çıxan zaman Mərkəzi Seçki Komissiyası ilə əlaqə yaradılacaq. Əminik ki, media nümayəndələri əvvəlki seçkilərdə olduğu kimi, 11 aprel prezident seçkilərini də obyektiv, dəqiq və qərəzsiz işıqlandıracaqlar.

Sonra Mərkəzi Seçki Komissiyasının sədr müavini **Natiq Məmmədovun** "Azərbaycan Respublikası Prezidenti seçkilərində seçkiqabağı təşviqat mərhələsində təşviqat subyektlərinin azad davranışı və bərabərliyi. Bu prosesdə KİV-in rol və vəzifələri" mövzusunda məruzəsi dinlənilib.

Daha sonra məruzə ətrafında fikir mübadiləsi aparılıb və sual doğuran məsələlər müzakirə olunub.

Mərkəzi Seçki Komissiyasının sədri daha üç prezidentliyə namizədə vəsiqələrini təqdim edib

Azərbaycan Respublikası prezidentliyinə namizədliyi Milli Dirçəliş Hərəkatı Partiyası tərəfindən irəli sürülmüş Fərəc Quliyevə, Müasir Müsavat Partiyası tərəfindən irəli sürülmüş Hafiz Hacıyevə, "Cəbhəçilərin təşəbbüs qrupu" adlı təşəbbüs qrupu tərəfindən irəli sürülmüş Razi Nurullayevə martın 19-da namizədlik vəsiqələri təqdim edilib.

AZƏRTAC xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov aprelin 11-də Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə bağlı qeydə alınmış namizədlər Fərəc Quliyevi, Hafiz Hacıyevi, Razi Nurullayevi təbrik edib, vəsiqələrini onlara təqdim edib.

MSK sədri seçkilərin Seçki Məcəlləsinin tələblərinə tam uyğun, demokratik və şəffaf şəkildə keçirilməsi üçün zəruri işlərin görüldüyünü vurğulayıb.

Xatırladaq ki, prezident seçkiləri ilə bağlı səkkiz namizəd qeydə alınıb.

Mərkəzi Seçki Komissiyasında prezidentliyə namizədlərə ayrılmış ödənişsiz efir vaxtının bölgüsü ilə bağlı püşkatma olub

2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə əlaqədar prezidentliyə namizədlərin İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən ödənişsiz əsaslarla ayrılmış efir vaxtının bölgüsü məqsədilə martın 19-da Mərkəzi Seçki Komissiyasında (MSK) püşkatma keçirilib. Bu barədə AZƏRTAC-a MSK Katibliyinin media və ictimai əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, artıq prezidentliyə namizədlərin qeydiyyatı başa çatıb, 8 iddiaçının namizədliyi qeydə alınıb və martın 19-dan seçkiqabağı təşviqata start verilib. Seçki Məcəlləsinin tələbinə əsasən, prezidentliyə namizədlərin İctimai Televiziya və Radio Yayımları Şirkətində ödənişsiz əsaslarla efir vaxtı almaq hüquqlarının təmin edilməsi məqsədilə qanunvericilikdə nəzərdə tutulandan 2 dəfə artıq, həftədə 6 saat efir vaxtı ayrılıb. Qeydə alınmış namizədlər və namizədləri qeydə alınmış siyasi partiyaların təşəbbüsü ilə Mərkəzi Seçki Komissiyası və İctimai Televiziya və Radio Yayımları Şirkəti arasında əldə olunmuş razılığa əsasən ayrılmış efir vaxtı

təqdim etmiş qurumun imkanları daxilində həftənin 3 günü hər dəfə 1 saat olmaqla saat 19.00-da radioda, 22.00-da isə televiziyada istifadəçilərin sərəncamına veriləcək. Mərkəzi Seçki Komissiyasının qərarına əsasən, ayrılmış efir vaxtının qanunvericiliklə müəyyən edilmiş qaydada həmin vaxtdan istifadə etmək hüququ olan subyektlər arasında bölüşdürülməsi məqsədilə əvvəlcədən püşkatma komissiyası yaradılıb, püşkatmanın keçirilmə tarixi və vaxtı müəyyən olunub.

Sonra qeydə alınmış namizədlərin səlahiyyətli nümayəndələrinin, beynəlxalq müşahidəçilərin və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə püşkatma keçirilib və prezidentliyə namizədlərin, yaxud onların səlahiyyətli nümayəndələrinin "dəyirmi masa" ətrafında yerləşmə və sözverilmə ardıcıllığı müəyyən olunub.

Mərkəzi Seçki Komissiyası püşkatmanın nəticələrinin rəsmiləşdirilərək efir vaxtının bölgüsü cədvəlinin Seçki Məcəlləsində nəzərdə tutulan qaydada dərc edilməsini qərara alıb.

Xaricdəki vətəndaşlarımızın öz seçki hüquqlarından istifadə etmələri üçün zəruri hazırlıq işləri aparılır

Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində prezident seçkilərinə hazırlıq işləri ilə bağlı AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik:

- Hikmət müəllim, Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində prezident seçkilərinə hazırlıq işləri necə gedir?

- Azərbaycan Respublikası ərazisində olduğu kimi, xaricdəki vətəndaşlarımızın da öz seçki hüquqlarından azad, sərbəst və demokratik şəkildə istifadə etmələri üçün XİN tərəfindən zəruri hazırlıq işləri Mərkəzi Seçki Komissiyası ilə əlaqələndirilmiş şəkildə aparılır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 35.6.-cı maddəsinə əsasən, xarici dövlətlərdə olan seçicilərin səs verməsi və səslərinin hesablanması üçün seçki məntəqələri seçicilərin olduğu ərazilərdə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və ya konsul idarələrinin rəhbərləri tərəfindən konsul qeydiyyatına alınmış seçicilərin sayı 50-dən çox olduqda səsvermə gününə azı 30 gün qalmış yaradılır. Azərbaycan Respublikasının 32 ölkədə yerləşən diplomatik nümayəndəlikləri və konsulluqlarında 41 seçki məntəqəsi təşkil olunacaq.

Müəyyən olunmuş qrafik çərçivəsində seçki bülletenləri, protokollar, seçici siyahısı, seçkinin təşkili üçün ləvazimatlar, o cümlədən daşınan və daşınmaz qutular, ultrabənövşəyi işıq, xüsusi mürəkkəb, metodik vasitələr və digər tələb olunan ləvazimatların diplomatik nümayəndəliklərimizə çatdırılması həyata keçiriləcək.

- Son günlər bəzi bədxah qruplaşmalar tərəfindən Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri qarşısında təxribat xarakterli addımlar atılır. Bu barədə nə deyərdiniz?

- İlk növbədə, onu qeyd edək ki, bu gün Azərbaycan hüdudlarından kənarda vətənpərvər və təşkilatlanmış diasporumuz mövcuddur. Soydaşlarımız milli dövlətçiliyin, ölkəmizin milli maraqları, suverenliyi və müstəqilliyinin qorunması naminə yaşadıqları ölkələrdə vicdan və əzmlə çalışırlar.

Təəssüf ki, Azərbaycan diasporundan kənar müəyyən marginal qruplar da var. Burada diqqəti çəkən əsas məqam onların təxribatçı addımları erməni lobbi dairələrinin Azərbaycana qarşı Avropada və ABŞ-da təşkil etdikləri tədbirlərlə sinxron şəkildə atmasıdır. Məsələn, martın 14-də Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin təmsilçisi kimi özünü təqdim edən Bako Saakyan ABŞ erməni lobbisi ilə birlikdə ölkəmiz əleyhinə tədbir keçirdiyi bir vaxtda bir neçə nəfərdən ibarət olan qrup Vaşinqtondakı səfirliyimiz qarşısında aksiya keçirməyə cəhd etdi. Konqresin qarşısında erməni lobbisinin təxribatına etiraz edən vətənpərvər soydaşlarımıza dəstək vermək əvəzinə, bu maskalanmış bədxahlar erməni dəyirmanına su tökmək yolu tutdular. ABŞ Konqresi tərəfindən maliyyələşdirilən "Voice of America" isə bu piket imitasiyasını canlı yayımlayaraq informasiya təminatçısı rolunda çıxış etdi.

Digər bir analoji hadisə Avropada baş verdi. Xocalı soyqırımının ildönümü ərəfəsində daşnak Kaspar Karampetyanın rəhbərlik etdiyi erməni lobbi təşkilatları Avropa Parlamentində olan əlaltıları ilə birlikdə bu qurumda Xocalı soyqırımını inkar edən, Ermənistanın Azərbaycana qarşı təcavüz və işğalını təhrif edən seminar keçirdiyi və vətənpərvər gənc diaspor nümayəndələrimiz onlara etiraz səslərini ucaltdıqları bir vaxtda digərləri Brüsselin başqa bir yerində antiazərbaycan tədbiri keçirirdilər.

Bu kimi marginal dairələrin öz ana dilində yazılı və şifahi nitqlərində ciddi səhvlərə yol verməsi onların savadsızlığını açıb göstərir. Əcnəbi dillərə gəldikdə daha gülünc vəziyyətin şahidi oluruq. Zaman və məkan baxımdan erməni lobbi dairələri ilə sinxron qaydada hərəkət edən həmin dairələr bununla özlərini ifşa edir, əsl simalarını ortaya qoyurlar.

- Hikmət müəllim, bu kimi dairələrin məqsədləri nədir? Onların Azərbaycanın dövlət atributlarına qarşı çirkin fəaliyyətinin qarşısını almaq üçün diplomatik nümayəndəliklərimiz nə kimi tədbirlər görür?

- Bu dairələr öz yerlərini soyuq etməmək üçün ABŞ Konqresində, Avropa Parlamentində və digər instansiyalarda antiazərbaycan siyasət yürüdən ermənipərəst siyasətçilərə nəinki bir məktub, heç bir tvit və ya facebook statusu belə yazmayıblar. Azərbaycan əleyhinə fəaliyyətdə canfəşanlıq göstərmələrinin səbəbi isə bəlli siyasi dairələrin sifarişini yerinə yetirərək o ölkələrdə qalmalarını legitimləşdirməkdir.

Təəssüflə qeyd etməliyik ki, bəzi Avropa ölkələri bu kimi marginal qruplaşmaların Azərbaycanın dövlət atributlarına qarşı etikadan kənar fəaliyyətinə göz yumurlar. Belə qeyri-etik hallara qarşı ən azı inzibati tədbirlər görülməlidir. Diplomatik nümayəndəliklərimiz tərəfindən həmin ölkələrin aidiyyəti qurumlarına bu qeyri-etik hallar barədə məlumat verilib. Ümumiyyətlə isə marginal dairələrin və onların havadarlarının cavabını Azərbaycan xalqı azad və demokratik şəkildə keçiriləcək prezident seçkilərində iştirak edərək öz qəti siyasi iradəsini bir daha ortaya qoymaqla verəcək.

Azərbaycanın Belarusdakı səfirliyində prezident seçkilərində səs vermək üçün hər cür şərait yaradılıb

Aprelin 11-də Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə əlaqədar ölkəmizin Belarusdakı səfirliyində seçki məntəqəsi yaradılıb.

Azərbaycanın Belarusdakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, 17 saylı Yasamal üçüncü seçki dairəsinin nəzdində yaradılmış 41 saylı seçki məntəqəsində hazırlıq işləri başa çatıb.

Məntəqədə səfirliyin əməkdaşları ilə yanaşı, Belarusda fəaliyyət göstərən Azərbaycan şirkətlərinin nümayəndələri, bu ölkədə təhsil alan azərbaycanlı tələbələr, eləcə də həmin gün müvəqqəti olaraq Minskdə səfərdə olacaq və xidməti vəzifələrini icra edəcək vətəndaşlar səs verə biləcəklər.

Onların sərbəst şəkildə səs vermələri üçün hər cür şərait yaradılıb.

Azərbaycanın Batumidəki baş konsulluğu prezident seçkilərinə tam hazırdır

Azərbaycanda aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə əlaqədar ölkəmizin Batumi şəhərindəki baş konsulluğunda seçki məntəqəsi yaradılıb. 16 saylı Yasamal ikinci seçki dairəsinin nəzdində yaradılmış 41 saylı seçki məntəqəsində hazırlıq işləri başa çatıb.

Baş konsul Pərviz İsmayılzadə AZƏRTAC-a bildirib ki, məntəqədə konsulluğun əməkdaşları ilə yanaşı, Batumidə fəaliyyət göstərən Azərbaycan şirkətlərinin əməkdaşları, azərbaycanlı tələbələr, eləcə də həmin gün müvəqqəti olaraq Batumidə səfərdə olan və xidməti vəzifələrini icra edən Azərbaycan vətəndaşları səs verə biləcəklər.

Onların sərbəst şəkildə səs vermələri üçün hər cür şərait yaradılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Martın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Azərbaycanda keçiriləcək prezident seçkilərini müşahidə etməyə gəlmiş missiyasının muxtar respublikada fəaliyyət göstərəcək müşahidəçiləri Filipo Ristoldo və Risto Hurme ilə görüşüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səmimi qəbula görə minnətdarlıq edən Filipo Ristoldo və Risto Hurme Novruz bayramı ərəfəsində muxtar respublikada olmaqdan məmnunluqlarını bildiriblər. Müşahidəçilər seçki kampaniyasını və səsvermə prosesini yaxından izləyəcəklərini bildirib, fəaliyyət istiqamətləri barədə məlumat veriblər.

Ali Məclisin Sədri muxtar respublikada seçki prosesinə hazırlıq işlərini diqqətə çatdırıb, beynəlxalq müşahidəçilərin fəaliyyəti üçün hərtərəfli şəraitin yaradıldığını qeyd edib. Seçki müşahidələrinin qanunvericiliyin tələblərinə uyğun aparılacağına əminliyini bildirən Ali Məclisin Sədri qonaqlara fəaliyyətlərində uğurlar arzulayıb.

Heydər Əliyev Mərkəzinin parkında "Səməni" beynəlxalq sərgi-müsabiqəsi keçirilib

Martın 19-da Heydər Əliyev Mərkəzinin parkında "Səməni" beynəlxalq sərgi-müsabiqəsi keçirilib.

AZƏRTAC xəbər verir ki, sərgidə müasir incəsənət nümunələri - baharın rəmzi olan səməni və Novruz bayramına həsr olunmuş monumental əsərlər təqdim edilib.

Sərginin açılış mərasimində çıxış edən Xalq Rəssamı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarov burada yer alan əsərlərin rəssamların yüksək istedadından xəbər verdiyini söyləyib: "Bu əsərlərə baxdıqca bizdə nə qədər yaradıcı gənclərin olduğu aydın görünür. Onların istedadına valeh olmamaq mümkün deyil. Bu gənclər Azərbaycan xalqının milli bayramlarına həsr edilən beynəlxalq sərgilər, yaxud başqa bir əlamətdar hadisə münasibətilə keçirilən sərgilər üçün çox gözəl əsərlər yarada bilirlər. Təqdim edilən sərgi mövzunu orijinal formada rəmzləşdirməkdə rəssamların yüksək istedadını və bacarığını nümayiş etdirir".

Tədbir iştirakçılarını bayram münasibətilə təbrik edən Ömər Eldarov sərgilənən əsərlərdə Novruzun, yeni ilin, baharın gəlişinin əksini tapdığını qeyd edib. Bu cür sərgilərin təşkilinin ənənəyə çevrildiyini diqqətə çatdıran akademik deyib: "Biz hər dəfə bu cür sərgilərdə orijinal, gözəl işlərə baxanda yaradıcı gənclərimizlə qürur duyuruq. Bu sərgidə iştirak edən rəssamların hamısı istedadlıdır. Onların hamısını mükafatlandırmaq olardı. Lakin müsabiqənin öz şərtləri var. Bütün işlər, xüsusən qalib əsərlər ən yüksək qiymətə layiqdir", - deyə Ö.Eldarov bildirib.

Daha sonra Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarov, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov və layihənin koordinatoru Emin Məmmədov qalibləri mükafatlandırıblar. Sabit Zamanov birinci, Nərmin Abdullayeva ikinci, Orxan Qarayev və Renate Verbruq (Yeni Zelandiya) üçüncü yerə layiq görülüblər.

Rəsmi açılış mərasimindən sonra sərgiyə baxış olub. Mərkəzin parkında Azərbaycan və digər ölkələrdən olan rəssam və heykəltəraşların 20-dək əsəri nümayiş edilir.

Qeyd edək ki, Sabit Zamanovun əsərinin konsepsiyası alovla bağlıdır. Bu əsəri səkkiz günə ərsəyə gətirən rəssamın fikrincə, milli adət-ənənələrimiz, o cümlədən Novruzun atributlarından olan səməni ilə bağlı sərgi-müsabiqə keçirmək çox gözəl təşəbbüsdür. Həmçinin belə sərgilər yeni-yeni istedadları üzə çıxarır.

Sabit Zamanov səməni və ya Novruzla bağlı digər atributu motiv olaraq götürür və özünəməxsus şəkildə işləyir. "Ola bilər ki, yaratdığım əsərdə sırf bayram ənənəsi hiss olunmasın. Çünki milli elementi götürüb ona qlobal yanaşıram. Bu, həm də milli motivin daha böyük auditoriyaya çatdırmağın ifadəsidir", - deyə rəssam söyləyir.

Rəssam Nərmin Abdullayevanın fikrincə, Novruzun səməni, boyanmış yumurta kimi atributları rəssamlar tərəfindən çox işlənib: "Seçdiyim motiv xoruz döyüşü oldu. Bayramda buna həm uşaqlar, həm də böyüklər maraqla baxırlar. Digər tərəfdən, düşündüm ki, bu mövzuda rəngarəng bir əsər yaratmaq mümkündür".

Layihə milli adət-ənənələri, dəyərləri yaşatmaq və yeni nəslə çatdırmaq, eyni zamanda, müasir incəsənətin inkişafına dəstək məqsədi daşıyır.

Qonaqlar modern, bayram ovqatına özünəməxsus çalar qatan sərgiyə baxmaqla yanaşı, parkda təşkil olunan bayram şənliyində də iştirak ediblər.

Xatırladaq ki, Heydər Əliyev Mərkəzi 2014-cü və 2015-ci illərdə də Novruz bayramına həsr olunmuş layihə həyata keçirərək "Səməni" beynəlxalq incəsənət müsabiqəsi və sərgisi təşkil etmişdi.

Beləliklə, bu bayram günlərində də şəhər sakinləri və qonaqlar Heydər Əliyev Mərkəzinin parkında Novruz atributlarını fərqli format və baxış bucağından görə biləcəklər.

Sərgiyə giriş sərbəstdir.

Daşkənddə mətbuat konfransı olub

Özbəkistana gələn tanınmış Azərbaycan modelyeri, əməkdar incəsənət xadimi, "Fakhriya Khalafova" moda evinin təsisçisi Fəxriyyə Xələfova Daşkənddə jurnalistlər üçün mətbuat konfransı keçirib.

Daşkənddə "Dünyanı gözəllik xilas edəcək" devizi altında keçiriləcək "Miss Union Fashion-2018" üçüncü beynəlxalq müsabiqəsində iştirak etmək üçün Özbəkistana gəldiyini bildirən Fəxriyyə Xələfova bu tədbirə özbək ipəyindən istifadə etməklə hazırladığı 12 milli qadın geyimi ilə qatılacağını deyib.

Modeyler-rəssam Bakıda keçirilən "Miss Union Fashion-2016" müsabiqəsi haqqında da söhbət açıb.

F.Xələfova Daşkənddəki Özbəkistan Tətbiqi İncəsənət Muzeyində olduğunu, muzeyə özbək ipəyindən istifadə edilməklə hazırladığı milli qadın geyimi bağışladığını bildirib. O deyib ki, muzeydə "Gulnara Fashion" dəb evinin rəhbəri Gülnara Muxammedova ilə əməkdaşlıq haqqında memorandum imzalanıb.

Fəxriyyə Xələfova qeyd edib ki, Özbəkistan Tarixi Muzeyində də olub, muzeyə Azərbaycan milli qadın geyimi bağışlayıb və bu, çox maraqla qarşılanıb. "Muzeyin direktoru, professor Cannat İsmayılova ilə belə razılığa gəldik ki, Azərbaycan və özbək milli qadın geyimlərindən ibarət kataloq hazırlayaq. Nəşrdə bu sahədə istifadə edilən parçalar, Azərbaycanın və Özbəkistanın regionlarına aid geyimlər, aksessuarlar, ornamentlər əksini tapacaq. Elə bilirəm ki, bu kataloq həm Azərbaycan, həm də Özbəkistanda maraqla qarşılanacaq", - deyə F.Xələfova əlavə edib.

Sonra jurnalistlərin sualları cavablandırılıb. Salonda özbək milli geyimləri, suvenirləri və müxtəlif əl işləri də nümayiş etdirilib. Müxtəlif ölkələri təmsil edən qızlar uğurları münasibətilə Fəxriyyə Xələfovanı təbrik ediblər.

Sonda qarşılıqlı olaraq suvenirlər bağışlanıb.

AZƏRTAC

Daxili İşlər Nazirliyinin nümayəndələri qaçqın və məcburi köçkünlərlə görüşüblər

Bütün əlamətdar hadisələrdə olduğu kimi, Novruz bayramı ərəfəsində - martın 17-18-də daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyevin başçılığı ilə nazirliyin nümayəndələri Sabirabadın Yeni Şəhriyar və Goranboyun Aşağı Ağcakənd qəsəbələrində müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkünlərlə görüşüblər.

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir müavini doğma yurd yerlərindən didərgin düşmüş soydaşlarımızı qarşıdan gələn bayram münasibətilə respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubovun adından təbrik edib, ən xoş arzularını çatdırıb. Qaçqın və məcburi köçkünlərin qayğı və problemlərinə, müraciətlərinə hər zaman diqqətlə, həssaslıqla yanaşılmasının əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğu, hazırda bu siyasətin uğurla davam etdirildiyi vurğulanıb.

Polis general-leytenantı İsmət Əliyev sosial müdafiəyə ehtiyacı olan bu insanların həyat, məişət şəraitinin yaxşılaşdırılması üçün görülən tədbirlərdən, ordu quruculuğu, iqtisadi qüdrətimizin daha da yüksəldilməsi, cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmini, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahələrində əldə olunmuş uğurlardan söz açıb.

Qaçqın və məcburi köçkünlər adından çıxış edənlər dövlət başçısının həyata keçirdiyi siyasət nəticəsində doğma torpaqlarına qayıdacaqlarına əmin olduqlarını, göstərilən daimi diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Daxili işlər orqanları əməkdaşlarının könüllülük prinsipi əsasında topladıqları 68 min manat soydaşlarımıza təqdim olunub.

Görüşlərdə Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov və Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov iştirak ediblər.

Sumqayıtda Novruz növrağı

Azərbaycanın iqtisadi xəritəsində xüsusi çəkiyə malik olan Sumqayıtda həyata keçirilən layihələr nəticəsində şəhərin siması tamam dəyişmişdir. İnkişaf edən Sumqayıt Cənubi Qafqazın iri sənaye şəhərinə çevrilmişdir. Son bir ildə burada yeni müəssisələr açılmış, insanların sosial rifah halı xeyli yaxşılaşmışdır.

Sumqayıt ölkəmizin günbəgün yeniləşən simasını özündə əks etdirməklə yanaşı, sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərin miqyasını davamlı olaraq genişləndirir. Xarüqələr məkanına çevrilən, əzəmətli görkəmini yenidən bərpa edən, həyata keçirilən abadlıq-quruculuq işləri nəticəsində dünyanın ən gözəl şəhərləri sırasında yer alan Sumqayıt eyni zamanda sürətli inkişafın əsas ünvanlarından biridir. Şəhərin sabaha hesablanan inkişaf prosesləri sürətli proqram əsasında aparılır. Sumqayıtda yeni müəssisələrin açılışında ölkə rəhbərinin şəxsən iştirak etməsi isə onun bu şəhərə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Sumqayıta səfəri zamanı burada həyata keçirilən layihələri ölkə rəhbəri yüksək qiymətləndirmiş, şəhər barədə öz fikrini belə bildirmişdir: *"Sumqayıtın bugünkü vəziyyəti, bugünkü görkəmi həm şəhər sakinlərini, həm də bütün Azərbaycan xalqını sevindirir. Son illər ərzində Sumqayıtda çox böyük işlər görülüb. Sumqayıtın sənaye potensialı ölkəmizi gücləndirir. Sumqayıt artıq bu gün nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci sənaye mərkəzidir".*

Sumqayıtda hər bayramı bir-birindən maraqlı töhfələrlə qarşılamaq, qədim adətlərimizi müasirlik baxımından yeni çalarla təqdim etmək ənənə şəklini alıb. Bu mərasim və şənliklər respublikamızda öz ilkliyi ilə də fərqlənir. Xalqımızın milli bayramı olan Novruzu qarşılamaq üçün tədbirlərə hələ ilk çərşənbələrdən başlanılıb. Fevralın sonlarından başlayaraq təkcə təbiətin deyil, insanların da əhvali-ruhiyyəsində bir oyanış, yüksəliş var. Şəhərdə ilk çərşənbələrdən başlayaraq bayramın əvvəlki illərdəkindən fərqli şəkildə keçirilməsi nəzərə çarpırdı. Reklam tablolarında səməni, şəkərbura, paxlava, Bahar qızının şəkilləri hamının diqqətini cəlb edirdi.

Həm ümumşəhər miqyasında, həm də ayrı-ayrı məhəllələrdə, küçələrdə, evlərdə, maarif, mədəniyyət və səhiyyə ocaqlarında çərşənbələrdə tonqallar alovlanır,

insanlar gecə yarıdan keçənədək şənlənirdi. Artıq bir neçə gündür ki, Keçəl və Kosa qara zurnanın sədaları altında şəhəri dolaşır, evlərin qonağı olur, məktəblərdə şagirdlərlə görüşüb maraqlı söhbətlər aparırlar. Şəhərimizin qonaqları üçün hazırlanmış boxçadan hədiyyələr də ayrılıb paylanırdı.

Novruz bayramı günü ümummilli lider Heydər Əliyevin adını daşıyan park izdihamlı idi. Yaşından asılı olmayaraq hər kəs gəzintidə iştirak edirdi.

Sumqayıtdakı Heydər Əliyev Mərkəzinin qarşısı isə qələbəlik idi. İnsanlar bura toplaşdıqca hər tərəfi şənlik sədaları bürüyürdü. Hamı birbirini təbrik edirdi.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Milli Məclisin deputatları, ölkəmizdəki səfirliklərin nümayəndələri, əmək qəhrəmanları ulu öndərin möhtəşəm abidəsinin qarşısından hərəkətə gəldi. Minlərlə insan parkın qaşısında ucalan bayrağımızın önündən keçərək Kimyaçılar sarayına yaxınlaşdı.

Buraya toplaşanları salamlayan Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov meydanın ortasındakı tonqalı alovlandırdı.

Yüksələn alov dilimləri sanki insanların sevincini göylərə qaldırırdı. İdmançıların çıxışları iştirakçılar tərəfindən maraqla izləndi. Daha sonra ayrılmış səhnədə inbişən lavaşdan, bükmədən daddılar, maraqlı diskussiyalar apardılar.

Başqa bir tərəfdə Qarabağ döyüşləri qəhrəmanlarının fotostendi, məktəblilərin oynadıqları döyüş səhnələri, hərbçilərimizin nümunəvi çıxışları hamının diqqətini cəlb etdi. Vurğulandı ki, tezliklə torpaqlarımız işğaldan azad ediləcək, insanlar doğma yurdlarına qayıdacaqlar.

Həmçinin çadırlarda Azərbaycan mətbəxinin təamları, Novruzun atributları olan paxlava və şəkərburanın müxtəlif çeşidləri də maraqla qarşılandı. Xanımlar onların hazırlanmasını canlı şəkildə iştirakçılar qarşısında nümayiş etdirdilər. Tədbirdə şimal bölgəsinin rayonlarından gələn qonaqların sərgiləri nümayiş etdirildi.

Daha sonra iştirakçılar sarayın qarşısında yerləşən açıq səma altında canlı konsertə tamaşa etdilər. Axşam yandırılan tonqallar bu mərasimi daha da rövnəqləndirdi. Xalq gəzintisi gecə yarıdan keçənədək davam etdi.

Akif ƏLİYEV,
"Azərbaycan"

Qubadlılılar bayramı yüksək əhvali-ruhiyyə ilə qarşılayırlar

Xalqımızın ən əziz bayramlarından olan Novruz bayramı, eləcə də ilin dörd çərşənbəsi Qubadlı rayonunun sakinləri tərəfindən hər il təntənəli surətdə qeyd edilir. Mart ayı girəndən Qubadlı Rayon İcra Hakimiyyətinin nümayəndələri məcburi köçkünlərin məskunlaşdıqları ərazilərdə olmuş, onlara bayram sovqatları paylamışlar. Bu il də qubadlılılar Novruz bayramını qeyd etmək üçün məcburi köçkünlərin kompakt məskunlaşdıqları ərazidə, Sumqayıt şəhərindəki Qubadlı Rayon İcra Hakimiyyətinin inzibati binasının qarşısında bayram şənliyinə yığışdılar.

Rayonun mədəniyyət işçiləri tərəfindən xalq qəhrəmanları Qaçaq Nəbi və Həcərin şəxsi əşyaları nümayiş etdirildi. Onlar barədə əfsanələr xatırladıldı, bayatılar və nəğmələr səsləndirildi.

Sərginin sıra ilə düzülən kitab guşəsində yenicə çapdan çıxan nəşrlər, açıqcalar iştirakçıların xüsusi olaraq diqqətini cəlb etdi. Belə ki, burada Qubadlının tarixini özündə əks etdirən kitablar barədə məlumat verildi. Həmçinin nəşr tarixi keçən əsrin əvvəllərinə gedib çıxan kitablar da sərgi iştirakçılarının marağına səbəb oldu. Bildirildi ki, tariximizin bir hissəsi olan bu kitablar qorunmalı, nəsildən-nəslə ötürülməlidir.

Tədbirdə Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov, Milli Məclisin deputatları, rayonun idarə, müəssisə və təşkilatlarının rəhbərləri, ictimaiyyətinin nümayəndələri iştirak etdilər. Şənlikdən öncə alovlandırılan tonqal ətrafında toplaşan məcburi köçkünlərlə görüşən rayon icra hakimiyyətinin başçısı Malik İsaqov onları bayram münasibətilə təbrik etdi. M.İsaqov vurğuladı ki, Novruz ümumxalq bayramı kimi uzun əsrlərdən bəri yurdumuzun hər bir guşəsində müxtəlif el şənlikləri və mərasimlərlə qarşılanır. Tanrıya, kainatın nizamına və ana təbiətə sonsuz sevginin parlaq ifadəsi olan bu bayramın qədim ənənələrinin bütün rəngarəngliyi ilə qorunub saxlanılması Azərbaycan xalqının öz tarixi-mədəni keçmişinə yüksək ehtiramını və milli-mənəvi dəyərlərə bağlılığını nümayiş etdirir. Bu bayramda kimsəsizlərə, ehtiyacı olanlara, ahıllara baş çəkmək, onlara bayram sovqatı vermək savab sayılır.

M.İsaqov qeyd etdi ki, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli, mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı məşğulluq məsələləri istiqamətində də kompleks addımlar atılır. Bu kontekstdə ölkə rəhbərinin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq sərəncam və tapşırıqları ilə qaçqınların və məcburi köçkünlərin sosial durumunun, yaşayış şəraitinin daha da yaxşılaşdırılması üçün xeyli sayda tədbir həyata keçirilib. Qubadlılılar dövlət başçısının siyasətini dəstəkləyir və tam əmindirlər ki, tezliklə Novruzu doğma yurdda qarşılayacaqlar.

Tədbirdə çıxış edən sakinlər ümummilli lider Heydər Əliyevin siyasətinə daim sadiq qaldıqlarını bildirdilər. Belə bir inam ifadə edildi ki, tezliklə ölkə rəhbərinin apardığı siyasət nəticəsində torpaqlarımız işğaldan azad ediləcək və belə çərşənbə tonqalları hər kəsin öz yurdunda, öz həyətində alovlanacaq.

Şənliyə dəvət olunmuş tanınmış incəsənət xadimləri ilə yanaşı, rayonun "Bərgüşad" ansamblının, incəsənət xadimlərinin ifalarında hazırlanmış konsert proqramı, Novruzun simvolu olan Kosa və Keçəlin, kəndirbazın əyləncəli hərəkətləri, məktəblilərin ifasında xalq rəqsləri maraqla qarşılandı.

Bayram tonqalı ətrafına toplaşanlar xalqımıza xoş arzularını dilədilər.

"Azərbaycan"

Baş nazir Binəli YILDIRIM: "Türkiyə hər zaman Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyib"

Baş nazir Binəli Yıldırım Türkiyədə gəzintidə olan bir qrup azərbaycanlı, eləcə də türkiyəli şəhid övladı ilə martın 19-da Çankaya köşkündə görüşüb.

AZƏRTAC xəbər verir ki, şəhid övladlarını səmimiyyətlə salamlayan Türkiyə hökumətinin başçısı onların qəhrəman ataları ilə bağlı hislərini xoş sözlərlə ifadə edib. Baş nazir Binəli Yıldırım deyib: "Azərbaycan-Türkiyə münasibətlərinin təməlində "bir millət, iki dövlət" prinsipi və qardaşlıq vardır. Bu layihə əlaqələrimizin inkişafı üçün özünəməxsus təsirə malikdir. Türkiyə hər zaman Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyib. Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq çərçivəsində həll olunması üçün əlimizdən gələni etmişik və edəcəyik. Ermənistanın işğalçılığının tam şəkildə aradan qaldırılması, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi, o cümlədən qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıtması haqqın və ədalətin bərpa olunması üçün mühüm şərtdir".

Baş nazir, həmçinin bir neçə gün əvvəl keçirilən VI Qlobal Bakı Forumunda iştirakı, paytaxtımızda keçirdiyi görüşlər və Azərbaycana səfərinin xoş təəssüratlarından danışıb.

Türkiyə hökuməti adından şəhid övladlarına ziyafət və hədiyyələr verilib.

Baş nazir Binəli Yıldırım uşaqlarla xatirə şəkli çəkdirib.

Sonda Türkiyə hökumətinin başçısına Azərbaycan-Türkiyə qardaşlığını əks etdirən portret hədiyyə olunub.

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Necdət Ünüvar, hakim Ədalət və İnkişaf Partiyası sədrinin müavini Öznur Çalık və digər rəsmi şəxslər görüşdə iştirak ediblər.

Xatırladaq ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə həyata keçirilən "Azərbaycan-Türkiyə şəhid övladları qucaqlaşırlar" layihəsinin təşkilatçısı Türkiyədə fəaliyyət göstərən Azərbaycan Qadınları Mədəniyyət Mərkəzi Dərnəyi, himayədarı isə Türkiyə Nazirlər Kabinetinin Tanıtma Fondudur.

Azərbaycanlı şəhid uşaqların Türkiyədə gəzintisi martın 27-də başa çatacaq.

Müdafiə Nazirliyinin rəhbərliyi Novruz bayramı münasibətilə hərbi hospitalda olub

Müdafiə Nazirliyinin rəhbər heyəti Novruz bayramı ilə əlaqədar martın 19-da Silahlı Qüvvələrin Baş Klinik Hospitalında olub.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə hərbi tibb müəssisəsinin həyətində ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi dərin ehtiramla yad edilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov hospitalda müalicə alan şəxsi heyətlə görüşərək onların səhhəti ilə maraqlanıb. Hərbi qulluqçulara bayram sovqatları təqdim edilib və tezliklə sağalaraq xidmət yerlərinə qayıtmaları arzu olunub.

Hospitalın kollektivi ilə görüşən müdafiə naziri onları bayram münasibətilə təbrik edib, uğurlar diləyib və müvafiq tapşırıqlar verib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Beynəlxalq Əmək Təşkilatının İdarə Heyətinin iclasında çıxış edib

Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov Beynəlxalq Əmək Təşkilatının (BƏT) İdarə Heyətinin Cenevrədə keçirilən 332-ci iclasının "Birləşmiş Millətlər Təşkilatının islahatı: BƏT üçün nəticələr" və "Dayanıqlı inkişaf üçün layiqli əməyin təşviqi" mövzuları üzrə üzv dövlətlərin yüksək vəzifəli rəsmilərinin çıxışları üçün nəzərdə tutulmuş hissəsində çıxış edib.

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, S.Müslümov bildirib ki, müasir dövrdə əmək sferasının gələcəyinə yeni texnologiyaların inkişafı, demoqrafik perspektivlər, əmək münasibətlərinin tənzimlənməsi, miqrasiya prosesləri, bacarıqların artırılması və təhsil imkanlarının genişləndirilməsi kontekstində praqmatik baxışın formalaşdırılması dayanıqlı iqtisadi artımı, layiqli iş yerlərinin təmin olunmasını və bütövlükdə insan kapitalının inkişafını təmin edən yeni mexanizmlərin yaradılması üçün əsas şərtlərdən biridir. Bunu nəzərə alan Azərbaycan hökuməti sosial tərəfdaşlarla birgə BƏT-in çağırışına cavab verərək "Əməyin gələcəyi" təşəbbüsünə öz dəstəyini ifadə edib.

Nazir vurğulayıb ki, Azərbaycanda innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılması, əmək məhsuldarlığının artırılması, əhalinin sosial rifahının yüksəldilməsi ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu dövlət siyasətinin strateji hədəflərini təşkil edir: "Son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri arasında olan Azərbaycan Davos Dünya İqtisadi Forumu tərəfindən 2017-ci il üçün hazırlanan Qlobal Rəqabətqabiliyyətlilik hesabatında iqtisadiyyatın rəqabətə davamlılığına görə dünya ölkələri sırasında 35-ci yerdə qərarlaşıb. Son 12 il ərzində ölkənin ümumi daxili məhsulu 3 dəfədən çox artıb, yeni iş yerləri yaradılıb, əhalinin gəlirləri 5,6 dəfə, minimum əməkhaqqı 5,2 dəfə, orta aylıq nominal əməkhaqqı 4,2 dəfə artıb, işsizlik və yoxsulluğun aşağı səviyyədə saxlanılmasına nail olunub".

İqtisadi nailiyyətlərin hökumətə əhalinin sosial rifahının yaxşılaşdırılmasına istiqamətləndirilmiş siyasi məqsədlərin reallaşdırılmasına imkan yaratdığını qeyd edən S.Müslümov bildirib ki, yalnız ideya deyil, həm də onun reallaşdırılması üçün zəruri olan ictimai dəstək olmasaydı, bu nailiyyətlər əldə oluna bilməzdi: "Layiqli əməyin təmin edilməsini məhsuldar əməyə nail olunması, sabit və keyfiyyətli iş yerlərinin yaradılması, peşə təhsili sisteminin təkmilləşdirilməsi, işçi qüvvəsinin keyfiyyətinin artırılması, işsizlikdən sığorta və tibbi sığorta sistemlərinin tətbiqi, əməyin mühafizəsi, sosial dialoqun gücləndirilməsi tədbirləri vasitəsi ilə reallaşdırırıq".

Nazir ölkəmizdə qeyri-formal məşğulluğun aradan qaldırılması, əmək bazarında kvalifikasiyaların iqtisadiyyatın artan tələbatına uyğunlaşdırılması, gender bərabərliyinin təmin olunması, əhalinin özünüməşğulluğunun inkişafı və s. məsələlərə xüsusi diqqət yetirildiyini qeyd edib. O, aparılan siyasətin, ilk növbədə, sosial müdafiə tədbirlərində əhatəliliyin, şəffaflığın və ünvanlılığın təminatına, əmək və sosial təminat sahəsində sürətli, rahat və şəffaf dövlət xidmətlərinə geniş çıxış imkanlarının yaradılmasına, sosial xidmətlərin təqdim edilməsində innovativ texnologiyaların tətbiqinə və bu əsasda aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsinə əsaslandığını vurğulayıb.

Azərbaycanda 2016-cı ilin sentyabr ayında Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın yaradıldığını diqqətə çatdıran S.Müslümov əmək sferasının mövcud vəziyyətinin və gələcək perspektivlərinin üçtərəflilik (tripartizm) prinsipi əsasında qiymətləndirilməsi ilə bağlı ölkəmizdəki iş praktikasının BƏT tərəfindən ən yaxşı təcrübə nümunəsi kimi qəbul olunaraq region ölkələri üçün tövsiyə edildiyini bildirib.

Nazir qeyd edib ki, BMT-nin 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyindən irəli gələn öhdəliklərin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycanda aidiyyəti dövlət orqanlarının və sosial tərəfdaşların rəhbər şəxsləri səviyyəsində Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması yeni Dayanıqlı İnkişaf Məqsədlərinin ölkəmiz üçün nə dərəcədə əhəmiyyətli olduğunu bir daha sübut edir: "2018-ci il 21 may tarixində Dayanıqlı İnkişaf Məqsədlərinin 8-ci məqsədinin icrasına dair Azərbaycanda keçiriləcək Beynəlxalq Konfransda dünyada əmək bazarının müxtəlif kontekstində Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşdırılmasında region ölkələrinin əldə etdiyi nailiyyətlər müzakirə olunacaq, bu sahədə BƏT və bütövlükdə BMT ilə gələcək əməkdaşlıq prioritetləri müəyyən ediləcəkdir".

S.Müslümov Azərbaycan hökuməti ilə BƏT arasında 2016-2020-ci illər üçün ikinci Layiqli Əmək üzrə Ölkə Proqramı çərçivəsində həyata keçirilən tədbirləri diqqətə çatdırıb: "Bu tədbirlər sırasında Azərbaycan Respublikasının yeni Məşğulluq Strategiyası layihəsinin hazırlanmasını, Dövlət Məşğulluq Xidmətinin potensialının gücləndirilməsi üçün təlim kurslarının təşkilini, gənclərin məşğulluq imkanlarının artırılmasına yönəldilmiş bir çox layihələrin icrasını, əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində BƏT-lə birgə fəaliyyətin həyata keçirilməsini xüsusilə qeyd etmək istərdim. Azərbaycanın özünüməşğulluq tədbirlərinin həyata keçirilməsi sahəsində təcrübəsi də BƏT tərəfindən region ölkələri üçün ən yaxşı nümunə kimi göstərilmişdir".

Nazir qeyd edib ki, Azərbaycanın BƏT-in siyasətini müəyyən edən orqanda, yəni bu Təşkilatın İnzibati Şurasında təmsil olunmaq hüququ qazanması ölkəmizdə sosial-iqtisadi sahədə aparılan uğurlu islahatlara beynəlxalq ictimaiyyət tərəfindən verilən yüksək qiymətin növbəti təzahürüdür. BƏT-in Baş direktoru cənab Qay Rayderin Azərbaycana bu ilin 21 may tarixində ilk rəsmi səfəri və onun Beynəlxalq Bakı Konfransında iştirakı Azərbaycanla BƏT arasında əməkdaşlıqda yeni bir irəliləyiş olacaqdır: "Azərbaycan, paytaxtı Bakının Beynəlxalq Sərgilər Bürosunun 2025-ci ildə keçiriləcək Ümumdünya Sərgisinə namizəd şəhər olması təşəbbüsünü irəli sürüb. "İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq" devizi altında keçiriləcək bu tədbirin əsas fokusu qlobal nöqteyi-nəzərdən hər bir fərd, hər bir cəmiyyət və hər bir ölkə üçün böyük əhəmiyyətli olduğunu bir daha sübut edir: "2018-ci il 21 may tarixində Dayanıqlı İnkişaf Məqsədlərinin 8-ci məqsədinin icrasına dair Azərbaycanda keçiriləcək Beynəlxalq Konfransda dünyada əmək bazarının müxtəlif kontekstində Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşdırılmasında region ölkələrinin əldə etdiyi nailiyyətlər müzakirə olunacaq, bu sahədə BƏT və bütövlükdə BMT ilə gələcək əməkdaşlıq prioritetləri müəyyən ediləcəkdir".

S.Müslümov davamlı olaraq əmək münasibətlərinin demokratikləşməsini həyata keçirən Azərbaycanda növbəti inkişaf mərhələsində də sosialyönümlü inkişafa daha çox üstünlük veriləcəyini vurğulayıb.

Qeyd edək ki, iclasın gündəliyinə BƏT-in Baş direktorunun "İxrac emalı zonalarında layıqlı əməyin təşviqi, fundamental prinsipləri və işçilərin iş hüquqlarının müdafiəsi" mövzusunda məruzəsinin, Beynəlxalq Əmək Konfransının 107-ci sessiyasının gündəliyinin müzakirəsi və təsdiqlənməsi daxildir. Həmçinin tədbirdə institusional və hüquqi, beynəlxalq əmək normaları, proqram, maliyyə, idarəetmə, siyasətin formalaşdırılması məsələləri ətrafında müzakirələr aparılır.

11 APREL PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərinin yüksək səviyyədə təşkil olunub, azad, ədalətli və şəffaf keçirilməsi üçün ardıcıl şəkildə irimiqyaslı silsilə layihələr reallaşdırılır. Atılan bütün addımlarda başlıca məqsəd ölkə vətəndaşlarının əsas konstitusion hüquqlarından olan seçmək və seçilmək hüquqlarının azad və sərbəst şəkildə daha səmərəli təmin olunmasıdır.

Azərbaycan Respublikasi Prezidentinin seçkilərində seçkiqabağı təşviqata dair ümumi tələblər

Seçki Məcəlləsinə uyğun olaraq, cari ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar martın 19-dan etibarən seçki marafonunun əsas mərhələlərindən biri olan seçkiqabağı təşviqat mərhələsi başlayır. Qanunvericiliyin tələbinə əsasən seçkiqabağı təşviqat səsvermə gününə 23 gün qalmış başlayır və səsvermənin başlamasına 24 saat qalmış dayandırılır, yəni səsvermə günü və ondan əvvəlki gün saat 8.00-dan baslayaraq hər hansı seçkiqabağı təşviqat aparmaq qadağandır.

Dövlət Azərbaycan Respublikasının Konstitusiyasına və Seçki Məcəlləsinə uyğun olaraq vətəndaşlar, siyasi partiyalar tərəfindən azad seçkiqabağı təşviqatın aparılması üçün şərait yaradılmasını təmin edir, habelə qeydə alınmış namizədin, namizədi qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının seçkiqabağı təşviqat aparması üçün kütləvi informasiya vasitələrindən bərabər istifadə şərtlərini müəyyənləşdirir.

Vətəndaşların, siyasi partiyaların, siyasi partiyalar bloklarının qanunun yol verdiyi formalarda və üsullarla seçiciləri seçkilərdə iştirak etməyə və ya etməməyə, qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun lehinə və ya əleyhinə səs verməyə çağırışlar formasında seçkiqabağı təşviqat aparmaq hüququ vardır.

Seçkiqabağı təşviqat Prezident seçkilərində iştirak etmək üçün qeydə alınmış namizədlər, namizədləri qeydə alınmış siyasi partiyalar, siyasi partiyalar blokları və bu subyektlərin adından onların səlahiyyətli nümayəndələri, vəkil edilmiş şəxsləri (onlara verilmiş səlahiyyətləri daxilində) tərəfindən aparıla bilər.

Xarici dövlətlər, xarici hüquqi şəxslər, xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər, 18 yaşına çatmamış vətəndaşlar, beynəlxalq təşkilatlar və beynəlxalq ictimai hərəkatlar, dövlət hakimiyyəti orqanları və bələdiyyə qurumları, dövlət və bələdiyyə qulluqçuları, hərbi qulluqçular, xeyriyyə təşkilatları, dini birliklər, dini idarə və təşkilatlar, seçki komissiyaları, seçki komissiyalarının həlledici səs hüquqlu üzvləri və digər vəzifəli şəxsləri tərəfindən seçkiqabağı təşviqatın aparılması, seçkiqabağı hər hansı təşviqat materiallarının yayılması qanunla qadağan edilir.

Xarici dövlətlərin, xarici hüquqi şəxslərin, xarici vətəndaşların, vətəndaşlığı olmayan şəxslərin, dövlətin və bələdiyyənin seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan vəziyyətə görə Azərbaycan Respublikasının hüquqi şəxslərinin nizamnamə kapitalında iştirak (mülkiyyət) payı 30 faizdən çox olarsa, həmin hüquqi şəxslər tərəfindən də hər hansı bir seçkiqabağı təşviqatın aparılması yolverilməzdir.

Seçkiqabağı təşviqat kütləvi informasiya vasitələri ilə, kütləvi tədbirlərin keçirilməsi yolu ilə, çap olunmuş audiovizual və digər təşviqat materiallarının buraxılması və yayılması yolu ilə və qanunla qadağan edilməyən digər üsullarla aparılır.

Qeydə alınmış namizəd, siyasi partiya və siyasi partiyalar bloku seçkiqabağı təşviqatın forma və üsullarını müstəqil müəyyənləşdirir.

Kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqat açıq müzakirələr, "dəyirmi masalar", mətbuat konfransları, müsahibələr, çıxışlar, siyasi reklamlar, tele və videoverilişlər, videofilmlər formasında və qanunla qadağan edilməyən digər formalarda həyata keçirilir.

Mülkiyyət növünə və yayım imkanlarına görə Azərbaycan Respublikası ərazisinin yarısına, yarısından çoxuna, yaxud azına yayımlanan ictimai teleradio verilişləri təşkilatlarının, təsisçiləri fiziki və hüquqi şəxslər olan və xüsusi mülkiyyətə əsaslanan teleradio verilişləri təşkilatlarının, təsisçiləri dövlət orqanları, təşkilatları, idarələri olan və ya dövlət büdcəsindən maliyyələşən, Azərbaycan Respublikası ərazisinin yarısına, yarısından çoxuna, yaxud azına yayımlanan və həftədə azı bir dəfə çıxan dövlət dövri mətbuat nəşrlərinin və təsisçiləri ayrı-ayrı fiziki və ya hüquqi şəxslər olan özəl dövri nəşrlərin seçkiqabağı təşviqat prosesində iştirakı nəzərdə tutulur.

İctimai teleradio təşkilatları tərəfindən seçkiqabağı təşviqat üçün ayrılan efir vaxtı və dövlət dövri mətbuat nəşrləri tərəfindən seçkiqabağı təşviqata dərc üçün ayrılan yer ödənişsiz və ödənişli əsaslarla, özəl teleradio təşkilatları və özəl dövri nəşrlər tərəfindən isə yalnız ödənişli əsaslarla həyata keçirilir.

Seçkiqabağı təşviqat müddəti başlanandan sonra bir həftə müddətində qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları arasında onların verdikləri ərizələr əsasında ictimai teleradio verilişləri təşkilatlarında ayrılmış pulsuz efir vaxtının bölgüsü məqsədilə Mərkəzi Seçki Komissiyası tərəfindən, dövlət dövri mətbuat nəşrləri tərəfindən ayrılmış pulsuz dərc yerinin bölgüsü məqsədilə müvafiq dövri nəşr tərəfindən püşkatma keçirilir.

Püşkatmanın keçirilməsində müvafiq seçki komissiyasının üzvləri, namizədlər, namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələri, yaxud vəkil edilmiş şəxsləri, qanunvericiliklə müəyyən olunmuş qaydada müşahidəçi statusu almış Azərbaycan Respublikasının vətəndaşları, KİV nümayəndələri və beynəlxalq müşahidəçilər iştirak edə bilərlər.

İctimai teleradio verilişləri təşkilatlarının seçkiqabağı təşviqat üçün ayırdıqları ödənişsiz efir vaxtının ümumi həcmi həftədə 3 saatdan az olmamalıdır.

Təsisçiləri dövlət orqanları, idarələri, təşkilatları olan və ya dövlət büdcəsindən maliyyələşən, Azərbaycan Respublikasının ərazisinin yarısına, yaxud yarısından çoxuna yayımlanan dövri nəşrlərdən hər birində pulsuz ayrılan nəşr səhifələrinin həcmi seçkiqabağı təşviqat dövrünədək həftəlik nəşr səhifələrinin ümümi həcminin azı 10 faizini təşkil etməlidir.

İctimai teleradio verilişləri təşkilatları və dövri nəşrlər təşviqat aparmaq məqsədilə qeydə alınmış namizədlərə, namizədləri qeydə alınmiş siyasi partiyalara, siyasi partiyaların bloklarına müqavilə əsasında pullu efir vaxtı və dövri nəşrlərin redaksiyaları öz səhifələrində ödənişli əsaslarla yer ayırmalıdırlar.Bu zaman ayrılan pullu efir vaxtının ümumi həcmi ayrılan pulsuz efir vaxtının ümumi həcmindən az və həmin həcmdən iki dəfədən artıq ola bilməz, nəşr səhifələrində ödənişli dərc üçün ayrılmış yerin ümumi həcmi isə ayrılan pulsuz nəşr səhifələrinin həcmindən az olmamalıdır.

Teleradio təşkilatlarında və dövri nəşrlərdə ödənişli əsaslarla aparılan təşviqatın vaxtı seçkiqabağı təşviqat subyektləri arasında onların verdikləri bildiriş əsasında teleradio təşkilatları və dövri nəşrlərin redaksiyaları tərəfindən keçirilən püşkatma nəticəsində müəyyənləşdirilir.

Seçkiqabağı təşviqat materiallarının efirə verilmə və ya dərc olunma şərtləri bütün namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları üçün eyni olmalıdır.

Püşkatma keçirildikdən sonra efir vaxtı və dövri nəşrlərdə dərc üçün yer bağlanmış müqavilə əsasında təqdim edilir. Müqavilədə seçkiqabağı təşviqatın forması, efiröçıxma vaxtı və tarixi, dərcetmə tarixi, verilən efir vaxtının müddəti, dərc üçün ayrılan yerin həcmi, ödənişin qaydası və həcmi, aparıcı jurnalistin teleradio verilişləri prosesində iştirak forması və şərtləri nəzərdə tutulmalıdır.

Efir vaxtının haqqı və dövri nəşr səhifələrində ayrılmış yerin dəyəri yalnız qeydə alınmış namizədlərin xüsusi seçki fondu hesabına ödənilməlidir.

Püşkatma keçirildikdən sonra ayrılmış efir vaxtından və dövri nəşrlərin səhifələrindəki yerdən imtina edilərsə, bu barədə efirə çıxmağa 2 gün qalmış müvafiq teleradio təşkilatına, dərcetmə gününə isə azı 5 gün qalmış müvafiq dövri nəşrin redaksiyasına məlumat verilməlidir.Teleradio təşkilatları və dövri nəşrlərin redaksiyaları sərbəstləşdirilmiş efir vaxtından və yerdən seçkiqabağı təşviqat məqsədləri üçün istifadə edə bilməzlər.

Kütləvi informasiya vasitələrində seçkiqabağı təşviqat aparılarkən təşviqat materiallarının verilməsini malların, xidmətlərin reklamları ilə və ya digər teleradio proqramlarının verilməsi ilə dayandırmaq qadağandır.

Kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqat yığıncaqlar, vətəndaşlarla görüşlər, kütləvi müzakirələr, söhbətlər və s.formalarda aparılır.

Dövlət orqanları, bələdiyyə qurumları qeydə alınmış namizədə, siyasi partiyalara, siyasi partiyalar bloklarına vətəndaşlarla görüşlər, açıq müzakirələr təşkil edilməsində və keçirilməsində kömək etməlidirlər.

Dövlət və ya bələdiyyə mülkiyyətində olan, seçkiqabağı tədbirlərin keçirilməsi üçün yararlı yer (bina, otaq) seçki komissiyalarının sifarişi ilə seçkiqabağı təşviqat subyektlərinin seçki komissiyaları ilə razılaşdırdıqları vaxtda seçicilərlə görüşlər üçün istifadəyə mülkiyyətçilər tərəfindən pulsuz verilir. Göstərilən yer qeydə alınmış namizədlərdən birinə, siyasi partiyaya, siyasi partiyalar blokuna seçkiqabağı təşviqatın aparılması üçün verilmişsə, mülkiyyətçi digər namizədə, siyasi partiyaya, siyasi partiyalar blokuna eyni istifadə şərtləri ilə həmin yeri verməkdən imtina edə bilməz.

Seçicilərlə görüşlər, yığıncaqlar, digər seçkiqabağı kütləvi tədbirlər keçirmək üçün qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları mülkiyyət formasından asılı olmayaraq, vətəndaşlara və təşkilatlara məxsus bina və otaqları müqavilə əsasında icarəyə götürmək hüququna malikdirlər.

Dövlətin müvafiq reyestlərinə daxil edilmiş, mədəniyyət obyektləri sayılan bina və avadanlıq təşviqat məqsədləri üçün istifadə edilə bilməz.

Seçki komissiyaları qeydə alınmış namizədlərə, siyasi partiyalara, siyasi partiyaların bloklarına seçkiqabağı kütləvi tədbirlər keçirmək üçün bərabər şərait yaradırlar, müvafiq icra hakimiyyəti orqanları isə həmin kütləvi tədbirlərin keçirilməsində təhlükəsizliyi və ictimai asayişi qanunvericiliyə uyğun olaraq təmin edirlər.

Çap, audiovizual və digər seçkiqabağı təşviqat materialları buraxmaq (qanunla müəyyənləşdirilmiş qaydada) hüququndan istifadə etməklə də qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları seçkiqabağı təşviqat apara bilərlər.

Seçkiqabağı çap və audiovizual təşviqat materiallarında bu materialları hazırlayan və hazırlanmasını sifariş edən təşkilatların adı, materialların tirajı və buraxılış tarixi barədə məlumat olmalıdır.

Qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyalar blokları çap olunan seçkiqabağı təşviqat materialları haqqında tam məlumatları və ya onların surətlərini, habelə bu materialları sifariş edən və hazırlayan təşkilatların ünvanları barədə məlumatları müvafiq seçki komissiyasına təqdim etməlidirlər.

Dairə seçki komissiyalarının təklifi ilə yerli icra hakimiyyəti orqanları və bələdiyyə qurumları səsvermə gününə azı 30 gün qalmış hər bir seçki məntəqəsinin ərazisində təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün yer müəyyənləşdirməlidirlər. Həmin yerlər elə olmalıdır ki, seçicilərin gəlməsi üçün əlverişli olsun və orada yerləşdirilən məlumatları oxumaq mümkünləşsin.

Səsvermə üçün ayrılmış otaqlarda və ya onların girişində, dövlətin müvafiq reyestrinə daxil edilmiş tarix və mədəniyyət abidələri sayılan binalarda, qurğularda və otaqlarda seçkiqabağı təşviqat materialları yerləşdirilə bilməz.

Seçkiqabağı təşviqat zamanı təşviqat aparmaq hüququna malik olan subyektlər tərəfindən təşkilati işlərin yerinə yetirilməsi məqsədi istisna olmaqla, seçicilərə pul vəsaiti, maddi sərvət, qiymətli kağızlar, hədiyyələr vermək və onları qeyri-qanuni hərəkətlər yolu ilə öz tərəfinə çəkmək, dövlət və bələdiyyə mülkiyyətində olan nəqliyyat vasitələrindən pulsuz istifadə etmək, dövlət orqanlarının və bələdiyyə qurumlarının fəaliyyətini təmin edən rabitə və informasiya vasitələrindən istifadə etmək, xeyriyyə fəaliyyəti ilə məşğul olmaq, seçicilərə mükafat və bəxşiş təklif etmək, onları cəza ilə hədələmək, təzyiq göstərmək və digər qanunazidd üsullarla səsvermməyə və ya səsvermədən çəkinməyə sövq etmək, digər qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının təşviqat kampaniyalarına müdaxilə etmək və pozmaq, onların seçkiqabağı təşviqat materiallarının yayılmasına mane olmaq, təşviqat plakatlarını və digər təşviqat materiallarını məhv etmək və korlamaq yolverilməzdir.

Hakimiyyətin zorla ələ keçirilməsinə, konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və dövlətin ərazi bütövlüyünün pozulmasına çağırışlar, vətəndaşların şərəf və ləyaqətini təhqir edən mülahizələr, sosial, irqi, milli, dini nifrət və düşmənçilik yaradan, əqli mülkiyyət haqqında qanunvericiliyi pozan təşviqatın aparılması qadağandır.

"Reklam haqqında" qanunun tələblərinə uyğun olaraq teleradio verilişləri təşkilatlarında seçkiqabağı təşviqat materiallarının yayımlanması zamanı ayrı-ayrı fiziki şəxslərin, kommersiya və ya qeyri-kommersiya təşkilatlarının sahibkarlıq fəaliyyəti nəticəsində istehsal olunmuş əmtəələrin markalarının (modellərinin, artikullarının), kommersiya təşkilatlarının və sahibkarlıqla məşqul olan fiziki şəxslərin adlarının göstərilməsi yolverilməzdir.

Seçkiqabağı təşviqat aparmaq üçün şərait yaratmış teleradio verilişləri təşkilatları və dövri nəşrlər, eləcə də seçkiqabağı təşviqatın digər subyekləri müqavilə ilə öz üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirməyə borcludurlar.

Efir vaxtından və dövri nəşrlərdən istifadə zamanı təşviqat prosesinin subyekləri müqavilədə müəyyənləşdirilmiş şərtləri pozduqda teleradio verilişləri təşkilatları efir vaxtının verilməsi və dövri nəşrlər isə dərc üçün yerin ayrılması haqqında müqavilənin ləğvi barədə məhkəməyə müraciət edə bilərlər.

Seçki Məcəlləsi ilə seçkiqabağı təşviqat üçün müəyyən edilmiş qaydalara teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyalrı tərəfindən riayət edilməsinə nəzarəti Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış və əsasən jurnalistlərdən ibarət olan mətbuat qrupu həyata keçirir.

Qabil ORUCOV,
Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü

Azərbaycanın son 15 illik uğurlu göstəricilərindən biri bölgələrimizin inkişaf yoluna çıxarılmasıdır. Həyata keçirilən dövlət proqramları, məqsədyönlü tədbirlər nəticəsində şəhər və rayonların iqtisadi potensialı hərəkətə gətirilib. Hər ötən il iqtisadi artımla başa çatıb, əhalinin yaşayış səviyyəsi yüksəlib, geniş abadlıq və quruculuq işləri aparılıb. Bölgələrin inkişafı həm də qeyri-neft sektorunun hesabına təmin edilib. Bu sırada dağlar diyarı olan Daşkəsəndə əldə olunan nailiyyətlər təqdir olunmağa layiqdir. Öz yüksəlişi ilə Daşkəsən ümumən ölkəmizin inkişafına layiqli töhfələrini verməkdədir.



Daşkəsən prezident seçkilərinə böyük nailiyyətlərlə qədəm qoyur

Qürur doğuran yüksəliş nümunəsi

Daşkəsən Azərbaycan SSR-də inzibati rayon kimi 1930-cu ildə təşkil edilib. Ərazisi 1046 kvadratkilometr, əhalisi 35 min nəfərə yaxındır. Rayonda 1 şəhər, 5 qəsəbə və 43 kənd var. Hinaldağdan və Qoşqar dağından məğrurluqla boylanan uca qarlı zirvələri, bumbuz və gur sulu çayları, təmiz və saf havası, yaşıllığa bürünən dilbər gözəlliyi, ümumiyyətlə, ilin bütün fəsillərində təbiətinin əsrarəngiz mənzərəsi ilə insanın ruhunu oxşayan Daşkəsən rayonunun inkişafı doğrudan da qürurvericidir. Düşmənin qarşısında hər zaman mətinliklə dayanan, uca dağları, sıldırımlı qayaları ilə alınmaz qalaya çevrilən Daşkəsən son illər həm də quruculuq meydanına çevrilib. Bu gün Daşkəsənə ayaq basan hər kəs elə ilk addımda rayonun keçdiyi inkişaf yolunun, quruculuğun və abadlığın şahidi olur.

Rayonda son illərdə geniş vüsət almış yenidənqurma və abadlıq işləri Daşkəsən şəhərinin timsalında aydın görünür. Şəhərin kanalizasiya sistemi, küçələrin işıqlandırılması yenidən qurulub, bütün yaşayış binalarında bərpa-gücləndirmə işləri aparılıb. Bayraq meydanı yaradılıb.

Bu gün Daşkəsənin yaşayış məntəqələrinə təbii qazın verilməsi, heç vaxt şose yolunun olmadığı kəndlərə asfalt yolun çəkilməsi, dağ çaylarının üzərində körpülərin salınması əsl inkişaf və yüksəliş nümunələridir. Halbuki 70 illik sovet hakimiyyəti illərində bunların heç biri edilməmişdi. Təkcə son bir neçə ildə rayon ərazisində olduqca mühüm layihələr həyata keçirilib, möhtəşəm tikililərin təməli qoyularaq uğurla başa çatdırılıb. İstifadəyə verilən və yenidən qurulan səhiyyə və təhsil müəssisələri, uşaq bağçaları, yollar, yol ötürücüləri, idman qurğuları, parklar, inzibati binalar rayonun simasını tamamilə dəyişib. Bu dövrdə həm ayrı-ayrı dövlət proqramlarından, həm yaradılmış azad sahibkarlıq mühitindən irəli gələrək rayonda çoxsaylı xidmət və istehsal sahələri fəaliyyətə başlayıb.

Daşkəsəndə Azərbaycanın müstəqilliyinin təmin olunmasında, dövlətçiliyimizin möhkəm əsaslar üzərində qurulmasında və respublikamızın inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsi də əbədiləşdirilib. Ümummilli liderin adını daşıyan park daşkəsənlilərin sevimli istirahət yerlərindəndir. Daşkəsən şəhərinin mərkəzində isə ulu öndərin abidəsi ucaldılıb.

2017-ci il də inkişaf göstəriciləri ilə başa çatdı

Daşkəsən rayonunda 2017-ci ildə yüksək nailiyyətlər əldə olunub. Belə ki, rayon iqtisadiyyatının əsas sahələrində istehsal olunmuş ümumi məhsul buraxılışının həcmi əvvəlki ilə nisbətən xeyli artıb. Bu dövrdə rayonda 35 milyon 212 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub ki, bu da ötən illə müqayisədə 5,2 faiz çoxdur. İl ərzində 3 milyon 112 min manatlıq (3,4 faiz çox) nəqliyyat xidmətləri, 21 milyon 824 min manatlıq (6 faiz çox) ticarət və ictimai iaşə xidmətləri göstərilib. Hesabat ilində rayonda ümumi məhsul buraxılışında qeyri-dövlət sektorunun xüsusi çəkisi 95 faiz təşkil edib.

2017-ci ildə rayonda müxtəlif sahələrə 12 sahibkar (4 hüquqi, 8 fiziki sahibkar) tərəfindən özəl investisiya qoyulmaqla ümumi dəyəri 1 milyon 885,7 min manat olan layihələrin həyata keçirilməsi üçün 885,7 min manat investisiya yatırılıb. Daşkəsən Rayon İcra Hakimiyyətinin rəhbərliyi rayon ərazisində daha çox özəl investisiyanın cəlb olunması üçün aidiyyəti üzrə müvafiq işlər aparır və həmin işlərin icra vəziyyəti daim nəzarətdə saxlanılır. Bu barədə qəzetimizə danışan rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev bildirdi: "Rayonumuza investisiya cəlb olunması məqsədilə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, sənaye, energetika, tikinti, ticarət, nəqliyyat, telekommunikasiya və poçt, maliyyə və bank, turizm və digər xidmət sahələri üzrə mövcud vəziyyət, məlumatlar kütləvi informasiya vasitələri ilə hərtərəfli təşviq olunur. İş adamları və aidiyyəti qurumlarla birgə investisiyaların qoyulması, müvafiq layihələrin işlənib hazırlanması məsələləri geniş təhlil edilib və tətbiq olunması daha məqsədəuyğun olan təkliflər müəyyənləşdirilib. İnvestisiya qoymaq istəyən hüquqi və fiziki şəxslərə lazımi kömək göstərilməklə əlverişli şərait yaradılıb, bu sahədə bir sıra layihələr həyata keçirilib".

Ötən il rayonda sənaye müəssisələrində çalışan bir işçiyə düşən orta aylıq nominal əməkhaqqı 363,9 manat, dövlət mülkiyyətində 375,5 manat, qeyri-dövlət mülkiyyətində isə 184,3 manat təşkil edib. İl ərzində rayonda müxtəlif qurumlarda olan 151 müvəqqəti iş yerləri saxlanılaraq vaxtı uzadılıb və əlavə 49 yeni iş yeri açılıb. Rayonun büdcəsinin icrası isə gəlirlər üzrə 100,2, xərclər üzrə 94,1 faiz yerinə yetirilib.

Kənd təsərrüfatına gəldikdə isə, qeyd olunduğu kimi, bu sahədə hər il artım əldə olunur. Xatırladaq ki, əkin sahələrinin becərilməsinə sərf olunan yanacaq və motor yağlarına görə dövlət tərəfindən buğda üçün hər hektar əkin sahəsinə 90, digər əkinlər üçün isə 50 manat olmaqla 2017-ci il ərzində aparılmış əkinlərlə bağlı rayon üzrə 20 nəfərə 407 hektar əkin üçün 35178 manat məbləğində subsidiya verilib. Bunun nəticəsi olaraq 2017-ci ildə rayonda 713 hektar sahədə buğda əkilib və 1568,6 ton məhsul istehsal olunub. 61 hektar sahədə isə arpa əkilib və 156,6 ton məhsul yığılıb. Bundan başqa, 1308,4 hektar sahədə kartof, 83 hektar sahədə kələm, 66,4 hektar sahədə lobya və 4 hektar sahədə qarğıdalı əkilib. Bu sahələrdən 13087 ton kartof, 1445 ton kələm, 17,4 ton tərəvəz lobyası və 15,2 ton qarğıdalı bitkiləri yığılıb.

Abadlıq və quruculuq işləri davamlıdır

2017-ci ildə rayon ərazisində bir sıra tikinti, təmir-bərpa, yenidənqurma, abadlıq-quruculuq işləri görülmüşdür və hazırda bəzi sahələr üzrə həmin işlər davam etdirilməkdədir. Ötən il ərzində Daşkəsən şəhərində yeni hotel istifadəyə verilib, rayon məhkəməsinin inzibati binası əsaslı təmir olunub, Dövlət Notariat Kontoru və rayon qeydiyyat şöbəsi yeni binaya köçürülüb, kənd təsərrüfatı idarəsinin inzibati binasının tikintisi başa çatdırılıb. Daşkəsən Rayon Mərkəzi Xəstəxanasının binasında əsaslı, Qabaqtəpə kənd xəstəxanasında və Xoşbulaq həkim məntəqəsində isə cari təmir işləri aparılıb, Bayan kənd tam orta məktəbinin dam örtüyü yenisi ilə əvəz olunub. Güneykənd kəndində 56 şagirdlik modul tipli yeni məktəb binasının tikintisi başa çatdırılıb, Şahvələdli kəndində isə 23 şagirdlik modul tipli yeni məktəb binasının tikintisi davam etdirilir. Bayan kənd tam orta məktəbin dam örtüyü yenisi ilə əvəz olunub, Quşçu kənd uşaq bağçası təmir edilib.

Daşkəsən şəhərində 9 çoxmərtəbəli yaşayış binası əsaslı təmir olunub, şəhərin əsas meydan və küçələrinə yeni asfalt örtüyü salınıb. Bu il isə daha 7 çoxmərtəbəli yaşayış binası əsaslı təmir olunacaq. Şəhərin küçələrindəki istinad divarlarında, səkilərdə də təmir işləri aparılıb və hazırda həmin işlər davam etdirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında Daşkəsən şəhərində, Daşkəsən qəsəbəsində və Qabaqtəpə və Dəvrallı kəndlərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 4 fərdi yaşayış evinin və Fövqəladə Hallar Nazirliyinin xətti ilə Alunitdağ və Yuxarı Daşkəsən qəsəbələrində və Quşçu kəndində evləri qəza vəziyyətində olan vətəndaşlar üçün 3 fərdi yaşayış evinin tikintisinə başlanılıb. Daşkəsən şəhərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün yeni 36 mənzilli yaşayış binasının tikintisi üçün torpaq sahəsi ayrılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi ilə həmin binanın tikintisinə başlanılacaq.

Azərbaycan hökuməti ilə İslam İnkişaf Bankı tərəfindən maliyyələşən "Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsində son tamamlama işləri yerinə yetirilir. Artıq Daşkəsən şəhərinin bir hissəsi ekoloji cəhətdən təmiz və fasiləsiz içməli su ilə təmin olunur. Həmçinin Yaponiyanın Azərbaycandakı səfirliyinin qrantı hesabına "Yuxarı Daşkəsən qəsəbəsində İçməli Su Təchizatının Yaxşılaşdırılması" layihəsinin həyata keçirilməsi başa çatdırılıb və 26 iyul 2017-ci il tarixdə açılışı olub.

"Yeni Daşkəsən" layihəsi uğurla reallaşır

Daşkəsən rayonunun iqtisadi potensialı böyükdür. "Yeni Daşkəsən" layihəsi isə bu iqtisadi potensialın tam hərəkətə gətirilməsi məramına xidmət edir. Bu layihə rayon ictimaiyyətinin razılığı ilə qarşılanıb, bəyənilir və dəstəklənir. 53 bənddən ibarət olan "Yeni Daşkəsən" layihəsi elmi əsaslarla işlənib hazırlanıb. Bu proqram xarakterli mükəmməl layihə aidiyyəti üzrə nazirliklərə göndərilib, müsbət rəylər alınıb, layihənin həyata keçirilməsi üçün hələ 2013-cü ildən müvafiq tapşırıqlar verməklə bu məsələlərin həll olunması işlərinə başlanılıb.

"Yeni Daşkəsən" layihəsində rayonun hərtərəfli sosial-iqtisadi yüksəlişi, ayrı-ayrı sektorların - heyvandarlığın, arıçılığın, kartofçuluğun, toxumçuluğun, həmçinin turizmin inkişafı, yeni inzibati binaların, korpusların inşası, su, qaz, elektrik təchizatı, yol və körpülərin salınması məsələsi, ən əsası isə yeni iş yerlərinin açılıb işsizliyin aradan qaldırılması, sahibkarlara geniş fəaliyyətləri üçün münbit şəraitin yaradılması, o cümlədən Daşkəsən rayonunun "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin bazasında yaradılması əsas götürülərək "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin, eləcə də "Alunit" İstehsalat Sahəsinin yenidən işləməsinin müasir səviyyədə təmin olunması layihədə əsas vəzifə kimi qarşıya qoyulub.

"Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin və "Alunit" İstehsalat Sahəsinin texniki avadanlıqlarla təchiz edilərək müasir formada işə salınması həm rayonda işsizliyin aradan qaldırılmasına, həm cəbhə boyu zonada, ermənilərlə təmas xəttində yerləşən Daşkəsən rayon sakinlərinin daimi işlə təmin olunmasına hərtərəfli şərait yaradacaq, həm də bəzi problemli məsələlər tam öz həllini taparaq Daşkəsən rayonunu regionda inkişaf etmiş pilot bir rayona çevirəcək.

"Yeni Daşkəsən" layihəsində "Çovdar" qızıl zavodunun işə salınması məsələsi də əsas vəzifə kimi qarşıya qoyulmuşdu. Qısa müddət ərzində "Çovdar" qızıl yatağının müasir texnologiyalarla istismarının təşkil edilməsi, zavodun işə salınması üçün müvafiq hazırlıq işləri tam başa çatdırıldı və zavod müasir texnologiyalar əsasında tikildi. Artıq 2017-ci ildə 140 milyon dollarlıq qızıl satılıb.

Daşkəsənlilər seçkidə də fəal olacaqlar

Dünən Daşkəsən şəhərində keçirilən Novruz şənliyi də rayonun iqtisadi uğurları fonunda olduqca xoş əhvali-ruhiyyədə başa çatdı. El şənliyində çıxış edən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev dedi: "Gündən-günə güclənən və müasirləşən Azərbaycan daha bir Novruz bayramını əmin-amanlıq, sabitlik, təhlükəsizlik və yüksək sosial rifah şəraitində keçirir. Ölkəmizdə həyata keçirilən siyasət nəticəsində dövlətimizin qüdrətinin artmasında qürur və iftixar hissi duyan hər bir azərbaycanlı və Azərbaycan ailəsi Novruz bayramını böyük sevinc hissi ilə qeyd edir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın apardığı məqsədyönlü iş nəticəsində Novruz UNESCO-nun Qeyri-maddi Mədəni İrs Siyahısına salınıb, BMT Baş Məclisi isə bütün dünyada martın 21-ni Beynəlxalq Novruz Günü elan edib. Bu möhtəşəm bayram ölkəmizin müxtəlif bölgələrində özünəməxsus şəkildə və təmtəraqla keçirilir. Daşkəsən rayonunda da Novruz bayramı böyük ruh yüksəkliyi ilə qeyd olunmaqdadır. Biz el bayramını əmin-amanlıq şəraitində qeyd ediriksə, bu, ölkədə həyata keçirilən uğurlu siyasətin nəticəsidir".

Qarşıdan prezident seçkiləri gəlir. İnkişafının yeni mərhələsini yaşayan Daşkəsən rayonunun seçicilərinin ötənlərdə olduğu kimi, qarşıdan gələn prezident seçkilərində də fəal iştirak edəcəklərinə əmin olduğunu bildirən Əhəd Abıyev onları ən layiqli namizədə səs verməyə çağırdı.

Uca dağlar qoynunda yerləşməsinə baxmayaraq, Daşkəsən rayonunda seçkinin yüksək səviyyədə təşkili və vətəndaşların seçkilərdə iştirakı üçün hər cür şərait yaradılıb. Rayon ərazisində bütün seçki məntəqələrinin seçicilərin gediş-gəlişi üçün əlverişli binalarda yerləşdirilməsi təmin olunub. Hər bir seçki isə Daşkəsən rayonunda mütəşəkkil baş tutması ilə yadda qalıb. Rayon sakinləri hər bir seçkidə layiqli namizədləri dəstəkləyiblər. Qarşıdan gələn seçkilərdə də daşkəsənlilər inkişafa və sabitliyə səs verəcəklər.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"

VI Qlobal Bakı Forumu

VI Qlobal Bakı Forumu çərçivəsində Beynəlxalq Kitab Sammiti keçirilib

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin (NGBM) təşkilatçılığı ilə keçirilən VI Qlobal Bakı Forumu çərçivəsində martın 18-də 7-ci Beynəlxalq Kitab Sammiti təşkil olunub. AZƏRTAC xəbər verir ki, milli inkişafda, mədəni irsin qorunmasında və gələcək nəsillərə ötürülməsində, gələcəyin formalaşmasında kitabın əhəmiyyəti, eləcə də milli kitabxanaların rolu, kitabxanaların gələcəyi mövzusuna həsr olunan sammitin açılış sessiyası Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **İsmayıl Seragəldinin** moderatorluğu ilə keçib. Sessiyada çıxış edən Latviyanın sabiq Prezidenti **Vayra Vike-Frayberqa** yazılı nitqin yaranmasından, kitab çapının tarixindən danışıb.

Rumıniya ilə Azərbaycanın milli kitabxanaları arasındakı əməkdaşlıqdan bəhs edən Rumıniya Baş nazirinin müavini **Ana Birçall** tezliklə ölkəsində Azərbaycan Mərkəzinin açılacağını bildirib. O, həmçinin gənclərə kitab sevgisinin aşılanmasının vacibliyini vurğulayıb.

Xorvatiyanın sabiq Prezidenti **İvo Yosipoviç** elektron kitabların müasir insanların həyatındakı rolundan bəhs edib. O, gəncliyində kitaba olan münasibəti indiki dövrlə müqayisə edib, eyni zamanda, kitabxanaların müasir standartlara cavab verməsinin vacibliyini vurğulayıb.

Latviyanın sabiq Prezidenti **Valdes Zatlers** ölkəsinin kitab, bilik təcrübəsinin tarixindən danışıb. Sovet dövründə kitab senzurasından və müəyyən kitabları müzakirə etməyin çətinliyindən bəhs edən keçmiş prezident ölkəsində uşaqlar və gənclər arasında kitaboxuma ənənəsinin olduğunu bildirib.

Makedoniya Respublikasının Prezidenti **George İvanov** ideyalar, fikirlərlə kitabların yaxın əlaqəsindən danışıb. Tarixin müəyyən dövrlərində kitabların yandırılması faktına toxunan Prezident bildirib ki, kitablar yandırıla bilər, amma ideyalar, fikirlər yox.

Kitabxana Assosiasiyaları və İnstitutları Beynəlxalq Federasiyasının sabiq prezidenti **İnqrid Parent** kitabxanaların rolundan danışıb. O, kitabların insanlara daha sekulyar, daha humanist olmasında kömək etdiyini bildirib. Kitabların məlumat daşıyıcısı olduğunu vurğulayan İ.Parent kitabxanaların problemləri, onların həlli yollarından da bəhs edib.

Rumıniyanın sabiq Prezidenti **Emil Konstantinesku** tarix boyu kitabların məhv edilməsini xatırladaraq, nasistlər, həmçinin sovetlər dövründə kitablara qarşı bu əməllərin həyata keçirildiyini deyib. O, kitabın çox şeyi dəyişmək gücündə olduğunu, nəsillər arasında dialoq yaratdığını vurğulayıb.

Beynəlxalq Kitab Sammiti açılış sessiyasından sonra panel müzakirələrlə davam edib.

Kitabxana Assosiasiyaları və İnstitutları Beynəlxalq Federasiyasının sabiq prezidenti **İnqrid Parentin** moderatorluğu ilə "Kitab və mədəni irsimizin qorunması" mövzusunda keçirilən sessiyada Konqres Kitabxanasından **Mary Jan Deeb** kitabın bəşəriyyətin irsi olduğunu deyib. Konqres Kitabxanasının bu istiqamətdə gördüyü işlərə toxunan Mary Jan Deeb dünyada baş verən müharibələrin kitabxanaların fəaliyyətinə təsirini vurğulayıb. Xüsusilə də İraqdakı müharibə nəticəsində xeyli sayda kitabxananın zərər çəkdiyini bildirib. O həmçinin təbii fəlakətlərin kitabxanalar üçün acı nəticələrindən danışıb. Natiq müasir kitabxanaların hazırkı problemlərinə toxunub, kitabxanaların bərpası və tikintisinin əhəmiyyətini vurğulayıb. Mary Jan Deeb Əfqanıstandakı kitabxanaların vəziyyətinin yaxşılaşdırılması və lazımi avadanlıqlarla təchiz edilməsi istiqamətində Konqres Kitabxanasının həyata keçirdiyi işləri qeyd edib, bütün ölkələrdəki kitabxanaların qorunub saxlanılmasına dəstək göstərdiklərini bildirib.

İnternet arxivinin təsisçisi **Briyuster Kahle** rəqəmsal kitabxana materiallarının toplanması və qorunub saxlanılması üçün gördükləri işlərdən bəhs edib. B.Kahle dünya kitabxanalarındakı kitabların hamısının tamamilə rəqəmsallaşdırılmadığı üçün həmin kitabxanalara girişin olmamasının hələ də əsas problemlərdən olduğunu bildirib. O, rəqəmsal oxucularla işləməyin vacibliyini, müəllif hüquqları məsələsinin nəzarətdə saxlanılmalı olduğunu deyib.

Dünya Bankının keçmiş baş məsləhətçisi **Nadere Çamlo** dahi Azərbaycan şairi Nizami Gəncəvinin fikirlərinə əsaslanaraq deyib ki, bilik hər kəsə açıq olmalıdır. Cəmiyyətin əsas iştirakçısı olan qadınların təhsil almaları və kitabların ötürülməsindəki rolundan danışıb. Nadere Çamlo ümid etdiyini bildirib ki, gələcəkdə qadınlar daha çox kitab oxuyacaq, tərcümə edəcək və onları gələcək nəsillərə ötürəcəklər.

Qeyd edək ki, Beynəlxalq Kitab Sammitinin məqsədi milli-mədəni kimliyin və insan sivilizasiyasının qorunmasında kitabın və kitabxanaların rolunu vurğulamaqdır. Sammit ABŞ Konqres Kitabxanası və Misirin İsgəndəriyyə Kitabxanasının birgə təşəbbüsü ilə 2012-ci ildən keçirilir. İsmayıl Seragəldinin təşəbbüsü ilə I Beynəlxalq Kitab Sammitində Azərbaycanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzi təmsil edib. Sammit Vaşinqton (2012), Sinqapur (2013), Paris (2014), İsgəndəriyyə (2015) kimi dünya mədəniyyətinə qlobal təsiri olan şəhərlərdə təşkil edilib.

VI Qlobal Bakı Forumunun iştirakçıları Milli Kitabxanada olmuşlar

Mart ayının 19-da VI Qlobal Bakı Forumunun iştirakçısı olan kitabxana işçiləri - İFLA-nın sabiq prezidentləri Klaudiya Lyuks və İnqrid Parent, ABŞ-ın Konqres Kitabxanasının Afrika və Orta Şərq bölməsinin müdiri Meri-Ceyn Dib, Bolqarıstan Milli Kitabxanasının direktoru Krasimira Aleksandrova, Bolqarıstan Milli Kitabxanasının Beynəlxalq əməkdaşlıq üzrə eksperti Mariya Karşiyska, İngiltərənin Lafboro Universitetinin əməkdar professoru Paul Sturges, Fransa Milli Kitabxanasından Gerald Qrunberq, Misirin İskəndəriyyə Kitabxanasının kitabxana sektorunun müdiri Lamiyə Abdülfəttah, İskəndəriyyə Kitabxansının əməkdaşı Raniya Kalavi, Afrika Kitabxana və İnformasiya Assosiasiyasının direktoru Joel Sam və digərləri Milli Kitabxanada olmuşlar.

Milli Kitabxananın direktoru professor Kərim Tahirov qonaqlara ətraflı məlumat vermişdir. Qonaqlar ilk öncə bir gün əvvəl qlobal forumun kitabxana işçiləri üçün panel iclasında təqdimatı keçirilən Milli Kitabxananın nəzdində fəaliyyət göstərən "Açıq Kitabxana"nı görmək istədiklərini bildirmişlər. Xidmət işləri üzrə direktor müavini Ə.İsmayılova qonaqlara mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin bilavasitə təşəbbüsü əsasında həyata keçirilən bu layihədən, burada oxuculara göstərilən elektron və onlayn xidmətlərdən, açıq səma altında tədbirlərdən-kitab təqdimatlarından, şeir gecələrindən, "imzalı görüşlər"dən, məktəbli uşaqlarla keçirilən tədbirlərdən danışmışdır. "Açıq Kitabxana"nı çox bəyənən qonaqlar bu layihənin çox kreativ, inniovativ əsaslı və əhəmiyyətli bir layihə olduğunu, onun həftənin 7 günü və günün 24 saatını fasiləsiz işlədiyini, hətta uşaqlar üçün də mütaliə guşəsinə çevrildiyinin əhəmiyyətini xüsusilə vurğulamışlar. Daha sonra qonaqlar kitabxananın Oxu zallarını, Nadir kitablar və kitabxana muzeyi şöbəsini, Kitab fondlarının mühafizəsi şöbəsini, Elektron kataloqun yaradılması, Elektron resursların yaradılması şöbələrini ziyarət etmiş, oxuculara kitab verilişi proseslərinin avtomatlaşdırılması işləri ilə və Milli Kitabxananın iş təcrübəsi ilə yaxından tanış olmuşlar. Qonaqlar Milli Kitabxananın Oxu zallarında oxucular üçün yaradılan şəraitdən çox məmnun olduqlarını bildirmiş və oxu zallarının işıqlandırma sistemini, kitabxananın elektron xidmətlərini, həmçinin kitab fondlarındakı mobil stellajları bəyəndiklərini xüsusilə vurğulamışlar. Konqres Kitabxanasında yenilənmə işlərinin həyata keçirildiyini qeyd edən Konqres Kitabxanasının Afrika və Orta Şərq bölməsinin müdiri Meri-Ceyn Dib Oxu zalında tələbə gənclər üçün yaradılan imkanları bəyəndiyini bildirmiş və bu təcrübələri Konqres Kitabxanasında mütləq həyata keçirəcəyini söyləmişdir.

Daha sonra qonaqlar kitabxana haqqında öz təəssüratlarını bölüşmüşlər. Professor Kərim Tahirov qonaqları maraqlandıran bütün sualları ətraflı şəkildə cavablandırmışdır. Sonda direktor Milli kitabxananın iş təcrübəsini yüksək qiymətləndirdiklərinə görə qonaqlara öz təşəkkürlərini bildirmiş və gələcəkdə bu kimi tədbirlərdə bir daha görüşəcəyinə ümid etdiyini söyləmişdir. Daha sonra qonaqların hər birinə "Milli kitabxana. Fotoalbom" (üç dildə: Azərbaycan, rus və ingilis dillərində), "Azərbaycan mətbəxi" kitabları, "Azərbaycan filmləri" (CD), Azərbaycan xəritəsi və Bakının simvolu olan Qız qalası suveniri hədiyyə edilmişdir.

"Azərbaycan"

Torpaq çərşənbəsi

Torpaq həyat mənbəyidir. Onun oyanmasını ulu əcdadlarımız ən şən, şux mərasimlər, nəğmələr, ayinlərlə qarşılamışlar. Xalq arasında belə bir inam olmuşdur ki, dörd ünsürdən sonuncusunun oyanması ilə Su, Atəş, Yel daha böyük güc alır, ərzin donunu dəyişir, adamları qıtlıqdan, çətinliklərdən qurtarmaqda özündə daha böyük qüvvə tapır. Elə bu inamla bağlı xalq arasında yayılmış əski bir mifoloji təsəvvürə görə adamların məhrumiyyət və kasıbçılıqdan əziyyət çəkdikləri bir gündə Su, Atəş və Yel Torpaq xatunun yeraltı məbədinə qonaq gəlirlər. Burada yatmış Torpaq xatunu oyadıb adamların aclıq və məhrumiyyətlər çəkdiklərini ona söyləyirlər. Torpaq xatun "adamları fəlakətə salan özü fəlakətə düşər" - deyə yerindən qalxır. Su, Atəş, Yel və Torpaq ə-lə verib:

Zəmzəm gəldi, Atəş gəldi, Yel gəldi,
Təzə ömür, təzə məhsul, il gəldi

- deyə oxuya-oxuya işıqlı dünyaya çıxırlar. Söyləyirlər ki, həmin gün ilin ən əziz günü olan Axır çərşənbə idi. Bu çərşənbə xalq arasında həm də "Yel çərşənbəsi", "Torpaq çərşənbəsi", "Çərşənbə-suri" adları ilə də tanınır. Axır çərşənbə digər çərşənbələrin mərasim, etiqad, oyun və şənliklərlə ən zəngin olanıdır. Burada bütün ayinlər kütləvi xalq şənlikləri kimi qeyd olunar və özünəməxsusluqları ilə seçilərdi. Adamlar su üstünə çıxar, sudan atlanar, dərdini, arzusunu suya danışar, ondan imdad diləyərdilər. Xalqa qarşı ədalətsiz iş görənləri, nahaq qan tökənləri suya tapşırmaq xalq arasında geniş yayılmışdır. Üzərlik yandırılar, tonqallar alovlanar, bacalardan torbalar sallanar, qurşaq tutular, qulaq falları qurulardı.

Axır çərşənbədə yeni əkiləcək torpaq sahələrində kütləvi şənliklər keçirilərdi. Bir çox hallarda isə sayaçıların, cütçülərin nəğmələri, mərasimləri yada düşərdi. Torpaq əzizlənər, adamlar onu təmizləməyə çıxar, bostan və dirriklərdə müxtəlif ayinlər icra edilərdi. Odla bağlı şənliklər isə əsasən axşam tərəfi, qaş qaralanda başlar və tonqallar gecə yarıyadək davam edərdi.

Babalarımız arxayın idilər ki, torpağın bol, tükənməz nemətlərinə sahib olduğuna görə insan hər şeydən güclüdür, qüdrətlidir. Onun bərəkəti, gözəlliyi, zənginliyi insanın əlindədir. And içəndə deyirlər: "Torpaq haqqı", "Yer haqqı", "Torpağı sanı yaşayasan". Alqış söyləyəndə deyirdilər: "Torpağın həmişə gül bitirsin", "Torpağın bərəkətli olsun". Babalarımız arzulayırdılar: "Torpağa yalan satma, yerində yalan göyərər", "Torpaq qızıl quşdur, buraxdın, uçar gedər".

Onlar inanırdılar: "Torpağa əyilən namərdə əyilməz", "Torpağa var versən, o da sənə bar verər". Qarğış eləyəndə deyiblər: "Torpağına göz dikənin gözü tökülsün", "Torpağında qara yellər əssin", "Torpaq başına tökülsün".

Ulularımız vətənə, torpağa olan məhəbbətlərini yağı düşmənə nifrət hissi ilə bərabər yaşadıblar. "Torpaq uğrunda ölən varsa, vətəndir" - deyiblər.

Rəvayətdə deyilir ki, bir kişi hər il torpağı şumlar, əkib-biçib bol məhsul götürərmiş. Aylar, illər ötür, zaman öz işini görür. Kişi qocalıb gücdən düşür, gözlərinin nurunu itirir. Bir gün o, oğlunu yanına çağırıb deyir: "Bala, şum vaxtıdır, öküzləri hayla, xışa qoş, torpağımızı şumla".

Oğul atasının sözünə əməl edir. Səhəri gün yenə ata oğula torpağı şumlamağı tapşırır. Bu dəfə də o, öküzü, xışı götürüb öz işini yerinə yetirməyə gedir. Üçüncü gün də ata oğluna torpağı şumlatdırır. Dördüncü dəfə də bu işi görməyi oğluna tapşıranda o, "yaxşı" deyir, amma torpağı şumlamır. Ffikirləşir ki, onsuz da atamın gözləri görmür. Haradan biləcək, mən torpağı üç, ya dörd dəfə şumlamışam.

Torpaq əkib-becərilir. Biçin vaxtı yetişir. O kəhrəba kimi sarı buğdanı biçib dərzləyir. Bu vaxt ata oğluna deyir: "Bala, məni tarlaya apar". Oğlan atasının əlindən tutub dərzlərin yanına gətirir. Ata əlindəki əsanı qarşıya uzadır, dərzə dəyir. Sol tərəfi uzadır, yenə dərzə dəyir. Əsa sağda da dərzə toxunur. Kişi əsası ilə arxasını nə qədər axtarsa da, görür ki, boşdur. Deyir: "Ay oğul, nə üçün torpağı dörd yox, üç dəfə şumlamısan? Əgər bu işi dörd dəfə görsəydin, indi dərzlərin də sayı üç yox, dörd olardı".

Budur, torpaq həqiqəti! Torpaq əbəs yerə demir: "Öldür məni, dirildim səni".

İlin axır çərşənbəsi ən əziz günlərdəndir. Xalq arasında onunla bağlı çoxlu bədii nümunələr yaşamaqdadır. Novruz torpağın oyanması, yeni əkin mövsümünün başlanması ilə səciyyələnir. Torpaqdan əvvəl oyanan Su, Od və Yelin başlıca məqsədi torpağı oyatmaqdır.

Axır çərşənbəniz mübarək!

Hazırladı:
İ.ƏLİYEVA,
"Azərbaycan"

21 mart Beynəlxalq Meşələr Günüdür

Azərbaycanda meşələrin qorunması və bərpası istiqamətində görülən işlər bir çox ölkələrə nümunədir

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 2012-ci ildə martın 21-ni Beynəlxalq Meşələr (meşə və ağaclar) Günü elan edib. Bu tarixi gün respublikamızda da təntənə ilə qeyd olunur, bütün meşə tiplərinin ekoloji vacibliyi, onların qorunması və artırılması gündəmə gətirilir. Xatırladaq ki, dünya üzrə meşə örtüyünün sahəsi 4 milyard hektardır. Bunun 809 milyon hektarı Rusiya Federasiyasının, 478 milyon hektarı Braziliyanın, 310 milyon hektarı Kanadanın və 303 milyon hektarı ABŞ-ın payına düşür. Son 200 ildə dünya üzrə meşə ərazilərinin sahəsi iki dəfədən çox azalıb.

Azərbaycanda meşələrin ümumi sahəsi 1021 min hektardır. Bu da respublika ərazisinin 11,8 faizini təşkil edir. Ölkəmizin meşə ehtiyatının 49 faizi Böyük Qafqaz, 34 faizi Kiçik Qafqaz, 15 faizi Talış və 2 faizi Aran zonasının (Naxçıvan MR ilə birlikdə) payına düşür. Azərbaycanda adambaşına düşən meşə sahəsi 0,12 hektardır. 261 min hektar meşə fondu sahəsi Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilib.

"İnsan təbiətdən öyrənir, onun vasitəsi ilə pərvəriş tapır, ağıla dolur, zənginləşir, təzələnir, təmizlənir" kimi müdrik fikri ifadə edən böyük dövlətçilik təcrübəsinə malik, dünya şöhrətli siyasətçi Heydər Əliyev respublikaya rəhbətliyinin hər iki dövründə Azərbaycan meşələrinin qorunmasını və inkişafını, ekoloji problemlərinin həllini daim diqqətdə saxlamışdır. Ötən əsrin 70-80-ci illərində ulu öndərin tövsiyəsilə bölgələrin mavi yanacaqla təmin edilməsi və yeni su-elektrik stansiyalarının yaradılması meşələrə əlibaltalı hücumların qarşısının alınmasında mühüm rol oynamışdır. Təbii ehtiyatlardan səmərəli istifadə, meşə-bərpa işləri, salınan min hektarlarla meşə massivləri, milli parklar, qoruqlar, digər yaşıllıqlar və təbiət yasaqlıqları, yaradılan dəryaçalar, nəhəng su anbarları, süni göllər, əlavə meşə ərazilərinin və yaşıllıq zolaqlarının salınması meşəçiliyin inkişafına yüksək töhfələr vermişdir.

Görkəmli təbiətşünas alim, akademik Həsən Əliyev ötən əsrin ortalarında, hələ bugünkü informasiya-kommunikasiya texnologiyalarının mövcud olmadığı, texnogen proseslərin belə qlobal xarakter almadığı bir dövrdə özünün məşhur "Həyəcan təbili" kitabında yazırdı: "Həyatda dərsə də gecikmək olar, bazara da... Amma təbiətin fəryadına gecikmək böyük faciələr yaradar." Bu gün bəşəriyyəti düşündürən bu faciəvi problemlərdən bəlkə də birincisi ekoloji durumla bağlıdır. Bu problemlərin səbəbləri müxtəlif vasitələrlə dünyada meşələrin, yaşıllıqların məhv edilməsidir. Kütləvi qırıntılar nəticəsində meşələrimiz xeyli seyrəlmiş, bir çox nadir ağaclar azalmışdır. Ermənı işğalında olan min hektarlarla meşələrimiz isə ekoloji genosidə məruz qalmışdır. Dünya ictimaiyyətinə də yaxşı məlumdur ki, Azərbaycan torpaqlarının 20 faizə qədəri neçə illərdir Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Həmin ərazilərdə bitən 460 növdən çox yabanı ağac və kolun 70-i dünyanın heç bir yerində təbii halda bitmir. Qaracöhrə, ayıfındığı, Araz palıdı, yalanqoz, Şərq çınarı, meşə üzümü, Eldar şamı, adi xurma, söyüdyarpaq armud və s. növ ağaclar ermənilər tərəfindən məhv edilərək dünya florası xəzinəsindən silinmək üzrədir. Mühafizə olunan 890 min hektar təbiət ərazilərinin 42997 hektarı erməni işğalçılarının tapdağı altındadır. Dağlıq Qarabağ müharibəsi nəticəsində Azərbaycanın Bəsitçay Dövlət Təbiət Qoruğu, Arazboyu Dövlət Təbiət yasaqlığı, Qaragöl Dövlət Təbiət Qoruğu, Laçın rayon Dövlət Təbiət yasaqlığı, Qubadlı rayon Dövlət Təbiət yasaqlığı və Daşaltı Dövlət Təbiət yasaqlığının ərazilərində olan qiymətli ağac və biomüxtəlifliyin bütün növləri bu gün də talan edilir.

İşğal olunmuş rayonlarda 247352 hektar meşə sahəsi, o cümlədən 13197,5 hektar qiymətli meşə sahələri, 152 ədəd təbiət abidəsi və 5 ədəd geoloji obyekt qalmışdır. Ermənilər bu təbiət abidələrinin əksəriyyətini tamamilə məhv etmişlər.

"Qırmızı kitab"a daxil edilmiş (Kəlbəcər rayonu) 968 hektar ərazini əhatə edən ayıfındığı ağacları kütləvi şəkildə qırılaraq xaricə satılır. Rayon ərazisində 4 mindən artıq müxtəlif növ bitki vardır ki, bunlardan 200-ə qədəri dərman bitkiləri olmaqla, onlar da xarici şirkətlər tərəfindən talan olunaraq müxtəlif ölkələrə daşınır. Bu isə bitkilərin həmin ərazilərdə kökünün kəsilməsinə səbəb olur. Bundan başqa, Ermənistan ordusunun əsgərləri tərəfindən qəsdən törədilmiş yanğınlar nəticəsində 96 min hektar otlaq, biçənək və yaşıllıqlar, həmçinin meşə sahələri yanaraq məhv olmuşdur.Şuşa şəhərindən cənubda, dəniz səviyyəsindən 1365 m hündürlükdə yerləşən, Titon yaşıl əhəng daşlarından ibarət uzunluğu 114 metr olan "Xan Mağarası" amansızlıqla məhv edilir, bəziləri digər məqsədlər üçün istifadə olunur.

Məmnunluq doğuran odur ki, ümummilli lider ölkədə ətraf mühitin qorunması, təbii sərvətlərin artırılması, zənginləşdirilməsi, ekologiyanın, meşənin mühafizə edilməsi sahəsində apardığı islahatlar, gördüyü səmərəli dövlət tədbirləri bu gün uğurla davam etdirilir. Son illər Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə ətraf mühitin mühafizəsi, xalqımızın ekoloji cəhətdən saf və təmiz həyat tərzi keçirməsi üçün yaşıllaşdırma tədbirləri həyata keçirilir. Onun təşəbbüsü və iştirakı ilə hər il respublikamızda milyonlarla ağac və kol əkilir, meşələr və yaşıllıqlar bərpa edilir, yeni parklar, yaşıllıqlar salınır.

Respublikamızın təbiəti çox zəngin və rəngarəngdir. Ekoloji tarazlığı, ətraf mühitin mühafizəsini təmin etmək təkcə bu sahədə çalışanların işi deyil, hamının müqəddəs borcudur. Bütün sərvətlərini bizə səxavətlə bəxş edən ana təbiətə laqeyd münasibət bəsləməyə haqqımız yoxdur. Meşələrin qorunub gələcək nəslə çatdırılması ümumdövlət əhəmiyyətli məsələ kimi dəyərləndirilir. Odur ki, Azərbaycan meşələrinin daha da zənginləşməsinə, ətraf mühitin mühafizəsinə öz layiqli töhfələrimizi verməliyik.

Təqdirəlayiq haldır ki, son illər ölkə ərazisində meşə massivlərinin qorunmasına və onun əhatə dairəsinin genişləndirilməsinə dövlət tərəfindən xüsusi diqqət göstərilir. 2017-ci ildə meşəbərpa və meşə ilə örtülü ərazilərin artırılması məqsədilə 10152,2 hektar sahədə meşəbərpa işləri görülüb, 4002,2 hektar sahədə aqromeşələr, o cümlədən cənub bölgəsində 55 hektar ərazidə sitrus bağları salınıb, digər ağaclar əkilib. Ölkə üzrə 6150 hektar sahədə meşələrin təbii bərpa işləri aparılıb. 53,9 hektar sahəyə toxum səpilib, 31,76 hektar sahədə 1427,8 min ədəd toxmacar və 47,19 hektar sahədə 3410 min ədəd çilik basdırılıb. Tinglik sahələrində 35361,454 min ədəd müxtəlif çeşiddə əkin materialları yetişdirilib ki, bunun da 6046,97 min ədədi meyvə tingləridir. Yaxın gələcəkdə meşə massivlərinin və yaşıllıqların əhatə dairəsini daha da genişləndirmək məqsədilə Bakının Abşeron rayonu ərazisində Qala-Türkan avtomobil yolunun, Salyan rayonu ərazisində Xıdırlı qəsəbəsinin, Hacıqabul rayonu ərazisində Kalmaş yolunun ətrafında, Qaradağ rayonu Ələt qəsəbəsi ərazisində meyvə ağaclarından ibarət aqrobağların salınması üçün yeni ərazilər müəyyənləşdirilib.

Ekoloji tarazlığın qorunmasını və ətraf mühitin mühafizəsini dövlət fəaliyyətində həmişə önə çəkən Azərbaycan Prezidenti çıxışlarının birində demişdir: "İnsanın yaxşı həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbiətin, ətraf mühitin qorunmasıdır . İnsanların sağlamlığı, ekoloji vəziyyət, udduğumuz hava, içdiyimiz su - bütün bunlara biz çox böyük diqqət göstərməliyik..." Uğurlu ekoloji siyasətin nəticəsidir ki, indi Azərbaycanın zəngin meşələri, bitki örtüyü, yüzlərlə parkı, qoruğu və yasaqlığı var. Milli parkların, qoruqların, yasaqlıqların ərazisi genişləndirilir və yeniləri salınır. Qısa müddət ərzində beynəlxalq normalara uyğun olan Xüsusi Mühafizə Olunan Təbiət Əraziləri genişləndirilib. Bu məsələdə IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu var. Bütün bunlar bir daha təsdiqləyir ki, ümummilli lider Heydər Əliyevin ölkəmizdə ekologiyanın qorunması ilə bağlı əsasını qoyduğu ənənə bu gün uğurla davam etdirilir. Ölkəmizdə hər il aidiyyəti qurumlar tərəfindən meşəbərpa tədbirləri həyata keçirilir, yeni meşə sahələri və yaşıllıqlar salınır, qiymətli ağac və kol bitkilərinin qorunması və artırılması sahəsində işlər görülür.

Həyata keçirilən ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə edir. Hazırda vətəndaşların ağacəkmə aksiyalarında, yaşıllıqlar salınmasında fəal iştirakı bunun əyani göstəricisidir. Ekspertlərin fikrincə, bu gün Azərbaycanda ekoloji mühafizə, meşələrin qorunması və bərpası istiqamətində görülən işlər bir çox ölkələrə nümunədir.

Rəhman SALMANLI,
"Azərbaycan"

GILAN HOLDING

Baharı azərbaycançılıq məfkurəsi işığında dünyanın müxtəlif guşələrində bizimlə birgə qarşılayan soydaşlarımıza təbriklərimi yetirirəm. Qoy həmrəyliyimizin rəmzi olan bu el bayramı hər evə xoş əhval gətirsin, hər ocağa bol sevinc, ruzi-bərəkət və firavanlıq bəxş eləsin. Novruz bayramınız mübarək olsun!

İlham ƏLİYEV

Azərbaycan xalqını

NOVRUZ BAYRAMI

münasibətilə təbrik edir,
hər bir ailəyə səadət, sevinc dolu
günlər və bol ruzi-bərəkət arzulayır

Azərbaycanlılar sosial mediada Türkiyə əleyhinə kampaniyalara qarşı mübarizəyə başlayıblar

Türkiyənin terrorizmə qarşı həyata keçirdiyi tədbirləri daim dəstəkləyən Azərbaycan vətəndaşları sosial mediada da Prezident Rəcəb Tayyib Ərdoğan və qardaş ölkə haqqında əsassız və qərəzli xarakter daşıyan qarayaxmalara qarşı fəal mübarizəyə başlayıblar.

AZƏRTAC Anadolu agentliyinin saytına istinadla xəbər verir ki, Azərbaycan ictimaiyyəti Türkiyə Silahlı Qüvvələrinin Suriyanın Afrin bölgəsində keçirdiyi "Zeytun budağı" əməliyyatını da dəstəkləyərək sosial mediada bəzi qüvvələrin Prezident Rəcəb Tayyib Ərdoğana və Türkiyə əleyhinə qaralama kampaniyalarına ciddi etirazlarını bildirir, belə çirkin əməllərə qarşı fəal mübarizə aparır.

Agentliyin bununla bağlı xəbərində qeyd olunur ki, "Zeytun budağı" əməliyyatının keçirildiyi günlərdə müxtəlif qeyri-hökumət təşkilatları Türkiyənin Bakıdakı səfirliyinin qarşısında bu əməliyyata dəstək aksiyaları təşkil ediblər. Həmçinin onlar əməliyyatın ilk şəhidi Musa Özalkanın vəsiyyətinə əsasən, İraqdakı türkmən şəhəri Telaferdə məktəb binasının tikilməsinə yardım məqsədilə kampaniya başladıblar.

Azərbaycanlı siyasətçilər də Türkiyənin terrorizmlə mübarizədə haqlı mövqeyini dəstəkləyirlər. Milli Məclisin deputatı Əli Məsimli Anadolu agentliyinin müxbirinə açıqlamasında deyib: "Afrin əməliyyatı təkcə Türkiyənin deyil, bütün bölgənin təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıyır. Bəzi ölkələr öz mənafelərini düşünərək bu əməliyyata qarşı çıxırlar. Azərbaycan xalqı isə həmişə olduğu kimi, yenə də Türkiyənin yanındadır. Afrin əməliyyatı, həmçinin mənfi meyillərə, separatçılığa, dünyada qarışıqlıq yaratmaq istəyənlərə qarşı həyata keçirilən vacib əməliyyatdır".

Digər deputat Fazil Mustafa Afrin əməliyyatının kürdlərə qarşı deyil, terrorçu qruplaşmalara qarşı həyata keçirildiyini, Türkiyə Silahlı Qüvvələrinin mülki şəxsləri qorumaq üçün maksimum səy göstərdiyini vurğulayıb. Terrorçuların dinc insanlardan özlərini qorumaq üçün sipər kimi istifadə etdiklərini bildirən Fazil Mustafa deyib: "ABŞ bəzi qüvvələrdən Türkiyəyə qarşı istifadə edir. Həmin qüvvələr düşünürlər ki, xaricdən aldıqları silahlarla məkrli niyyətlərini reallaşdıra biləcəklər. Lakin Türkiyə kifayət qədər güclüdür və buna imkan verməyəcək. Kobani hadisələrində Türkiyəyə qarşı təhdid yaratmamaq şərti ilə onlara lazımi imkan yaradıldı. Lakin buna baxmayaraq, onların Türkiyəyə qarşı düşmənçilik mövqeyi dəyişmədi. Bu, Türkiyənin səbir kasasını daşırdı. Azərbaycan xalqı qardaş ölkənin bütün addımlarını dəstəkləyir".

Deputat Musa Qasımlı bildirib: "Türkiyə xalqı uzun illərdir terrordan əziyyət çəksə də, buna böyük səbirlə dözüb. Lakin Türkiyə, nəhayət, bu barədə qəti qərarını verdi. Onun qərarı BMT Nizamnaməsinə uyğundur. Çünki terror təşkilatları Türkiyəni təhdid edirdilər. Türkiyənin özünü müdafiə etməyə haqqı var. Terrora qarşı hamı mübarizə aparmalıdır. Türkiyənin yanında olanlar haqq və ədalətin yanındadırlar".

Parlamentin deputatı Aqil Abbas isə bu barədə danışarkən deyib: "Bu, Türkiyənin haqq işidir. Sərhədləri qorumaq hər bir dövlətin haqqıdır. Türkiyədən ordusunu Afrindən geri çəkməyi tələb edən Avropa Parlamenti terror təşkilatlarına heç bir söz demir. Terrorçuların dinc insanlardan sipər kimi istifadə etmələrinə göz yumurlar. Sən min kilometr məsafədən gələrək Suriyada hərbi baza yarada bilərsən, bəs Türkiyənin öz qapısını qorumağa haqqı yoxdurmu? Prezident Ərdoğan bu məsələdə çox qətiyyətlidir. Biz də onu dəstəkləyirik".

Agentlik vurğulayır ki, siyasətçilərlə yanaşı, Azərbaycan xalqı da sosial mediada Türkiyənin siyasətini dəstəkləyən paylaşmalar edir, qardaş ölkə əleyhinə həyata keçirilən məkrli kampaniyalara ciddi etirazlarını bildirirlər.

MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

Qərar № 13/79

2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində ayrılmış ödənişsiz efir vaxtının bölgüsü və bölgü cədvəlinin dərc edilməsi haqqında

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədlərin qeydə alınma mərhələsi başa çatmış, nəticədə 8 iddiaçının namizədliyi qeydə alınmışdır. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 75.2-ci maddəsinə uyğun olaraq səsvermə gününə 23 gün qalmış, yəni 2018-ci il martın 19-dan başlanan seçkiqabağı təşviqat mərhələsində qeydə alınmış namizədlər və buna hüququ olan subyektlər həm kütləvi informasiya vasitələrində, həm də qanunvericiliklə müəyyən olunmuş digər üsullarla ödənişli və ödənişsiz əsaslarla təşviqat apara bilərlər.

İctimai Televiziya və Radio Yayımları Şirkəti (İTV) Seçki Məcəlləsinin 80.5-ci maddəsində nəzərdə tutulandan (həftədə azı 3 saat) 2 dəfə artıq (həftədə 6 saat) ödənişsiz efir vaxtı ayıraraq, həmin vaxtın 3 saatını televiziyada, 3 saatını isə radioda hüququ olan subyektlər tərəfindən "dəyirmi masa" formatına uyğun istifadə edilməsi üçün təqdim etmək öhdəliyini öz üzərinə götürmüşdür. Qeydə alınmış namizədlər və namizədləri qeydə alınmış siyasi partiyaların təşəbbüsü ilə Mərkəzi Seçki Komissiyası ilə İTV arasında əldə olunmuş razılığa əsasən ayrılmış efir vaxtı İTV-nin imkanları daxilində həftənin 3 günü hər dəfə 1 saat olmaqla saat 19.00-da radioda, saat 22.00-da isə televiziyada istifadəçilərin sərəncamına veriləcəkdir.

Ayrılmış efir vaxtının qanunvericiliklə müəyyən edilmiş qaydada istifadəçilər arasında bölüşdürülməsi məqsədilə Mərkəzi Seçki Komissiyası tərəfindən püşkatma komissiyası yaradılmış, püşkatmanın keçirilmə tarixi və vaxtı müəyyən olunaraq bu barədə məlumat əvvəlcədən dərc edilmiş, maraqlı subyektlərin iştirakının təmin olunması ilə əlaqədar müvafiq tədbirlər görülmüşdür.

Hazırda püşkatma komissiyası ayrılmış efir vaxtının bölgüsünü püşkatma yolu ilə həyata keçirməli, nəticələr protokolla rəsmiləşdirilərək efir vaxtının bölgüsü cədvəli Seçki Məcəlləsinin 80.7-ci maddəsində nəzərdə tutulmuş qaydada dərc edilməlidir.

Seçki Məcəlləsinin 80.4-cü və 80.6-cı maddələrinə əsasən 75-ci maddədə göstərilən müddət başlandıqdan sonra bir həftə müddətində məcəllənin 74.1.3-cü və 74.1.6-cı maddələrində nəzərdə tutulmuş subyektlər arasında, onların verdikləri ərizələr əsasında ödənişsiz efir vaxtının bərabər şərtlər və bərabər həcmdə bölgüsü məqsədilə püşkatma keçirilir. Püşkatmanın nəticələri protokolla rəsmiləşdirilərək, efir vaxtının bölgüsü cədvəli Seçki Məcəlləsinin 77.2-ci maddəsində nəzərdə tutulan dövri nəşrlərdə dərc edilir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 74-cü, 75-ci, 80.1-ci və 80.4 - 80.7-ci maddələrinə əsasən qərara alır:

1. Püşkatma komissiyası İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən ayrılmış və həftəlik ümumi həcmi 6 saat olan efir vaxtının (3 saat radioda hər dəfə 1 saat, saat 19.00-da başlamaqla, 3 saat televiziyada hər dəfə 1 saat, 22.00-da başlamaqla) bölgüsünü püşkatma yolu ilə təmin etsin.
2. Püşkatmanın nəticələri protokolla rəsmiləşdirilərək, efir vaxtının bölgüsü cədvəli Azərbaycan Respublikası Seçki Məcəlləsinin 80.7-ci maddəsində nəzərdə tutulan qaydada dərc edilsin.
3. Ayrılmış efir vaxtının keyfiyyətlə və vaxtında istifadəçilərin sərəncamına verilməsinin zəruriliyinə dair qanunvericiliyin tələbi İctimai Televiziya və Radio Yayımları Şirkətinin rəhbərliyinin diqqətinə çatdırılsın.
4. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov
Katib Arifə Muxtarova
Katib Mikayıl Rəhimov

19.03.2018-ci il

2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış namizədlər üçün İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən ayrılmış ödənişsiz efir vaxtının bölgüsü cədvəli

19 mart 2018-ci il

Radioda "dəyirmi masa"

Həftənin günləri	Efirəçıxma tarixi	Efirəçıxma vaxtı
Bazar ertəsi, çərşənbə axşamı və çərşənbə	19.03.2018	19.00
	20.03.2018	
	21.03.2018	
	26.03.2018	
	27.03.2018	
	28.03.2018	
Bazar, bazar ertəsi və çərşənbə axşamı	01.04.2018	
	02.04.2018	
	03.04.2018	

Televiziyada "dəyirmi masa"

Həftənin günləri	Efirəçıxma tarixi	Efirəçıxma vaxtı
Bazar ertəsi, çərşənbə axşamı və çərşənbə	19.03.2018	22.00
	20.03.2018	
	21.03.2018	
	26.03.2018	
	27.03.2018	
	28.03.2018	
Bazar, bazar ertəsi və çərşənbə axşamı	01.04.2018	
	02.04.2018	
	03.04.2018	

Ayrılmış efir vaxtı istifadəçilərinin masa ətrafında yerləşdirilməsi və aparıcı tərəfindən "dəyirmi masa"nın aparılma ardıcıllığı

Namizədin soyadı, adı, atasının adı	Aparıcıdan	
	sağda	solda
1. Oruc Zahid Məhərrəm oğlu	1	
2. Əlizadə Araz Məmməd Mübariz oğlu		2
3. Həsənquliyev Qüdrət Müzəffər oğlu	3	
4. Əliyev İlham Heydər oğlu		4
5. Nurullayev Razi Qulaməli oğlu	5	
6. Məmmədov Sərdar Calal oğlu		6
7. Quliyev Fərəc İbrahim oğlu	7	
8. Hacıyev Hafiz Ələmdar oğlu		8

Qeyd:

1. İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən ayrılmış efir vaxtı püşkatma ilə müəyyən edilmiş qaydada və müddətdə (2018-ci il martın 19-dan aprelin 4-dək) "dəyirmi masa" formatında istifadəçilərin sərəncamına veriləcəkdir.
2. Həftədə 3 dəfə saat 19.00-da başlamaqla radioda, 3 dəfə isə saat 22.00-da başlamaqla televiziyada hər dəfə 1 saat davam edən "dəyirmi masa"da hər bir namizədə 7 dəqiqə 30 saniyə efir vaxtı ayrılacaqdır.
3. İstifadəçi ona ayrılmış efir vaxtından qanunvericiliklə müəyyən edilmiş qaydada seçkiqabağı təşviqat məqsədləri üçün və "dəyirmi masa" formatında öz mülahizəsinə uyğun istifadə edə bilər.

Qeyri-neft sektoruna yönəldilən investisiyanın həcmi 30 faiz artıb

Cari ilin yanvar-fevral aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilmiş 1 milyard 824,7 milyon manat vəsaitin 816,2 milyon manatı və ya 44,7 faizi qeyri-neft sektoruna sərf edilmiş və bu sektorda investisiyaların həcmi ötən illə müqayisədə 29,8 faiz artmışdır.

Dövlət Statistika Komitəsinin bu barədə yaydığı məlumatda daha sonra bildirilir ki, ümumi sərmayənin 74,9 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmiş, istifadə olunmuş vəsaitin 79,3 faizi məhsul istehsalı, 14,8 faizi xidmət sahələri obyektlərinin, 5,9 faizi isə ümumi sahəsi 242,1 min kvadratmetr olan yaşayış evlərinin tikintisinin payına düşmüşdür. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 50,8 faizini təşkil etmişdir.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 68,1, bank kreditləri 10,9, büdcə vəsaitləri 15, əhalinin şəxsi vəsaitləri 5,4, büdcədənkənar fondların vəsaitləri 0,5, sair vəsaitlər 0,1 faiz olmuşdur.

İki ayda Bakıda "Yasamal-1", "Qobu" və 120 saylı elektrik yarımstansiyaları, Mingəçevirdəki sənaye parkında "Mingəçevir Tekstil" MMC-nin iplik istehsalı üzrə 2 müəssisəsi, Naxçıvan Muxtar Respublikasında 442 şagirdlik 2 ümumtəhsil məktəb binası, ambulatoriya-poliklinika və s. obyektlər istifadəyə verilmişdir.

"Azərbaycan"

Xalqın əziz bayramı

Əvvəli 1-ci səh.

"Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir" deyən ulu öndər bu bayramı milli ideologiyamızın ana sütunu kimi dəyərləndirmiş və onu əbədiləşdirmişdir.

Dövlət səviyyəsində ümumxalq şənlikləri

2000-ci ildə Novruz şənliklərində iştirak edən ulu öndər Heydər Əliyev deyirdi: "Vaxt var idi ki, bu bayram bəzi səbəblərdən qadağan olunmuşdu. Ancaq həmin onillikləri biz hamımız bir yerdə yaşamışıq və hamımız da bilirik ki, heç kim bu qadağaya fikir verməyibdir, öz bayramını edibdir. Bu bayram elə bayramdır ki, özünün maddi vəziyyətindən asılı olmayaraq hər bir insan - zəngin adam da, orta yaşayan da, lap kasıb şəraitdə yaşayan insan da onu bayram edir. O illər ki bizim bu ümumxalq bayramının keçirilməsinə imkan yox idi, hər kəsin evində mütləq səməni də, rənglənmiş yumurtalar, plov da var idi... Kimisə tapmaq olmazdı ki, bu bayramın əlamətlərindən o günlərdə istifadə etməsin və bayramı qeyd etməsinlər".

1991-ci ilin oktyabrında müstəqilliyə qovuşan Azərbaycanda yaşanan tələtümlü proseslər Novruzun əsl xalq bayramı kimi yüksək əhvali-ruhiyyədə keçirilməsinə imkan vermədi. Yalnız ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə 1993-cü ildə respublika rəhbərliyinə qayıdışından sonra Azərbaycanın üzləşdiyi bir çox faciələr aradan qaldırıldı, vətəndaş qarşıdurmasının qarşısı alındı. İctimai-siyasi sabitlik təmin olundu, insanların maddi rifah halı ildən-ilə yaxşılaşdı və bundan sonra xalqımız Novruz bayramını yüksək əhvali-ruhiyyədə qeyd etməyə başladı.

Novruz dövlət səviyyəsində qeyd edilməklə yanaşı, dünya azərbaycanlılarının milli bayramına, ən dəyərli ideoloji-siyasi təsir amilinə çevrildi. Ulu öndər 1994-cü ilin yazından başlayaraq hər il Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik etdi, ümumxalq şənliklərinə qatılaraq insanlara ikiqat sevinc yaşatdı, ölkə vətəndaşlarına vətənin çiçəklənməsi naminə birlik, həmrəylik, saflıq və təmizlik arzuladı.

Ulu öndər hər zaman bildirirdi ki, Novruz sosial durumundan, statusundan asılı olmayaraq hamı tərəfindən yüksək səviyyədə keçirilən və sevilən bir bayramdır. Bu bayram cəmiyyətdə mənəvi dəyər və meyarların aşınmasına yol vermir, yad təzahürlərə qarşı barışmaz mövqeyi ilə seçilir. Ümummilli lider özünəməxsus müdrikliklə həm də Novruzun fəlsəfi məzmununu açmış, onun insanların mənəvi cəhətdən saflaşmasındakı rolunu önə çəkmişdi. "Ürəklərdə saf duyğuların oyanması, insanlar arasında səmimiyyət, mehribanlıq və qarşılıqlı tellərin möhkəmlənməsi, umu-küsünün, kin-küdurətin, qəzəb-nifrətin aradan qaldırılması, cəmiyyətdə xoş münasibətlərin bərqərar olması Novruzun əsrlərin süzgəcindən keçərək formalaşmış ənənələridir" deyən Heydər Əliyev hesab edirdi ki, Novruz Azərbaycanın milli etnoqrafik dəyərlərini özündə birləşdirən, onları dünyanın qloballaşma meydanına bütün əlvanlığı ilə çıxarmaqla fəlsəfi ritual mahiyyəti kəsb edən milli bayramdır.

Ulu öndər xalqın milli irsinə, folkloruna həm də düşmənə qarşı ümumxalq müqavimətini, səfərbərliyini təmin edən ideoloji-siyasi təsir vasitəsi kimi yanaşmışdır. Çıxışlarında həmişə Azərbaycanın torpaqlarının işğalı faktına xüsusi yer ayırmış, xalqın birliyi və iradəsi ilə problemin milli maraqlara uyğun şəkildə həllini tapacağına sarsılmaz inamını ifadə etmişdir.

Ümummilli liderin əsasını qoyduğu ənənəyə uyğun olaraq bu gün Novruz şənlikləri təkcə Azərbaycanda deyil, soydaşlarımızın yaşadıqları müxtəlif ölkələrdə də geniş qeyd edilir. Bu mərasimlərdə yaranan xoş ünsiyyət azərbaycanlıları bir-biri ilə sıx şəkildə bağlayır, hər bir soydaşımızda milli mənlik şüurunu, azərbaycançılıq hislərini və duyğularını gücləndirir. Novruz bayramı azərbaycanlıları vətənə, milli köklərə daha sıx bağlayır.

Azərbaycan Prezidenti ulu öndərin layiqli siyasi varisi kimi milli-mənəvi dəyərlərin, mütərəqqi adət-ənənələrin cəmiyyətdə daha möhkəm əsaslarla intişar tapmasına, bu sıradan da xalqımızın böyük bayramı olan Novruzun yüksək səviyyədə qeyd olunmasına çalışır. Hər il Novruz bayramı münasibətilə xalqımıza təbrik ünvanlayan dövlət başçısı vətəndaşlarımıza xoş arzu və niyyətlərini bildirir. Yüksək mənəviyyat xəzinəsi sayılan bahar bayramı milli mədəni sərvətlərimizin zənginliyini dolğun şəkildə ifadə edir. O, böyük mənəvi gücə malikdir, insanlar arasında qardaşlıq duyğularını möhkəmləndirir, cəmiyyətdə əmin-amanlığın və xoş münasibətlərin bərqərar olmasına zəmin yaradır. Sürətlə dəyişən dünyamızda qloballaşma proseslərinin geniş vüsət aldığı bir zamanda Novruz bayramı daşıdığı bütün məna və rəmzləri ilə xalqımızın tarixi-mədəni irsinə son dərəcə bağlı olduğunu parlaq nümayiş etdirir. Ən ali keyfiyyətləri özündə cəmləşdirən bayram kimi Novruzun UNESCO tərəfindən bəşəriyyətin mədəni irs nümunələri siyahısına daxil edilməsi təqdirəlayiq haldır.

Xüsusi vurğulamaq lazımdır ki, Novruz bayramının bütün dünyada Azərbaycanın zəngin irsi kimi tanıdılması və UNESCO-nun Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilməsi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın vətənpərvəlik fəaliyyəti nəticəsində mümkün olmuşdur. Heydər Əliyev Fondu Novruz günlərində aztəminatlı ailələrə bayram sovqatları paylayır, sosial yardıma ehtiyacı olan minlərlə şəxs üçün bayram süfrələri təşkil edir, sağlamlıq imkanları məhdud uşaqlarla görüşlər təşkil edir, xüsusi qayğıya ehtiyacı olan və kimsəsiz uşaqlar üçün şənliklər keçirir, məktəblərdə, uşaq bağçalarında olur, onları bayram hədiyyələri ilə sevindirirlər.

Azərbaycanın təşəbbüsü ilə 2010-cu ildə BMT-nin 21 martı Beynəlxalq Novruz Günü elan etməsi bu bayramın bəşəri miqyasda roluna yüksək önəm verildiyinə dəlalət edir.

Sürətlə dəyişən dünyamızda qloballaşma proseslərinin geniş vüsət aldığı bir zamanda Novruz daşıdığı bütün məna və rəmzləri ilə yurdumuzun tarixi-mədəni irsə son dərəcə bağlı olduğunu parlaq nümayiş etdirir. Xalqımız bu il də Novruz bayramını yüksək ovqatla qarşılayır.

İradə ƏLİYEVA,
"Azərbaycan"

Günay Bank

Azərbaycan xalqını
Novruz bayramı
münasibətilə təbrik edir,
hər bir ailəyə səadət,
sevinc dolu günlər arzulayır

Atəşkəs rejimi 102 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 102 dəfə pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Quşçu Ayrım, Məzəm, Bala Cəfərli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Novruzlu, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

xalqımızı
Novruz bayramı
münasibətilə təbrik edir,
xoşbəxtlik, ailə səadəti, firavan həyat
və işıqlı gələcək arzulayır

GCM GLOBAL ENERGY AZERBAIJAN
"Global Energy Azerbaijan"
şirkəti və onun törəmə şirkətləri
Azərbaycan xalqını
"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"
NOVRUZ BAYRAMI

münasibətilə təbrik edir,
hər bir ailəyə səadət və
sevinc dolu günlər arzulayır

Halal Nemət 1000 Bərəkət Halal Nemət
xalqımızı
Novruz bayramı
münasibətilə təbrik edir.
Qoy bu bayram ölkəmizə xeyir-bərəkət,
ruzi və xoş günlər gətirsin!

iceland DONDURMALARI
CAMAL LTD
Novruz Bayramınız Mübarək
MİLLİ ƏNƏNƏLƏRİMİZİ YAŞADAN,
YENİLİK, BARIŞIQ VƏ
MƏNƏVİ PAKLIQ SİMVOLU OLAN
NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ
CAMAL LTD ŞİRKƏTİ
AZƏRBAYCAN XALQINI
SƏMİMİ QƏLBDƏN TƏBRİK EDİR,
CANSAĞLIĞI, XOŞBƏXTLİK, FİRAVANLIQ
VƏ YENİ UĞURLAR ARZULAYIR

Pirallahıda Novruz sovqatı

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Pirallahı rayonu ötən 5 il ərzində Bakının ən abad və inkişaf edən guşələrindən birinə çevrilmişdir.

Sosial-iqtisadi və ictimai-siyasi sferalarda əldə edilən nailiyyətlər sakinlərin maddi rifah halının yüksəldilməsində də bir stimul rolu oynayır, sosial müdafiəyə ehtiyacı olan ailələr daim diqqətdə saxlanılır. Ənənəvi olaraq bayram günlərində şəhid ailələrinə, Qarabağ əlillərinə, aztəminatlı sakinlərə, məcburi köçkünlərə maddi yardımlar göstərilir. Xalqımızın ən əziz bayramlarından biri olan Novruz ərəfəsində Yeni Azərbaycan Partiyası

Pirallahı Rayon Təşkilatı Gənclər Birliyi də bu xeyirxah təşəbbüsə qoşulmuşdur. İki gün ərzində aztəminatlı və şəhid ailələrinə, sağlamlıq imkanları məhdud və sosial müdafiəyə ehtiyacı olan rayon sakinlərinə humanitar yardım göstərilmişdir. Yeni Azərbaycan Partiyası Pirallahı Rayon Təşkilatı Gənclər Birliyinin sədri Mehman Həşimlidən aldığımız məlumata görə, yalnız Gənclər Birliyinin xətti ilə ümumilikdə 15 ailəyə Novruz sovqatı çatdırılmışdır.

Bu ailələr, o cümlədən, tənha, əlil, ahıl sakinlər adından sərgilənən diqqətə görə təşəkkür edən əmək veteranı, ağır xəstəliklə əlaqədar ayaqlarını itirmiş Məşədiyeva Xatirə Telman qızı dövlətin onları qayğı ilə əhatə etməsinin, xüsusən bayram ərəfəsində Novruz sovqatı ilə sevindirməsinin böyük əhəmiyyət daşıdığını vurğuladı.

"Azərbaycan"

Keçən il Azərbaycandan 6,5 ton bal ixrac olunub

Dövlət Statistika Komitəsi tərəfindən təşkil olunmuş statistik müşahidənin nəticələrinə görə, 2017-ci ildə 21165 təsərrüfatda mövcud olan 271,7 min arı ailəsindən 3043,1 ton bal, 90,2 ton mum, 11,2 ton vərəmum, 8,1 ton güləm və 281,7 kiloqram arı südü əldə edilmişdir.

Balın bir kiloqramının orta satış qiyməti 23,7, mumun orta satış qiyməti 11,5, vərəmumun orta satış qiyməti 116,7, güləmin orta satış qiyməti 56,7, arı südünün 1 qramının orta satış qiyməti 4,9 manat olmuşdur. 2017-ci ildə 5 ölkəyə 54,8 min ABŞ dolları dəyərində 6,5 ton bal ixrac edilmişdir ki, onun da 93,8 faizi Yaponiyanın payına düşür.

Ümumiyyətlə, "Arıçılıq haqqında" qanunun qəbul edildiyi dövrdən sonrakı 9 ildə arı ailələrinin sayı 1,9, arıçılıqla məşğul olan təsərrüfatlarda bir təsərrüfata düşən arı ailələrinin sayı 11,1-12,8, bal istehsalı 2,2 dəfə artmışdır.

Müşahidə zamanı arıçılıq təsərrüfatları bu sahənin daha da inkişaf etdirilməsi üçün dövlət tərəfindən güzəştli kreditlərin ayrılması, arıçılıq üzrə damazlıq təsərrüfatlarının yaradılması, bal satışı yarmarkalarının mütəmadi keçirilməsi, qablaşdırılmış və satışa çıxarılmış arıçılıq məhsullarının keyfiyyətinin yoxlanılması kimi təkliflər irəli sürülmüşdür.

"Azərbaycan"

Dövlət Sərhəd Xidməti ilə Respublika Hərbi Prokurorluğu birgə tədbirlər keçiriblər

Dövlət Sərhəd Xidməti ilə Respublika Hərbi Prokurorluğunun Novruz bayramı münasibətilə birgə tədbirlər planına uyğun olaraq Bakı, Göytəpə, Horadiz və Zaqatala şəhərlərinin ərazilərində yerləşən Dövlət Sərhəd Xidmətinin hərbi hissələrində Azərbaycan Respublikası Hərbi Prokurorluğunun nümayəndələrinin və ərazi hərbi prokurorlarının şəxsi heyətlə görüşləri keçirilmişdir.

DSX-dən verilən məlumata görə, keçirilən görüşlərdə qonaqlar Novruz bayramı münasibətilə şəxsi heyəti təbrik edərək ulu öndər Heydər Əliyevin əsasını qoyduğu milli sərhəd siyasətinin uğurla həyata keçirilməsindən, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərdiyi diqqət və qayğı nəticəsində ölkəmizin sərhəd təhlükəsizliyinin ən yüksək tələblər səviyyəsində təmin edilməsindən, Vətənimizin sərhədlərinin etibarlı mühafizəsinin təşkili istiqamətində əldə edilmiş nailiyyətlərdən ətraflı danışmışlar.

Tədbirlərdə Hərbi Prokurorluq əməkdaşları cinayət hadisələrinin qarşısının alınması, hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi mövzularında şəxsi heyətin qarşısında çıxış etmiş, hərbi qulluqçulara müvafiq tövsiyələr vermişlər.

Qonaqlar hərbi hissələrdə yaradılmış şəraitlə yaxından tanış olmuş, xidmətdə fərqlənmiş hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim etmişlər.

"Azərbaycan"

Hərbi attaşelər Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsində və "Sərhədçi" İdman-Olimpiya Mərkəzində olublar

14 mart 2018-ci il tarixdə Azərbaycan Respublikasında akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşeləri Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin bazası və "Sərhədçi" İdman-Olimpiya Mərkəzinə səfər etmişlər.

17 dövləti təmsil edən 27 nəfər hərbi attaşe heyəti əvvəlcə Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsində olmuşdur. SM-nin xidmətidöyüş fəaliyyətinə dair keçirilmiş təqdimatda dəniz sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi, maddi-texniki bazasının təkmilləşdirilməsi üzrə görülmüş işlər və əldə olunmuş nailiyyətlər, həmsərhəd və xarici ölkələrin müvafiq qurumları ilə əməkdaşlıq çərçivəsində həyata keçirilmiş tədbirlər barədə ətraflı məlumat verilmişdir.

Ziyarətçilər bazanın fəaliyyəti və mövcud imkanları, o cümlədən qərargah binası, Birgə Komanda İdarəetmə Mərkəzi, Tədris mərkəzinin xarici dil, dalğıc, baxış qruplarının hazırlanması sinifləri, gəmi inşası və təmiri mərkəzində inşa edilmiş sərhəd gözətçi gəmilərinin texniki göstəriciləri ilə tanış olmuşlar.

"Sərhədçi" İdman-Olimpiya Mərkəzinə səfər zamanı mərkəzin binalar kompleksi, o cümlədən universal zalı, meydançaları, üzgüçülük hovuzu, mehmanxanası və digər maddi-texniki imkanları qonaqlara nümayiş etdirilmişdir.

Ölkəmizin ən böyük və əzəmətli idman qurğularından olan, müasir tələblərə cavab verən mərkəzin 32 idman növü ilə məşğul olmağa, beynəlxalq səviyyəli yarışların keçirilməsinə imkan verməsi, son illərdə sərhədçi idmançıların və paralimpiyaçıların çoxsaylı beynəlxalq və yerli yarışların qalibi və mükafatçısı olması barədə attaşelərə məlumat verilmişdir.

E.HADIYEV,
"Azərbaycan"

Əməkdaşlarının hər zaman qayğısına qalan nümunəvi şirkət

"Mətanət A" əməkdaşlarını növbəti dəfə təltif etdi

İnşaat materiallarının istehsalı sektorunda daim fərqlənən "Mətanət A" korporativ sosial məsuliyyət sahəsində də nümunəvi şirkətdir. 18 illik fəaliyyəti dövründə əməkdaşlarının rifahının yüksəlməsi, həyat şəraitlərinin yaxşılaşdırılması, iş mühitinin yüksək beynəlxalq tələblərə uyğunlaşdırılması və s. - "Mətanət A" şirkətinin əsas hədəflərindəndir. Şirkət bu istiqamətdə çoxsaylı tədbirlər və daim təkmilləşdirmə işlərini həyata keçirib. Bu il də istisna deyil.

Novruz bayramı ərəfəsində şirkətin 2017-ci ildə fərqlənmiş 14 əməkdaşı müxtəlif nominasiyalar üzrə təltif edilmişdir. Şirkətin rəhbəri Elxan Bəşirovun da iştirak etdiyi tədbirdə bildirilib ki, yüzlərlə insanın çalışdığı "Mətanət A" şirkətində əməkdaşların fəaliyyəti üçün bütün lazımi şərait yaradılıb və bu şərait günügündən təkmilləşdirilərək daha da yaxşılaşdırılır. Əməkdaşlar peşəkar səviyyələrinin yüksəldilməsi məqsədi ilə maliyyəsi şirkət tərəfindən təmin edilən müxtəlif treninq və kurslara göndərilir, xarici ölkələrdə təşkil edilən konfranslara qatılırlar. Fərqlənmiş əməkdaşlar isə mükafatlandırılırlar. Bu, həmkarlar arasında sağlam rəqabət mühitinin formalaşmasına səbəb olur. Bir sözlə, şirkət rəhbərliyi əməkdaşlarının həvəslə və yüksək səviyyədə işlərinin icrası üçün hər bir tədbir görür. Əməkdaşlar isə buna cavab olaraq, sadiqliyi və peşəkarlığı ilə seçilirlər. "Mətanət A" ailəsində olan məhz bu peşəkar və təqdirəlayiq ab-hava, qarşılıqlı hörmət və dəstək, rəhbərliyin stimullaşdırıcı tədbirləri şirkəti illərdir ki, böyük uğurlara imza atmağına zəmin yaradır. Yarandığı ilk gündən əməkdaşlarını hər zaman diqqətdə saxlayan "Mətanət A" şirkəti bundan sonra da bu istiqamətdə fəaliyyətini davam etdirəcək.

"Azərbaycan"

"AQRARKREDİT"
SƏHMDAR KREDİT TƏŞKİLATI

Azərbaycan xalqını

Novruz bayramı

münasibətilə təbrik edir, səadət, əmin-amanlıq və xoşbəxtlik arzulayır

Novruz bayramı Kaliforniyada böyük təntənə ilə qeyd edilib

Novruz bayramı münasibətilə Kaliforniyanın Los-Anceles şəhərində geniş tədbir keçirilib. Bu barədə AZƏRTAC-a Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan məlumat verilib.

Kaliforniya Azərbaycan Dostluq Assosiasiyasının (CAFA) təşkilatçılığı ilə keçirilən tədbirdə 250-dən çox qonaq, o cümlədən Azərbaycan icmasının üzvləri, Kaliforniya ştatının rəsmiləri, müxtəlif xarici ölkələrin Los-Ancelesdəki baş konsulları, tanınmış elm və mədəniyyət xadimləri, jurnalistlər, həmçinin dost yəhudi, türk, Pakistan, İran, Koreya, və latino icmalarının rəhbərləri iştirak ediblər.

CAFA-nın icraçı direktoru Kimiya Məmmədova qonaqları salamlayaraq Novruz bayramı, onun tarixi, ənənələri və mahiyyəti haqqında danışıb. O, Novruz bayramının Azərbaycanda çox qədim köklərə malik olduğunu, ölkəmizdə bu əziz bayramın çox geniş və təntənəli şəkildə qeyd edildiyini diqqətə çatdırıb. Kaliforniyada belə bir tədbiri keçirməkdən CAFA təşkilatı olaraq məmnunluğunu ifadə edən K.Məmmədova bu işdə dəstək göstərmiş bütün icma üzvlərinə dərin təşəkkürünü bildirib.

Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev qeyd edib ki, Novruz bayramı sadəcə baharın gəlişindən və təbiətin oyanışından xəbər vermir. Bu bayram həmçinin sülhün, dostluğun, mehriban birgəyaşayışın carçısıdır. Baş konsul tədbirdə iştirak edən soydaşlarımıza səslənərək bildirib ki, bu gün dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlının yalnız bir müstəqil dövləti var. Buna görə də bu müstəqilliyimizin daha da güclənməsi üçün harada yaşamalarından asılı olmayaraq bütün azərbaycanlıların azərbaycançılıq ideyası ətrafında sıx birləşərək vətənimizin daha da inkişafına öz töhfələrini verməsi olduqca vacibdir.

Sonra Kaliforniya ştat senatoru Coş Nyuman, Los-Anceles şəhərinin insan resursları üzrə müvəkkili Amna Qazi və Los-Anceles Dinlərarası Şurasının sədri yepiskop Xuan Carlos Mendez çıxış edərək Azərbaycan icmasına bayram təbriklərini çatdırıblar. Onlar ən müxtəlif etnik icmaların yaşadığı Kaliforniya kimi çoxmədəniyyətli ştatda Novruz bayramının qeyd edilməsindən və bu gözəl mərasimdə iştiraklarından məmnun olduqlarını bildiriblər. Azərbaycanın parlaq gələcəyinin olduğunu vurğulayan natiqlər qarşıdakı illərdə Azərbaycan xalqının daha böyük nailiyyətlərə imza atacağına inandıqlarını bildiriblər.

Tədbir Azərbaycan musiqisindən nümunələrin ifası və Azərbaycan mətbəxinin ləziz təamlarını əks etdirən ziyafətlə davam edib. Gənc musiqiçilər Röya Miriyeva və Rizvan Əliyev tərəfindən ifa edilən Azərbaycan mahnıları, amerikalı rəqs ustası Robin Frendin ifa etdiyi "Tərəkəmə" və "Uzundərə" kimi Azərbaycan xalq rəqsləri, eləcə də Kaliforniyanın Örvayn Universitetinin amerikalı tələbələri tərəfindən "Sarı gəlin" xalq mahnısı və "Bayatı-Şiraz" muğamı üzərində qurulmuş rəqsin ifası tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

Xarici ticarətdə 854 milyon dollarlıq müsbət saldo var

Bu ilin yanvar ayında Azərbaycan dünyanın 121 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 67 ölkəyə məhsul ixrac, 115 ölkədən idxal olunmuşdur. Gömrük orqanlarında qeydiyyat aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla yanvar ayında xarici ticarət dövriyyəsi 2 milyard 231,6 milyon, o cümlədən ixracın dəyəri 1 milyard 543 milyon, idxalın dəyəri 688,6 milyon dollar təşkil etmiş və nəticədə 854,4 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. 2017-ci ilin yanvar ayı ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 33,3 faiz artmış, real ifadədə isə 1,9 faiz azalmışdır.

Dövlət Gömrük Komitəsinin məlumatlarına görə, ixracın 27 faizini İtaliyaya, 13,1 faizini İsrailə, 8 faizini Avstriyaya, 7,9 faizini Çexiyaya, 6,7 faizini ABŞ-a, 6,5 faizini Kanadaya, 6,4 faizini İndoneziyaya, 4,5 faizini Almaniyaya, 3,8 faizini Gürcüstana, 3,7 faizini Rusiyaya, 3,6 faizini Yunanıstana, 3,4 faizini Türkiyəyə, 1,7 faizini İsveçrəyə, 3,7 faizini digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Ölkəmizdə idxal olunmuş məhsulların ümumi dəyərinin 18,3 faizi Rusiya, 12,9 faizi Türkiyə, 9,5 faizi Çin, 8,1 faizi Belarus, 7,3 faizi Almaniya, 4,1 faizi Ukrayna, 3,9 faizi ABŞ, 3,3 faizi İran, 2,9 faizi Türkmənistan, 2,6 faizi İtaliya, 2,4 faizi Koreya, hər biri 2,3 faiz olmaqla İsveçrə və Birləşmiş Krallıq, 2,2 faizi Qazaxıstan, 17,9 faizi digər ölkələrlə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

Bu ilin ilk ayında 122,8 milyon dollarlıq qeyri-neft məhsulları ixrac edilmişdir ki, bu da 2017-ci ilin yanvar ayına nisbətən faktiki qiymətlərlə 36,1 faiz, real ifadədə 34,7 faiz çoxdur.

Yanvar ayında 2017-ci ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə meyvə ixracı 59, təzə tərəvəz 25,9, tütün 8,4, meyvə və tərəvəz şirələri 33,4, meyvə və tərəvəz konservləri 5,3, marqarin, qida üçün yararlı digər qarışıqlar 87,4, polietilen 30,4, pambıq ipliyi 52,7 faiz, təbii üzüm şərabları və üzüm suslosu 2,2 dəfə artmış, şəkər ixracı 61,5, bitki yağları 58,2, çay 29,5, pambıq lifi 3,4, emal olunmamış alüminium 25,1, qara metallardan borular 8, bentonit gili 30,2 faiz azalmışdır. 2017-ci ilin yanvar ayı ilə müqayisədə 2018-ci ilin yanvar ayında buğda idxalı 2,1 dəfə, təzə meyvə 34,8 faiz, bitki yağları 5,1 dəfə, çay 49,8 faiz, mal əti 24,9 faiz, quş əti və onun əlavə məhsulları 3,3 dəfə, qara metallardan borular 2,7 dəfə, polad prokatı 14,2, minik avtomobilləri 2,2 dəfə, mineral gübrələr 41,4 faiz, rezin şinlər 79,8 faiz, qara metallardan çubuqlar 64,8 faiz, polietilen 4,4 dəfə, hesablama maşınları, blok və qurğuları 3 dəfə, qara metallardan künclüklər 92,8 faiz, paltaryuyan maşınlar 17,3 faiz, sement və sement klinkerləri 2 dəfə, yük avtomobilləri 78 faiz, məişət soyuducuları 52,9, avtobuslar 33,3 faiz artmış, xam şəkər və şəkər idxalı 57,3 faiz, siqaret 0,8 faiz, kərə yağı, digər süd yağları və pastaları 34 faiz, kartof 24,9 faiz, təzə tərəvəz 43,5 faiz, mebel 0,7 faiz, məişət kondisionerləri 8,2 faiz azalmışdır.

"Azərbaycan"

"AtaBank" ASC
Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edir,
xoşbəxtlik və sevinc dolu günlər arzulayır

AZPETROL

"Azpetrol" şirkəti Azərbaycan xalqını

Novruz bayramı

münasibətilə təbrik edir, xalqımıza bahar təravətli
xoş gələcək, ruzi-bərəkət, əmin-amanlıq, xoşbəxtlik,
birlik, sevinc və fərəh dolu günlər arzulayır

Azərbaycan Respublikası Baş Prokurorluğunda 2018-ci ildə inventarların, mal-materialların, avadanlıqların satınalınması məqsədilə keçirilən açıq tenderin nəticələrinə görə aşağıdakı hüquqi şəxslər qalib elan olunmuşlar:

LOT-1 Dəftərxana ləvazimatlarının satın alınması;	"Office Page" MMC Tender baş tutmamışdır.
LOT-2 Təsərrüfat mallarının satın alınması;	"Qardaşlar Mebel-3" MMC
LOT-3 Ofis və kabinet mebellərinin satın alınması;	"Consquare Consultancy and Services Company" MMC
LOT-4 Avadanlıqların satın alınması;	Tender baş tutmamışdır.
LOT-5 Tikinti materiallarının satın alınması;	"Consquare Consultancy and Services Company" MMC
LOT-6 Katriclərin satın alınması ;	

Tender komissiyası

Azercell

abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 27.03.2018-ci il tarixində gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

ELAN

"Azərişıq" ASC Sabirabad Elektrik Şəbəkəsində enerji satışı mütəxəssisləri üzrə nəzarətçi-mühəndislərin işə qəbulunu elan edir. Nəzarətçi-mühəndislər elektroenergetika və digət texniki ixtisaslar üzrə ali təhsilli olmalıdır.

İşə qəbul səhmdar cəmiyyətin işə qəbul komissiyası tərəfindən test və müsahibə yolu ilə həyata keçiriləcəkdir. Sənədlər 2018-ci il mart ayının 27-28 tarixlərində Sabirabad şəhəri, Muğan prospektində yerləşən Şabirabad Elektrik Şəbəkəsinin inzibati binası və "Azərişıq" ASC-nin Bakı şəhəri, Bakıxanov-13 küçəsində yerləşən səhmdar cəmiyyətin Kadrlar İdarəsində qəbul olunacaqdır.

Tələb olunan sənədlər:

- Fotoşəkilli anket forması (CV);
- Şəxsiyyəti təsdiq edən sənədin surəti;
- Təhsil haqqında sənədin surəti.

Əlaqə telefonları: (+99412) 440 39 93
(daxili - 22-32; 26 - 04) ; (+994 2123) 5-52-06
E-mail: info@azerishiq.az

Bildiriş

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Lənkəran Dövlət Universiteti
Açıq Tender müddətinin uzadılması haqqında

Lənkəran Dövlət Universitetinin "Azərbaycan" qəzetinin 6 fevral 2018-ci il tarixli 27 (7754) nömrəli və 17 fevral 2018-ci il tarixli 37 (7764) nömrəli sayında dərc olunmuş Lot-1LDU-nun 5 mərtəbəli yataqxana binasının əsaslı təmiri üzrə tender təklifləri və bank təminatı üzrə sənədlərin təqdim olunması 9 aprel 2018-ci il saat 17:00-a qədər, zərflərin açılma vaxtı isə 10 aprel 2018-ci il saat 15:00-a qədər uzadılır.

Tender komissiyası

Qeyri-neft sənaye məhsullarının istehsalı 8,4 faiz artıb

Cari ilin ilk iki ayında ölkə üzrə 7,6 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çox sənaye məhsulu istehsal edilmişdir. Məhsul istehsalı sənayenin qeyri-neft sektorunda 8,4, neft sektorunda 0,4 faiz artmışdır.

Sənaye məhsulunun 75 faizi mədənçıxarma, 20 faizi emal, 4,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,6 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. Mədənçıxarma sektorunda neft hasilatı 0,5 faiz artmış, əmtəəlik qaz hasilatı 9,4 faiz azalmışdır.

Emal sektorunda tütün məmulatlarının istehsalı 3,4 dəfə, toxuculuq sənayesi məhsullarının istehsalı 65,8 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 4,7 dəfə, ağacın emalı və ağacdan məmulatların istehsalı 1 faiz, poliqrafiya məhsullarının istehsalı 38 faiz, kimya sənayesi məhsullarının istehsalı 6,3 faiz, əczaçılıq məhsullarının istehsalı 2 dəfə, tikinti materiallarının istehsalı 40 faiz, hazır metal məmulatlarının istehsalı 67 faiz, elektrik avadanlıqlarının istehsalı 43,4 faiz, mebel istehsalı 34,7 faiz artmışdır.

"Azərbaycan"

Beynəlxalq aləm
HADİSƏLƏR, FAKTLAR

Putin yenidən Rusiyanın Prezidenti seçildi

Rusiya Mərkəzi Seçki Komissiyası (MSK) prezident seçkilərinin ilkin nəticələrini elan etmişdir. MSK-nın sədri Ella Pamfilovanın dediyinə görə, Vladimir Putin 76,6 faiz səs toplamışdır. İkinci yerdə 11,08 faiz səslə Pavel Qrudinindir. Üçüncü yeri Vladimir Jirinovski tutur (5,66 faiz səs). Dördüncü yerdə 1,76 faiz səslə Kseniya Sobçakdır. Qriqori Yavlinski 1 faiz, Boris Titov 0,7 faiz, Sergey Baburin və Maksim Suraykin hərəyə 0,6 faiz səs toplamışlar.

Qanuna uyğun olaraq, MSK Rusiya Federasiyası subyektlərinin və xaricdəki iki ərazi seçki komissiyasının protokollarının birinci nüsxələri əsasında on gün müddətində seçkilərin son nəticələrini müəyyənləşdirməlidir. MSK-nın sədri seçkilərdə ciddi pozuntuların qeydə alınmadığını bildirmişdir. Rusiyanın üç regionunda beş məntəqədə səsvermənin nəticələri ləğv olunmuşdur.

Seçkilərdə 73,36 milyon nəfər iştirak etmişdir (67,47 faiz). Vladimir Putin postsovet Rusiyası tarixində rekord dəstək almışdır.

Moskvadakı Manej meydanına gələn Rusiya lideri oraya toplaşanlara müraciətində dəstəyə görə seçicilərə minnətdarlıq etmişdir: "Dəstəyə görə sizə "çox sağ olun" deyirəm! Siz bizim komandamızsınız, mən də sizin böyük komandanın üzvüyəm. Mənə səs verənlərin hamısı bizim böyük ümummilli komandamızdır".

Putin çıxışında bildirmişdir ki, səsvermənin nəticələri etimadı və ölkənin inkişafına ümidi əks etdirir.

Afrin şəhəri terrorçulardan təmizləndi

Türkiyə Silahlı Qüvvələri Azad Suriya Ordusunun (ASO) dəstəyi ilə Afrin şəhərini terrorçulardan təmizləmişdir. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan məlumat vermişdir.

ASO-nun nümayəndəsi Məhəmməd Həmədinin dediyinə görə, hərbçilər və müxalifət dəstələri "Zeytun budağı" əməliyyatı çərçivəsində şimal, şərq və qərbdən şəhərə daxil olmuş və heç bir müqavimətlə rastlaşmamışlar.

Türkiyə Silahlı Qüvvələri Baş Qərargahından verilən məlumata görə, hazırda Afrində minaların və partlayıcı qurğuların zərərsizləşdirilməsi əməliyyatı keçirilir. Xatırladaq ki, "Zeytun budağı" əməliyyatı yanvarın 20-də başlamışdır.

Qətər və Pakistan birgə təlimlər keçirdi

Qətər və Pakistan Qətər sularında dəniz təlimləri keçirmişdir. Bu barədə TRT telekanalı xəbər verir.

Məlumata görə, qaz və neft mədənlərinin müdafiəsinə, manevrlərin keçirilməsinə, habelə dəniz quldurlarına və qaçaqmalçılara qarşı mübarizəyə yönəlik "Dəniz şiri-1" təlimləri üç gün davam etmişdir.

Qətər Müdafiə Nazirliyindən bildirmişlər ki, bundan əvvəl Qətər hərbi dəniz donanması İtaliya və Hindistanın hərbi dəniz qüvvələri ilə birgə təlimlər keçirmişdir.

Çin parlamenti hökumətin yeni tərkibini təsdiqlədi

Ümumçin Xalq Nümayəndələri Məclisinin birinci sessiyasının deputatları ÇXR Dövlət Şurasının yeni tərkibini təsdiqləmişlər. Bu barədə TASS agentliyi xəbər verir. Məlumata görə, kabinetin yeni kadr tərkibini qanunvericilərə hökumətin başçısı Li Ketsyan təqdim etmişdir.

Dövlət Şurası Baş nazirin müavini vəzifəsinə Şanxay Partiya Komitəsinin sabiq başçısı, Siyasi Büronun daimi komitəsinin üzvü Xan Çjen təyin edilmişdir. Hökumət başçısının digər müavinləri Siyasi Büronun aşağıdakı üzvləri olmuşdur: Mərkəzi Komitənin Vahid Cəbhə Şöbəsinin sabiq başçısı Sun Çunlan, Quandun əyalətinin Partiya Komitəsinin keçmiş başçısı Xu Çunxua və ÇXR Sədri Si Cinpinin iqtisadiyyat üzrə aparıcı müşaviri Lü Xe. Gözlənildiyinə görə, Lü Xe Baş nazirin müavini vəzifəsində yeni Nazirlər Kabinetinin maliyyə-iqtisadiyyat blokunun fəaliyyətinə kuratorluq edəcək.

Portfelsiz nazir Van Yun, xarici işlər naziri Van İ, müdafiə naziri Vey Fenxe, Dövlət Şurasının katibi Siyao Sze və ictimai təhlükəsizlik naziri Çjao Keçji ÇXR Dövlət Şurasının üzvü təyin edilmişlər.

Son 16 il ərzində Çinin Xalq Bankına başçılıq etmiş Çjou Syaoçuan vəzifəsindən kənarlaşdırılmışdır. Onu bu vəzifədə sabiq müavini İ.Qan əvəz edəcək.

NATO yeni mənzil-qərargaha köçür

Dünən NATO tikintisinə təxminən 1,2 milyard avro xərclənmiş yeni mənzil-qərargaha köçməyə başlamışdır. Bu barədə DPA agentliyi xəbər verir.

Bina alyansın Belçikanın paytaxtı Brüsseldəki əvvəlki mənzil-qərargahının yaxınlığında yerləşir. NATO nümayəndəsinin dediyinə görə, dörd min əməkdaş və diplomatın yeni mənzil-qərargaha köçürülməsi təqribən üç ay çəkəcək. Ötən ilin mayında yeni binada NATO-nun sammiti çərçivəsində tədbirlər keçirilmişdir. Təşkilatın köçürülməsi əvvəlcə 2017-ci ilə planlaşdırılmışdı. Lakin şəbəkə infrastrukturunda problemlərlə əlaqədar köçürülmə təxirə salınmışdı.

NORM
ƏSL SEMENT

Novruz bayramı
münasibətilə sizi ürəkdən təbrik edir,
sizə cansağlığı, səadət və
bol ruzi-bərəkət arzulayırıq.

Bayramınız mübarək!

www.norm.az

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ
açıq tender elan edir

Tender 2 LOT üzrə keçirilir:

LOT -1. Əsaslı təmir
LOT -2. Cari təmir

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Üzeyir Hacıbəyli 68 (Əlaqələndirici şəxs: Ümid Mehdiyev, telefon: (+99412) 493-00-26) ünvanından ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi zərfdən açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Yuxarıda qeyd olunan sənədlər (tender təklifi və tender təklifinin təminatı istisna olunmaqla) tender proseduru başlanmasından 7 (yeddi) bank günü əvvəl təqdim olunmalıdır.

Sənədlər Azərbaycan dilində, 2 (iki) nüsxədə tərtib olunmalıdır (başqa dildə tərtib olunmuş sənədlərə onların Azərbaycan dilində tərcümə edilmiş surətləri əlavə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İştirak haqqı Lotlar üzrə aşağıdakı məbləğdə təşkil edir:

LOT -1. 500 manat;
LOT -2. 300 manat.

Tenderdə iştirak etmək və əsas şərtlər toplusunu almaq üçün iştirakçı iştirak haqqını aşağıda göstərilən hesaba köçürməlidir:

VÖEN:	**1700495231**
Hesab:	**AZ92AIIB38090019441105141104**
Bankın adı:	**Kapital Bank ASC Cəfər Cabbarlı filialı**
VÖEN:	**9900003611**
Kod:	**200048**
Müxbir hesab:	**AZ37NABZ01350100000000001944**
S.W.I.F.T.:	**AIIBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 27 aprel 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 07 may 2018-ci il saat 17:00-a qədər Üzeyir Hacıbəyli, 68 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi zərfləri 08 may 2018-ci il saat 10:00-da Üzeyir Hacıbəyli, 68 ünvanında açılacaqdır.İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender komissiyası

"Azərsu" ASC nəqliyyat vasitələri və onların ehtiyat hissələrinin satın alınması məqsədilə
açıq tender elan edir

Tender 6 (altı) LOT üzrə keçirilir.

LOT-1. UAZ-390945-360 avtomobilinin satın alınması.
LOT-2. Yük motosikletlərinin satın alınması.
LOT-3. Alətlər və mal-materialların satın alınması.
LOT-4. Ehtiyat hissələrinin satın alınması
LOT-5. Avtoşinlərin satın alınması
LOT-6. Akkumulyator batareyalarının satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin Satınalmaların Təşkili və İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Hikmət Qasımovdan 431 47 67/2249) ala bilərlər.

İştirak haqqı hər bir lot üçün 300 manatdır.

Təşkilat: "Azərsu" ASC
VÖEN: 9900001751
Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı
Kod: 200112
VÖEN: 9900003611
M/h: AZ37NABZ 01350100000000001944
S.W. İ. F. T. BIK: AİİBAZ2X
H/h : AZ65AİİB 33070019441100216111

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **30 aprel 2018-ci il saat 18.00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **07 may 2018-ci il saat 16.00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Satınalmaların Təşkili və İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **08 may 2018-ci il saat 16.00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender komissiyası

Sərhəd pozucusu iş başında yaxalandı

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirləri uğurla davam etdirilir. DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində külli miqdarda narkotik vasitəsinin ölkə ərazisinə qanunsuz yolla gətirilməsinin qarşısı alınmışdır. Belə ki, Horadiz sərhəd dəstəsinin xidməti ərazisində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozmağa cəhd göstərən 1 şəxs sərhəd naryadı tərəfindən müşahidə olunmuşdur.

Sərhəd naryadının "dayan" əmrinə tabe olmayan sərhəd pozucusu geriyə qaçmağa cəhd göstərmiş, havaya xəbərdarlıq atəşi açıldıqdan sonra saxlanılmışdır. Sərhəd pozucusunun üzərinə baxış keçirilərkən 2 bağlamada 25 kq 500 qram narkotik vasitəyə oxşar maddə, 1 ədəd "Samsung" markalı mobil telefon, 1 ədəd bıçaq aşkar olunmuşdur.

Sərhəd pozucusunun Saatlı rayonunun sakini, 1991-ci il təvəllüdlü Hüseynov Əsgər Soltanəli oğlu olması, onun 14 mart tarixində Biləsuvar SNM-dən keçməklə İran İslam Respublikasına getməsi müəyyən edilmişdir.

Təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri nəticəsində narkotik vasitələrin qaçaqmalçılığında iştirakda şübhəli olan daha 3 Azərbaycan Respublikası vətəndaşının şəxsiyyəti müəyyən edilmiş və barələrində axtarış elan olunmuşdur. 19 mart tarixində həmin şəxslərdən biri - Füzuli rayonu Böyük Bəhmənli kənd sakini 1973-cü il təvəllüdlü Məmmədov İlham Elman oğlu şübhəli şəxs qismində saxlanılmışdır.

Fakt üzrə zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

"Azərbaycan"

ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı və Həmkarlar İttifaqı Komitəsi Aparatın İşlər İdarəsinin əməkdaşı Nərgiz Mir-Bəşirovaya atası

HÜSEYN MİR-BƏŞİROVUN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin böyük prokuroru

ELTUN BAYRAMOVUN

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi texniki direktor İsrail Bayramova oğlu

ELTUN BAYRAMOVUN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Xalqla əlaqə şöbəsi - 539-84-41,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoinformasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8922
Sifariş 813